**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOCİ UNİVERSİTETİ**

Quliyeva Nərgiz

# ETNOQRAFİYA VƏ ETNOLOGİYA

## Dərs vəsaiti

**BAKI – 2009**

***Rəyçilər:***

Vəli Əliyev – AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor

Məhəmməd Allahmanlı- tarix elmləri namizədi.

***Elmi redaktoru:***

Arif Məmmədov – tarix elmləri doktoru

Quliyeva Nərgiz Məlik qızı, tarix elmləri doktoru, professor. "Etnoqrafiya və Etnologiya" (dərs vəsaiti). Ali məktəb tələbələri üçün vəsait. Bakı, 2009, 157 səh.

Dərslikdə Etnoqrafiya və Etnologiya elmlərinə dair ən vacib mövzuların aydınlaşdırılmasına səy göstərilmişdir. Azərbaycanla bağlı məsələlərə də diqqət yetirilmişdir.

***ADPU-2009***

# ETNOQRAFİYANIN PREDMETİ, MƏNBƏLƏRİ, VƏZİFƏLƏRİ VƏ TƏDQİQAT METODLARI

Etnoqrafiya – dünya xalqlarının məişət və mədəniyyətindən, adət-ənənələrindən, etnik birliklərin yaranması və inkişafından, onların yayılması və qarşılıqlı mədəni əlaqələrindən bəhs edən tarix elmidir. Etnoqrafiya yunan sözü olub, «etnos» və «qrafo» sözlərindən əmələ gəlməklə «xalqın təsviri» mənasını verir. Xalqın məişəti ilə yanaşı Etnoqrafiya bir elm kimi həm də onun mədəniyyətini tədqiq edir. Etnoqrafiya elmi müxtəlif xalqların məişət və mədəniyyətində olan müxtəlifliyi öyrənməklə yanaşı onların oxşar cəhətlərini də nəzərdən qaçırmır, yalnız müasir xalqları deyil həmçinin, hazırda siyasi fəaliyyət səhnəsindən çıxmış, yox olmuş xalqları da öyrənir. Bununla Etnoqrafiyanın xüsusi bir sahəsi olan Tarixi etnoqrafiya məşğul olur.

Rus alimlərindən S.P.Tolstov Etnoqrafiyanın predmetindən danışaraq yazırdı ki, bu elm dünyanın müxtəlif xalqlarının məişət və mədəniyyətindəki xüsusiyyətləri bilavasitə öyrənən, müşahidə edən tarix elmidir.

Bu elm xalqın məişət və mədəniyyətindəki xüsusiyyətlərin tarixi dəyişkənliyini və inkişafını, xalqların etnogenezini, etnik coğrafiyasını, onların qarşılıqlı mədəni-tarixi əlaqələrini tədqiq etməklə məşğul olur. Y.V.Bromley və S.A.Tokaryev etnoqrafiyanın tədqiqat obyektindən, predmet və metodlarından danışaraq yazırlar: «Etnoqrafiya - əsas tədqiqat obyekti bilavasitə etnos və ya etnik birliklərin digər tipləri olan tarix elmidir». 1968-ci ildə nəşr olunan «Etnoqrafiyanın əsasları» adlanan kitabında S.Tokaryev etnoqrafiyaya ümumiləşdirilmiş tərif verərək yazır: «Etnoqrafiya dünya xalqlarının məişət və mədəniyyətini öyrənən tarix elmidir». Y.V.Bromley isə 1973-cü ildə nəşr edilən «Etnos və etnoqrafiya» əsərində, habelə 1981-ci ildə çap olunan «Etnoqrafiyanın müasir problemləri» adlanan kitabında

etnoqrafiyanı «etnik birliklər haqqında elm» adlandırır. S.Tokaryevin həmin ümumiləşdirilmiş tərifini nəzərə alan Sankt-Peterburqlu alim R.İts etnoqrafiyaya aşağıdakı kimi tərif verir: «Etnoqrafiya xalqların məişətindən və etnik tarixindən, dünya mədəniyyətinin tərkib hissəsi kimi onların məişət və mədəniyyətindəki spesifik cəhətlərin formalaşmasından bəhs edən tarix elmidir». İngilis etnoqrafı Toms etnoqrafiyanın folklor (ingiliscə folk-xalq, lar-bilik) adlandırmağı təklif edirdi. Bu deyilənlərdən aydın görünür ki, etnoqrafiya elminin əsas tədqiqat obuekti bilavasitə etnosdur, xalqın özüdür. Məhz xalq anlayışı etnoqrafiyanın əsas və başlıca anlayışıdır, çünki xalq anlayışı çox vaxt etnosla eyniləşdirilir. Qədim yunan termini olan «etnos» etimoloji cəhətdən «xalq», «qəbilə», «insan qrupu» anlayışlarına uyğun gəlir. Y.Poplinskinin göstərdiyi kimi qədim yunanlar özlərini başqalarından fərqləndirmək üçün qeyri-yunanları «etnos» adlandırmışlar. Hər bir xalqın müxtəlif tarixi inkişaf dövründə onun etnoqrafik xarakteristikasında müəyyən əlamətlərdən biri və ya bir neçəsi ön plana çıxa bilər. Həmin əlamətlər bunlardır:

**DİL:** Yer kürəsində yaşayan xalqların əksəriyyəti öz milli dillərində danışır. Lakin çox vaxt müxtəlif xalqlar eyni bir dildə danışırlar. Məsələn, Latın Amerikası ölkələrində ispan dilində, Avstriya, Almaniya, İsveçrə və b. ölkələrdə alman dilində danışırlar. Bəzən isə bir xalq danışıqda iki və daha çox dildən istifadə edir. Məsələn, irlandiyalılar həm irland, həm ingilis dillərində, hindistanlılar həm hindi, həm də ingilis dillərində danışırlar. Buradan belə nəticə çıxır ki, dil bir xalqı başqalarından fərqləndirən yeganə əlamət hesab edilə bilməz.

**ETNİK ƏRAZİ:** Etnik ərazi, yəni müəyyən xalqın yerləşdiyi vilayət onu başqa xalqlardan fərqləndirən mühüm əlamətlərdən biridir. Hər bir xalq, adətən, müəyyən bir ərazidə formalaşır. Lakin bəzən tarixi inkişaf prosesində bir xalq başqa bir xalqla ərazi cəhətdən qarışıq yaşamağa məcbur olur. Belə bir şəraitdə parçalanmış etnik ərazi yaranmış olur. Çünki xalqın

müxtəlif hissələri arasındakı əlaqələr sarsılmış vəziyyətdə olur. Buna misal olaraq Rusiyada yaşayan başqırdları, tatarları, azərbaycanlıları, karelləri, buryatları və b. göstərə bilərik. Lakin elmə bir hal da məlumdur ki, xalq öz ərazi birliyinin pozulmasına baxmayaraq, vahid bir birlik kimi öz inkişafını davam etdirir.

**MƏİŞƏT VƏ MƏDƏNİYYƏT ÜMUMİLİYİ:** Oxşar təbii şəraitdə, bir-biri ilə ünsiyyətdə yaşayan insanlar bir qayda olaraq maddi və mənəvi mədəniyyət sahəsində oxşar ünsürlər yaradırlar.

**MƏNŞƏ BİRLİYİ:** Bu cəhət yalnız nadir hallarda bir xalqı başqalarından ayırmaq üçün fərqləndirici əlamət sayıla bilər.

Etnoqrafiyada **etnik öz-özünü anlama** xüsusiyyəti də əsas amillərdən biridir.

**ETNOQRAFİYANIN MƏNBƏLƏRİ, TƏDQİQAT ÜSULLARI VƏ VƏZİFƏLƏRİ:** Etnoqrafiya elminin əsas mənbələrini tədqiqatçının çöl müşahidələri təşkil edir. Etnoqrafın çöl müşahidələri müxtəlif formalarda aparılır: 1) Bilavasitə müşahidə; 2) Etnoqrafın yerli əhalinin işində fəal iştirakı; 3) İnformatorlarla müsahibə. Bir qayda olaraq çöl işlərinin aparılmasının 2 başlıca metodu vardır: 1) Ekspedisiya üsulu; 2) Stasionar üsul. I üsul etnoqrafın müəyyən qrup köməkçiləri ilə obyektdə apardığı müşahidələrdir. Ekspedisiya 10 gündən 3 aya qədər nəzərdə tutulur. II üsul isə etnoqrafın uzun müddət (10-15 il) araşdırdığı obyektin insanları ilə birlikdə yaşayaraq tədqiqat aparmasıdır. Təbii – tarixi, coğrafi, sosioloji, muzey və təsviri materiilara, habelə antropologiya, linqivistika, arxeologiya, folqlar və digər elm sahələrinə əsaslanan və bunlardan bir mənbə kimi istifadə edən etnoqrafiya elminin xüsusi tədqiqat metodları vardır. Məsələn, tarixi müqayisə metodu, kompleks yanaşma metodu, kartoqrafiya metodu, anketləşdirmə metodu, formal tipoloji

təhlil metodu, struktur-sistem metodu və s. metodları göstərmək olar.

Etnoqrafiya bir elm kimi digər humanitar və təbiət elmləri ilə sıx surətdə əlaqədardır. Elmin müstəqil sahə kimi Etnoqrafiya XIX əsrin ortalarında Qərbi Avropa və Amerika ölkələrində təşəkkül tapmağa başlamışdır.

Hazırda müasir Etnoqrafiyanın qarşısında çox mühümvəzifələr durur ki, bunları da başlıca olaraq 6 qrupa ayırmaq olar:

1) Ayrı-ayrı ölkələrin, həmçinin, bütün dünya əhalisinin etnik tərkibinin öyrənilməsi;

2) Xalqların etnik tarixi və etnogenezi problemi;

3) Nəsli qəbilə quruluşunun, yəni sinifsiz cəmiyyətin öyrənilməsi;

4)Tarixən formalaşan milli-mədəni ənənələrin öyrənilməsi;

5) Müasir məişətin öyrənilməsi;

6) Müasir etnik proseslərin öyrənilməsi.

## Etnoqrafiya elminin əsas anlayışları

Etnoqrafiyaya dair vəsaitlərdə küllü miqdarda ixtisas terminlərinə rast gəlinir ki, bunlar da çox vaxt geniş oxucu kütləsinə aydın olmur. Elmlərin diferensiasiyası və inteqrasiyası baş verdiyi bir əsrdə terminologiya problemi çox ciddi əhəmiyyət kəsb edir. Belə ki, başqa bir elm sahəsində istifadə olunan eyni bir termin orada əvvəlkindən fərqli məna kəsb edə bilir.

Etnoqrafik terminlər başlıca olaraq ictimai quruluşu, ailə-nikah münasibətlərini, maddi və mənəvi mədəniyyəti hər tərəfli əhatə edir. Bəzi terminlər isə ümumi, elmi əhəmiyyət kəsb edir.

**ÜMUMİ TERMİNLƏR** Etnoqraf tədqiqatçılar bir çox elm sahələrindən- tarix, fəlsəfə, coğrafiya, linqvistika, antropologiya, arxeologiya və s. ixtisas sahələrindən çoxlu

terminlər mənimsəyib istifadə edirlər. Ən çox istifadə olunan belə terminlərə misal olaraq aşağıdakıları göstərmək olar:

1. **İrq** – antropoloji termin olmaqla, mənşə etibarilə qohum olan insanların müəyyən bir qrupunu ifadə edir. Tarixən konkret bir ərazidə qərarlaşan, nəsildən-nəslə keçən fiziki əlamətlər kompleksinə görə bir-birindən fərqlənən böyük insan qruplarına **irq** deyilir. İrqlər ümumi, oxşar xarici fiziki əlamətlərinə görə bir-birindən seçilirlər. Canlı orqanizmin ətraf fiziki-coğrafi mühitə uyğunlaşmasının irqlərin formalaşması prosesində böyük rolu olmuşdur. İrqlərin formalaşması yuxarı paleolit dövründə (40-16 min il) əsasən başa çatmışdır. İrqlərin ətraf mühitə uyğunlaşması nəticəsində elə xarici fiziki əlamətlər kompleksi yaranmışdır ki, bu əlamətlərə görə dünya xalqalrına əvvəllər "ağ", "qara" və "sarı" rənglərə və üç əsas irqə ayırırdılar: avropoid,ekvatorial (neqroid) və monqoloid. Son vaxtlarda monqoloid irqindən amerikanoid, ekvatorial irqindən avstraloid irqinin ayrılması tövsiyyə olunur. İrqləşmə, yəni insan qruplarının irsən keçən fiziki əlamətlərinin dəyişməsi müasir dövrdə də davam edir. Lakin burada adaptasiya, yəni uyğunlaşma deyil, ictimai-iqtisadi proseslər həlledici rol oynayır. Etnoqrafiya irqləri deyil, elə insan qruplarını öyrənir ki, onların fiziki xüsusiyyətləri irqlərin tarixi əlaqələri nəticəsində dəyişikliyə məruz qalmış və yeniləşmişdir. Antropoloji ədəbiyyatda bu cür insan qruplarını antropoloji tip adlandırırlar.

2. **Mədəniyyət**-Etnoqrafiyada geniş istifadə olunan anlayışlardan biri də mədəniyyət terminidir. Bu anlayış öz tətbiq sahəsindən asılı olaraq müxtəlif mənalarda işlədilir. Fəlsəfi mənada mədəniyyət dedikdə təbiət tərəfindən deyil, yalnız insan tərəfindən yaradılan bütün şeylər başa düşülür. Latın dilindən götürülən "kultura" anlayışı "hazırlanmış", "emal edilmiş", "becərilmiş" sözlərinə uyğun gəlir. Zaman keçdikcə "mədəniyyət" anlayışı altında texniki nailiyyətlərin əsas inkişaf səviyyəsini, yazılı ədəbiyyatın və incəsənətin

inkişafını, sosial təşkilatların inkişaf səviyyəsini anlamağa başladılar. Qərb ədəbiyyatında Qərbi Avropanın "mədəni" xalqlarının digər "mədəniyyətsiz", "az mədəniyyətli" "təbii" xalqlara qarşı qoyulması bu mənada başa düşülür. Ümumi fəlsəfi anlayış olan "mədəniyyət" anlayışı etnoqrafiyada bir xalqı başqasından fərqləndirən maddi və mənəvi həyat amillərinin xüsusiyyətləri şəklində izah edilir. Bu xüsusiyyətlər bir qayda olaraq etnosun öz dilində əks olunur.

**3. Genezis** – yunan sözü olub mənşə, mənbə, yaranma mənalarında işlədilir. Bu termin etnoqrafiyada müəyyən bir xalqın, etnik birliyin mənşəyini öyrənən zaman qarşıya çıxır. Adi etnoqrafik təcrübədə bəzən müəyyən etnosun mənşəyindən, əmək alətləri tiplərinin, yaşayış evləri və xalq geyimlərinin genezisindən, müəyyən toy adətlərinin təşəkkülündən bəhs edir.

**4. Dil ailəsi**-Linqvistikadan etnoqrafiyaya dil ailəsi termini keçmişdir. Dünya xalqlarının etnoqrafik təsnifatını verərkən bu termindən geniş istifadə olunur. Burada dillərin qohumluğu onların mənşəyinə görə öyrənilir. Etnoqrafiayada avtoxton anlayışından da istifadə olunur. Avtoxton (yunan sözü olub "autos"-özü, "xtones"-torpaq) mənşə etibarilə yerli olan deməkdir. Yunan avtoxtonuna qədim Roma termini olan aborigen termini uyğun gəlir ki, bu da "müəyyən bir ölkənin yerli əhalisi", "həmin ərazidə ən qədimdən yaşayan" deməkdir. Xarici etnoqrafiyada hər iki termindən geniş istifadə olunur. Birinci termin müəyyən mədəniyyət amilinə aydınlaşdırıcı söz kimi, sifət kimi əlavə edilir (avtoxton mədəniyyət, avtoxton adət və s.). İkinci isə yerli xalq mənasında işlədilir. Tuzemel bu torpağın sakini, aborigen, inorodnıe, inoqorodnıe və bu kimi anlayışlar başqa xalqların heysiyyətinə toxunmaq mənasında başa düşülür və təhqiramiz xarakter daşıyır.

**5. Oykumena**.Etnoqrafiyada istifadə olunan bir çox terminlər biologiya və sosiologiyadan mənimsənilmədir. Məs. **oykumena** – yunan sözü olub yaşamaq sözündən

götürülmüşdür. Başqa sözlə bu termin yer kürəsinin insanlar tərəfindən məskunlaşmış hissəsi deməkdir. Etnik ərazi müəyyən bir etnosun təşəkkül tapdığı yer, həmin etnosun əsas hissəsinin yerləşdiyi ərazi deməkdir. Çox vaxt etnik ərazi dövlət sərhədləri ilə uyğun gəlmir. Asiya, Avropa, Amerika və Okeaniyanın bir çox rayonlarında dövlət sərhədləri etnik əraziləri parçalayır və ciddi surətdə daxili milli problemlər yaradır. Azərbaycanlıların 30 milyona qədəri İranada, 2 milyondan artığı RFR ərazisində yaşayır. Albanların 70 faizə qədəri Albaniyada, 30,5 faizi Serbiyada yaşayır. Kürdlərin 43 faizi Türkiyədə, 21,6 faizi İranda, 20 faizi İrakda, qalanları isə Azərbaycanda və başqa ölkələrdə məskunlaşmışdır. Taciklərin 62,1 faizi Əfqanıstanda, qalanları isə Tacikistanda yerləşmişdir. Miqrasiya – (latınca "miqrasio" – köçmə) etnik qrupları etnik ərazi daxilində hərəkəti və yaxud onların başqa rayonlara köçməsi deməkdir. Xarici ədəbiyyatda miqrasiya termini ən çox mədəniyyətə aid edilir və miqrasiya prosesi müəyyən bir mədəniyyətin yad etnik və mədəni vilayətə nüfuzu kimi başa düşülür.

**6. İnteqrasiya**. Etnik proseslərin xarakterini müəyyənləşdirmək üçün əksər hallarda **inteqrasiya, konsolidasiya** və **assimilyasiya** kimi latın terminlərindən istifadə olunur. İnteqrasiya hərfi mənada ayrı-ayrı hissələrin vahid bir tamda birləşməsi deməkdir. Bu müxtəlif etnik mədəniyyətlərin qarşılıqlı əlaqəsi zəmnində mədəniyyətlərin yaxınlaşmasına aiddir. Müstəqil xalqların və ya onların böyük qruplarının böyük etnoslar şəklində birləşməsinə **konsolidasiya** deyilir. Adətən bu cür birləşmələrin vahid dili və mədəniyyəti olur. Məs, telenkitlərin, çelkanların, kumandinlərin və teleutların vahid Altay etnosunda birləşməsi kimi, **Assimilyasiya** isə artıq formalaşmış etnosların qarşılıqlı təsiredici əlaqə prosesidir. Bu cür etnoslar əksər hallarda mənşə, dil və mədəniyyət cəhətcə müxtəlif olurlar. Qarşılıqlı güclü əlaqələr nəticəsində bir etnosun nümayəndələri

başqasının dili və mədəniyyətini bütünlüklə mənimsəyir və öz keçmiş mənsubiyyətini tamamilə itirmiş olur. Assimilyasiya həm könüllü, həm də zorakı yolla baş verə bilər. Axırıncı amil mürtəce qüvvələrin hökm sürdüyü ölkələrdə baş verir ki, orada assimilyasiya siyasəti azlıqda qalan xalqların mədəniyyətinin məhvinə doğru yönəldilmişdir.

**7. Adaptasiya** – insanların yeni etnik mühitə uyğunlaşmasına deyilir. **Adaptasiya** və ya **akkomodasiya** ən çox biologiyada işlədilir.

**8. Akkulturasiya** – mədəniyyətlərin qarşılıqlı nüfuzu deməkdir. Bu halda müstəqil mədəniyyətlərin öz əvvəlki modelləri dəyişikliyə məruz qalır. Əksər hallarda xarici etnoqrafiyada akkulturasiya avropalaşmanın sinonimi hesab olunur. Akkulturasiya Avropa mədəniyyətinin, təsərrüfat qaydalarının, sosial institutlarının Asiya, Afrika, Amerika və Okeaniya xalqlarının arasında yayılması deməkdir.

**9. Urbanizasiya** – etnoqrafiya terminlərinə Qərbi Avropa sosiologiyası və etnoqrafiyasından daxil edilmişdir (latınca "Urbanus"-şəhər sayağı deməkdir). Urbanizasiya sənayenin və əhalinin iri şəhərlərdə toplanmasına deyilir. Etnoqrafik ədəbiyyatda bu anlayış belə bir məna kəsb edir ki, şəhər mədəniyyətinin standart tiplərinin hər yanda yayılması nəticəsində kəndlə şəhər arasındakı mədəni fərqlər aradan qalxır.

**10. Traybalizm** – Müasir siyasi mətbuatdan etnoqrafiyaya t**raybalizm** termini də keçmişdir (ingiliscə "trayb"-qəbilə deməkdir). **Traybalizm** gənc Asiya və Afrika dövlətlərində müasir dövrdə qəbilə xüsusiyyətlərinin saxlanılmasına deyilir ki, bu qalıqlar qəbilələr arasındakı münasibətlərə mənfi təsir göstərir. Siyasi ədəbiyyatda traybalizm millətçiliyin sinonimi kimi işlədilir.

**11. Stereotip** – Sosial psixologiyadan stereotip anlayışı da qəbul edilmişdir (yunanca "stereos"-möhkəm, "tipos"-iz, şəkil). Bu anlayış etnoqrafiyada, etnik birlik daxilində

nəsildən-nəslə keçirilərək saxlanılan, gündəlik həyat təcrübəsi ilə möhkəmləndirilən davranış normalarını xarakterizə edərkən işlədilir. Məs., etnik stereotip, mədəni stereotip və s..

Etnoqrafiyada elmi maddi və mənəvi mədəniyyət elementlərinə görə insan kollektivlərinin keçmiş tarixini bərpa edərkən **mərasim, ayin, adət, qalıq, ənənə** kimi anlayışlardan da geniş istifadə edir.

**12. Adət** – müəyyən etnik birlik daxilində qəbul edilmiş davranış qaydalarıdır.

**13. Mərasim** – etnosun müəyyən sosial, ailə və mənəvi həyatı ilə bağlı olan reqlamentli hadisələrdir. Bunları bir-birindən fərqləndirmək üçün onlar aşağıdakı söz birləşmələri şəklində işlədilir: dəfn mərasimi, toy mərasimi, qonqpərvərlik adəti, oğulluğa götürmə adəti və s.

**14. Qalıq** – ictimaivə mənəvi həyatın müasir vəziyyətinə yabançı olan, keçmiş mədəni mərhələlərdən bu günə qədər gəlib çatan və etnik birliyin üzvləri tərəfindən bir vərdiş kimi icra edilən mədəni amildir. Bunlar qədim mərasim və adətlərin qalığı kimi yaşaya bilir.

**15. Ənənə** - (latınca "traditsiya"- ötürülən, keçirilən deməkdir) etnosun həyatını qoruyub saxlamaq üçün maddi və mənəvi mədəniyyətin, ailə və ictimai həyatın elə bir amilidir ki, cəmiyyətin üzvləri onu nəsildən-nəslə keçirirlər. Bəzən insanların məqsədyönlü fəaliyyəti nəticəsində maddi və mənəvi mədəniyyətin yeni formaları meydana çıxır ki, bunlara **yenilik, innovasiya** deyilir. Tədricən bunlar ənənəyə çevrilir.

## İCTİMAİ HƏYAT TERMİNLƏRİ

**Nəsil-** Sosial həyatın ən mühüm anlayışlarında biridir . O, sinfi cəmiyyətəqədərki dövrün əsas ictimai-iqtisadi hüceyrəsidir. Nəsil öz mənşəyini vahid bir əcdaddan götürən qan qohumlarının ittifaqıdır. Antik dünyada nəsil sözünə "gens" anlayışı uyğun gəldiyindən kentil quruluş, kentil təşkilat terminlərindən də istifadə olunur.

**Ana nəsli** – ana xətti ilə qohum olan qan qohumlarının ittifaqıdır.

**Ata nəsli** – isə ata xətti ilə qohum olan qan qohumlarının ittifaqıdır. Qərbi Avropa ədəbiyyatında “klan” termini ata nəsli termini ilə sinonim sayılır. Məsələn, Şotlandiyada ata nəsli quruluşu klan quruluşu kimi xarakterizə olunur.

**Matriarxat** – (latınca “mater”-ana, yunanca “arxe”-hakimiyyət) hərfi mənada ananın hakimiyyəti deməkdir. Ananın hökmüranlığı bəşəriyyət tarixinin o dövrünə aiddir ki, bu vaxt qadınlar sosial quruluşun yüksək pilləsində dururdular və bir qayda olaraq rəhbərlər onların içərisindən seçilirdi. Müasir etnoqrafiyada matriarxat dedikdə qadınların hökmüranlığının o dövrü başa düşülür ki, insanların ictimai mövqeyi və hüquqları ana xətti ilə cərəyan edən qan qohumluğu ilə müəyyən olunurdu. Nəsli hakimiyyətin icraçıları isə çox vaxt hakimiyyəti ana xətti ilə keçən kişilərdən ibarət olurdu.

**Patriarxat** – (yunanca “patriarxe”-nəslin başçısı) kişilərin hakimiyyəti mənasında işlədilir. Etnoqrafiyada bu quruluş sinifsiz cəmiyyətdən sinifli cəmiyyətə keçid dövrü kimi xarakterizə olunur. Burada qohumluq ata xətti ilə müəyyənləşdirilir. Bununla belə ana nəsli qalıqları güclü olur. Xronoloji baxımdan patriarxatın təşəkkülü dünyanın bir çox xalqlarında müşahidə olunan ilk tunc dövrünə, yəni maldarlığın əkinçilikdən ayrılması dövrünə təsadüf edir. İnsanların təsərrüfat fəaliyyətinin müxtəlifliyindən asılı olaraq demək lazımdır ki, patriarxatın yaranması ana nəslindən ata nəslinə keçilməsini zəruri edən iqtisadi tələbatın yaranması dövründən başlanmışdır. Patriarxat sinifsiz cəmiyyətin son pilləsi, sinifli cəmiyyətin ilk pilləsi hesab olunur.

**Ekzoqamiya** (yunanca “ekzo”-xarici, “qamos”-nigah) – hərfi mənada kənardan nikah olmaqla nəslin mühüm əlaməti sayılır. Ekzoqamiya prinsipinə əməl edilməsi nəslin üzvlərinin təsərrüfat və ailə-nikah münasibətlərində böyük rol oynayırdı.

**Endoqamiya** (yunanca "endoi"-daxili, "qamos"-nikah) – hərfi mənada daxili nikah deməkdir. Endoqamiya, nəinki bir etnik birlik kimi, habelə sinifsiz cəmiyyətin sosial təşkilatının yüksək forması kimi qəbilənin çox mühüm əlaməti olmuşdur. Qəbilə etnik və təsərrüfat baxımından nəsil kimi mikrostrukturanı endoqamiya yolu ilə özündə birləşdirən ali makrostruktura idi.

**Fratriya** – qarşılıqlı nikah əlaqəsində olan bir neçə nəsilləri birləşdirən qəbilə bölgüsü idi. Bunlar çox vaxt bir nəslin sonrakı inkişafı nəticəsində yaranmışdı. Qəbilənin ən ilkin başlanğıcı azı iki nəslin mövcud birliyi şəklində olmuşdur. Nəslin və ya qəbilənin təsərrüfat fəaliyyəti ümumi təsərrüfat formasına – icmaya əsaslandığı üçün bunu həm də nəsli icma və ya arxaik icma adlandırırlar. Məlum olduğu kimi bütün ibtidai icma dövründə, yəni sinifsiz cəmiyyətdə əmək alətləri və istehsal vasitələri üzərində icma mülkiyyəti mövcud olmuşdur. Bu cür icmalar bir qayda olaraq qohumluq münasibətlərinə əsaslanırdı.

Əmlak bərabərsizliyinin yaranması, qan qohumluğu əlaqələrinin sarsılması və ərazi əlaqələrinin yaranması nəticəsində nəsli icmalar kənd icmalarına və ya əkinçilik icmalarına çevrilirdi. Bu da öz dualizmi ilə seçilirdi. Belə ki, torpaq, otlaq və biçənəklər üzərində icma-kollektiv mülkiyyət saxlanılır, istehsal vasitələri üzərində isə ayrı-ayrı ailələrin xüsusi mülkiyyəti təşəkkül tapırdı. Deməli ailələrin istifadə etdiyi əkin sahələri və otlaqlar icmaya məxsus idi. Oradan götürülən gəlir isə fərdi xarakter daşıyırdı. Sinifsiz cəmiyyət dövründə yaranan bu qayda son günlərə qədər davam etmişdir.

**Patronimiya** – sinifsiz cəmiyyətin son dövründə, patriarxal ailələrin dağılması zamanı daha yaxın qohumluq telləri ilə bir-birinə bağlı olan ailələr vahid birlik təşkil edirdilər ki, bu cür ailə qrupları patronimiya adlanırdı. Patronimiyanı 1931-ci ildə M.O.Kosven kəşf etmişdir. Kosvenə görə patronimiya da nəsil kimi **ekzoqam** olmuşdur.

Xarici etnoqrafiyada patronimiyanın sinonimi linecdir (ingiliscə nəsillərin xətti). Düşmən təhlükəsini dəf etmək üçün qəbilələr (qohum və ya qonşu) müvəqqəti ittifaqlarda birləşirdilər. Müdafiə məqsədi ilə yaranan qəbilə ittifaqları əksər hallarda öz ictimai-iqtisadi mənafeləri naminə ittifaqı uzun müddət üçün saxlayırdılar (irokezlərin liqası, kriklərin konfederasiyası). Bəzi hallarda isə hərbi təhlükənin sovuşmasından sonra ittifaqlar dağılırdı. Qəbilə ittifaqları sinfi cəmiyyətə keçid dövründə yaranmışdır. Hərbi demokratiya dövrü adlanan bu dövrdə seçkili rəhbərlərlə yanaşı hərbi sərkərdələrin də ictimai rolu yüksəlirdi. Bunlarda qəbilə üzvləri və ya qəbilə şurası tərəfindən seçilirdi. Qəbilə ittifaqları dövlətin, hərbi rəhbərlərin hakimiyyəti isə kral və ya knyazın hakimiyyətinin rüşeymləri idi.

Nəsli və ya qəbiləni ağsaqqallar idarə edirdilər. Onlar dünyəvi və dini funksiyalar daşıyırdılar. O, nəslin və ya qəbilənin adət-ənənələrinə ciddi riayət olunmasına nəzarət edirdi. Qəbilə rəhbərinin funksiyası ondan ibarət idi ki, o, təsərrüfata başçılıq edir, nəsillər arası ixtilafları həll edir, hərbi işə rəhbərlik edirdi. **Nəsli şura** – nəslin tam bərabər hüquqlu üzvlərinin ümumi yığıncağı idi. **Qəbilə şurası** – isə qəbiləyə daxil olan nəsil ağsaqqallarının yığıncağı idi.

**İnitsiyasiya**. Sinfi quruluşa qədərki cəmiyyətin həyatında initsiyasiyalar (təqdis adətləri) böyük rol oynayırdı (latınca “initsiare”-başlamaq). Bu yeniyetmələrin böyüklər cərgəsinə keçirilməsi qaydası idi. Sosial institutların biri də gizli ittifaqlardır. Bunlar nəsil arası dini təriqətlər kimi təşəkkül tapmışdılar; lakin sonralar qəbilənin rəsmi hakimiyyətinə qarşı ictimai-siyasi məqsədlər güdməyə başlamışdı. Qəbilədə kişi evləri də olurdu. Bunlar ilk mərhələdə nikahdan sonra nəslə daxil olan kişilərin yaşadığı yer idi. Lakin sonrakı mərhələdə arvadların nəsli daxilində kənar nəsillərdən gəlmiş kişilərin mənafeyini müdafiə edən sosial təşkilata çevrilmişdilər.

**Kasta** – (portuqaliya dilində nəsil deməkdir) qapalı endoqam ictimai qrupdur. Onun öz xüsusi davranış qaydaları vardır.

## AİLƏ-NİKAH TERMİNLƏRİ

Ailə-nikah münasibətləri anlayışı ailə və nikah formalarının, adət və mərasimlərinin kompleks şəklində əks etdirilməsidir.

**Nikah** – adət hüququ və qanunla rəsmiləşdirilən kişilərin və qadınların cinsi yaxınlığını əks etdirən sinfi cəmiyyətdə yaranmış aktdır. Nikah dövründə ər və arvadın qarşılıqlı hüquq və vəzifələri meydana çıxır.

**Ailə** - ər və arvaddan, onların övladlarından ibarət olan ictimai-iqtisadi hüceyrədir. Sinfi cəmiyyətdə onun ən geniş yayılan forması **monoqamiya**dır. Nikahın formaları nikah cütünün birləşməsinin xarakteri mənasını verir. **Qızların qaçırılması** – bu qızların və onların valideynlərinin razılığı və ya qeyri razılığı zamanı qaçırma yolu ilə bağlanan nikah formasıdır. **Ödəncli nigah** – (kalım) – Adaxlının gəlinin əvəzində qızın ailəsinə ödənc verməsidir. İşləyib ödəmə əsasındakı nikah da buna aiddir. **Gəzmə nikah** – nikahın elə bir formasıdır ki, bu zaman ər-arvad ayrı-ayrı nəsillərdə yaşayır və yaxud ər arvadın evində deyil, kişilər üçün nəzərdə tutulmuş xüsusi evlərdə yaşamasıdır. **Qonaqpərvər heterizm** – qrup nigahının bir formasıdır. Bu vaxt ərlə eyni bir sinfə, nəslə, yaş sinfinə daxil olan qonaq onun arvadı ilə yaşamaq hüququna malik olurdu. Sinifsiz cəmiyyətin bütün dövrlərində ən geniş yayılan **qrup nikahı** forması idi. Bu vaxt bir qrup kişilər və qadınlar müvəqqəti və ya daimi olaraq bir-birinin ərləri və arvadları hesab olunurdular. Lakin ciddi bir tərzdə ekzoqamiyaya riayət olunurdu. Qrup nigahının qalıqlarına sinfi cəmiyyətlərdə də, hətta Asiya, Afrika və Okeaniyanın müasir xalqlarının bəzilərində bu günə qədər təsadüf olunmaqdadır. Qədim Romadakı **saturnaliya** qrup nigahının tipik qalığı

sayılır. Saturunun şərəfinə keçirilən məhsul bayramı günlərində müxtəlif nəsillərdən olan kişi və qadınlar arasında müvəqqəti olaraq cinsi əlaqələrə yol verilirdi. Asiyadakı müasir myao-yao xalqları da ay rəqsləri zamanı xüsusi cinsi münasibətlərdə olurlar ki, bunlar da tamamilə saturnaliyaya bənzəyir.

**Heterizm** – (yunanca "ketayra"-məşuqə) də qrup nikahının qalığıdır. Nikah yolu ilə bir kişiyə bağlı olan qadın başqa bir kişi ilə cinsi əlaqəyə girərsə bu heterizmdir. Başqa sözlə, qadın onunla nikah əlaqəsinə girə biləcək bütün kişilərə mənsub idi.

**Gənclər evi** – Cənub-Şərqi Asiyanın bir çox xalqlarında müşahidə olunan tikintilərdir. Burada müxtəlif nəsillərdən olan gənclər hədd buluğa çatana qədər görüşür və azad nikah əlaqəsində olurlar. Bir qayda olaraq sinifli cəmiyyət üçün **monoqam nikahlar** xarakterikdir. Bu tək nigahlılıq deməkdir. Bununla belə **poliqamiyaya** da təsadüf olunur ki, bu da çoxarvadlılıq deməkdir. Etnoqrafiyada **poliandriya** terminінə də təsadüf olunur ki, bu ən çox Tibetdə yayılan adətdir. Bütün bunlarla yanaşı zəruri sayılan nikahlar da mövcud olmuşdur. Məsələn, **ortakuzen** – (ortos-yunanca bilavasitə, kuzen-fransızca əmi oğlu) əmi oğlu ilə əmi qızı arasındakı nikah əlaqəsinə deyilir. **Kros-kuzen** nigah isə dayı oğlu ilə bibi qızı arasında bağlanan nigahdır; **sororat** – (latınca-soror-bacı) eyni vaxtda bir neçə bacı ilə bağlanan nigaha deyilir; **levirat** – (latınca-levir-qayın) qardaş arvadı ilə olan nigahdır.

**Promiskuitet**. XIX əsr klassik etnoqrafik ədəbiyyatında **promiskuitet** anlayışına tez-tez rast gəlinir. Bu nizamsız cinsi əlaqələr deməkdir. Nigahın bu ibtidai forması insanlığın ilk çağına-ibtidai sürü dövrünə aiddir.

Geniş yayılan istilahlardan biri də ailə formasıdır. Ailə forması nikah cütlərinin birləşməsinin spesifik reqlamentasiyasıdır. İkili ailə nikah cütlərinin qeyri-sabit şəkildə birləşməsidir. Burada qrup nikahlı qalıqları daha çoxdur. Fərdi ailə ata nəsli şəraitində cütlərin uzun müddət

üçün bir yerdə yaşamasıdır. Ana nəslindən ata nəslinə keçid dövrünün ziddiyətlərini əks etdirən bir çox etnoqrafik anlayışlar diqqəti cəlb edir. Belə adətlərdən biri kuvada adətidir (fransızca "kuveyd"-qırt oturmaq). Bu adət kişilərin öz atalıq hüququnu təsdiq etdiyi mərasimdir.

**Travestizm** – (fransızca-"travesti"-paltar dəyişmə) adətinin icrası zamanı kişilər arvad paltarı geyinir, öz cinsindən uzaqlaşır, qadın sayağı işlər görür.

**Avunkulat** – (latınca "avankulus"-dayı) – dayı ilə bacı uşaqları arasındakı qarşılıqlı hüquq və vəzifələrdir.

**Atalıq** – avankulatın xüsusi bir növü kimi, uşaqların kənar ailədə tərbiyə edilməsidir. Qardaşlaşma – qanların qarışdırılması yolu ilə və yaxud eyni bir qadınla yaşamaq yolu ilə müxtəlif mənşəli kişilərin qohumlaşması. Oğulluğa və ya qızlığa götürmə - ailənin və ya nəslin tam bərabər hüquqlu üzvü olma; **Matrilineynıy** – ana xətti; **patrilineynıy** – ata xətti; matrolokal - ərin nikah zamanı arvad nəslinə keçməsi; **patrilokal** – arvadın ərin nəslinə keçməsi; **bilokal** – növbə ilə gah ərin, gah da arvadın nəslində yaşamaq; **neolokal** - ər və arvad valideynlərindən ayrı yaşayır; **dislokal**ər və arvad ayrı-ayrılıqda, hərə öz mənsub olduğu nəsildə yaşayır.

## DÜNYA XALQLARININ TƏSNİFAT NÖVLƏRİ

### a) Coğrafi təsnifat

Xalqları qruplaşdırmaq və müəyyən qanunauyğunluqları aşkara çıxarmaq üçün əsasən aşağıdakı təsnifat növlərindən istifadə olunur: 1) coğrafi təsnifat; 2) dil təsnifatı; 3) təsərrüfat-mədəni təsnifat və 4) antropoloji təsnifat; 5) dini təsnifat; 6) ictimai-iqtisadi inkişaf səviyyəsinə görə təsnifat; 7)etnik birliklərin tipinə görə təsnifat; 8) əhalinin miqdarına görə təsnifat. Bütün bu təsnifat növləri bir-birini tamamlayır və müxtəlif məqsədlər üçün istifadə olunur.

Hər bir xalq öz etnik ərazisinə malik olduğu üçün onları bu əlamətə görə təsnif etmək mümkündür. Bu mənada “Afrika xalqları”, “Amerika xalqları”, “Asiya xalqları” kimi məvhumlardan istifadə edilir. Etnoqrafik xəritələrdə öz əksini tapan bu təsnifat xalqların əraziyə görə bölgüsünü göstərməklə bərabər, belə bir faktı sübut edir ki, xalqların müxtəlif ərazilərdə məskunlaşması hər hansı təsadüf üzündən baş verməmiş, əksinə uzun bir tarixi inkişaf prosesinin nəticəsidir. Məlum olduğu kimi yer kürəsinin insanlar yaşayan hissəsi **eykumena** adlanır. Eykumena tarixən dəyişmişdir. Halbuki insanın yarandığı dövrlərdə o, Afrika və Cənubi-Şərqi Asiyada cüzi bir ərazini əhatə edirdi. Yuxarı paleolitdə, sonra isə neolitdə məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğun olaraq eykumena genişlənmiş və Şimali Avropanı, Şimali Asiyanı, Amerikanı, Afrika və Avstraliyanı, Okeaniyanı əhatə etmişdi. Yalnız yaşayış üçün əlverişsiz olan yararsız kiçik sahələr məskunlaşmamış qalmışdı. Yeni-yeni torpaq sahələrinin mənimsənilməsi ilə yanaşı insan qruplarının yerdəyişmə prosesi də güclənmişdi. Əhalinin artması və təbii ehtiyatların tükənməsi kimi səbəblər üzündən qəbilə və tayfalar öz yerlərini tərk edir, başqa tayfaların ərazisini tutur və onlarla qarışırdılar. Bu vaxtlar nəinki quru, hətta dəniz yolları ilə köçmə olurdu. Tədricən ayrı-ayrı ölkələrin əhalisinin tərkibi də dəyişirdi. Məsələn, hələ bizim eradan əvvəl II minillikdə hindi-

çin əhalisinin xeyli hissəsi, əvvəllər qara dərili zənci-avstroloid tayfalarının yaşadığı İndenoziya adalarına köçmüşdülər. Buradakı zəncilər ya sıxışdırılmış, yaxud da, assimilyasiyaya uğradılmışlar. Gəlmələr indiki İndoneziyalıların əcdadları olmuşlar. Bizim eradan əvvəl II-I minilliklərdə isə Avropanın müasir xalqlarının əcdadları onlara qədər ki, əhalini sıxışdırmış və ya assimilyasiyaya uğratmışdılar. Qədim əhalidən indi Avropada yalnız basklar qalmışlar.

Bəşər tarixinin bəzi dövrlərində etnik yerdəyişmələr xüsusilə güclü olmuşdur. Bunlar daha geniş və kütləvi yerdəyişmələr olmaqla başlıca olaraq kapitalizm dövründə cərəyan etmişdir. Bu vaxt Qərbi Avropa ölkələrindən Amerikaya, Cənubi Afrika və Avstraliya ölkələrinə əvvəlcə işğalçılar və müstəmləkəçilər, sonra isə işsizlər axışıb gəlmişdilər. Buna görə də son 3-4 əsr ərzində dünyanın bir sıra ərazisinin, xüsusilə Avstraliya və Amerikanın əhalisinin tərkibi kəskin surətdə dəyişilmişdir.

Bütün bu deyilənlərdən o nəticə çıxır ki, xalqların coğrafi təsnifatı, təkcə insan qruplarının siyasi xəritədə yerləşməsi olmayıb, o, həm də insan tərəfindən yerin məskunlaşması prosesini göstərən başlıca amildir. Müxtəlif ölkələrin əhalisinin etnik tərkibi ilə tanış olarkən, yerli əhalini buraya çoxdan gəlmiş əhali qrupundan da fərqləndirməyi bacarmaq lazımdır. Məsələn, Şimali Amerikada yerli əhali sayca çox az qalmış hindu və eskimoslardır. Ağlar və zəncilər isə gəlmələr sayılırlar. Yerli əhalinin özü də məskunlaşma dövrü etibarilə bir-birindən seçilirlər. Məsələn, hinduların əcdadları Amerikada on minlərlə il bundan əvvəl məskunlaşdıqları halda, eskimoslar isə cəmi 2-3 min il bundan əvvəl həmin yerlərin daimi sakinləri olmuşlar. Yaxud Hindistanda dravidlər yerli əhali, arilər isə oraya yalnız 3-4 min il bundan əvvəl gələnlərdir.

Qeyd etmək lazımdır ki, bir müddət eyni bir ölkənin ərazisində yaşayan xalqlar onların genezisindən asılı olmayaraq

bir-biri ilə əlaqə nəticəsində adətən oxşar məişət və mədəniyyət formaları yaradırlar. Məsələn müxtəlif dilə və genezisə malik olan Qafqaz xalqları əsrlər boyu bir-biri ilə qonşuluqda yaşadıqlarından onlarda mədəni məişət ukladının bir çox oxşar xüsusiyyətləri yaranmışdır. Ümum Qafqaz geyim tipinin, xüsusən kişi paltarlarının oxşarlığını, silah, adət-ənənə və folklor materiallarının oxşarlığını buna misal göstərmək olar. Bu cür vəziyyəti dünyanın bir çox xalqlarında da müşahidə etmək olar.

Xalqların tarixən ümumi mədəni məişət xüsusiyyətlərinin formalaşdığı vilayətə **tarixi etnoqrafik vilayət** deyilir. Keçmiş sovet imperiyası daxilində belə tarixi etnoqrafik vilayətlərə misal olaraq Baltikyanı əraziləri, Orta Volqaboyunu, Qafqazı, Orta Asiyanı və s. göstərmək olar. Xalqları coğrafi cəhətdən təsnif edərkən, onları xəritə üzrə deyil tarixi-etnoqrafik vilayətlər üzrə təsnifləşdirirlər. **Tarixi-etnoqrafik vilayət tarixi kateqoriya sayılır**. Qədim xalqların formalaşması, yer üzərində insanların ilkin yayılması prosesi dövründə, e.ə. XII-VI minilliklərdə baş vermişdir. Daha sonradan ayrı-ayrı tarixi-etnoqrafik əyalətlərin xarakterik xüsusiyyətləri dəyişdiyi kimi, onların sərhədləri də dəyişmişdir. Bunun nəticəsində bəzi əyalətlər yox olmuş, bəziləri isə əksinə yenidən meydana çıxmışdır. Bu proses uzun minilliklər boyu müxtəlif ictimai-iqtisadi formasiyalar daxilində cərəyan etmişdir. Tarixi – etnoqrafik əyalətə müəyyən ərazidə məskunlaşan, bir-birilə əlaqədə olan, lakin ictimai-iqtisadi inkişafın, səviyyəsi və istiqaməti, dili və irqi mənsubiyyəti ilə fərqlənən xalqlara daxildir.

IV-IX əsrlərdə baş vermiş xalqların böyük köçünün nəticəsində antik inperiyaların xarabalıqları üzərində feodal dövlətləti meydana çıxmış, yeni xalqların təşəkkülü prosesi getmiş, Şərqi Avropa ərazisində slavyanların məskunlaşması başlamış və onlar demək olar ki, cənubda Balkan yarımadasınadək yayılmışdılar. Almanlar bir qədər qərbdə,

Mərkəzi və Şimali Avropada məskunlaşmışdılar. Onlar hətta keltlərin yaşadığı Britaniya adalarına da gəlib çıxmışdılar. Bu dövrdə, keçmiş Roma imperiyasına dəfələrlə basqın etmiş və onun süqutunda mühüm rol oynamış barbar tayfaların latınlaşdırılmış əhali ilə qarışması nəticəsində Roman xalqlarının formalaşması prosesi başlanmışdı. Bu vaxt Qərbə doğru hərəkət edən hunlar IV əsrin sonunda Avropaya çatmış və Dunay hövzəsində çox da möhkəm olmayan, lakin etnik cəhətdən çox qarışıq olan **konqlomerat** bir dövlət yaratmışdılar. Hunların arxasınca Şərqi Avropaya başqa türk tayfalarının – xəzərlərin, bolqarların, peçeneqlərin, poloveslərin güclü axını başlanmışdı, Bolqarların bir qrupu Volqanın yuxarılarınadək gəlib çıxmış və sonralar çuvaş, tatar xalqlarının etnogenezində görkəmli rol oynamışdılar. Onların digər qrupu 679-cu ildə Dunay çayını keçərək, cənubda yaşayan slavyanlar arasında ərimiş, lakin öz adlarını bolqar xalqına vermişdilər. VIII-IX əsrlərdə, dili Qərbi Sibirin Xantimansi xalqlarının dilinə bənzəyən macarlar, Cənubi Ural çöllərindən hərəkətə başlayaraq, Orta Dunay boyunda məskunlaşmışdılar.

Türk dilli xalqların kütləvi axını Cənubi Sibirdə, Mərkəzi və Orta Asiyada da baş vermişdir. Bunun nəticəsində, eramızın birinci minilliyinin ikinci yarısında, həmin ərazilərdə bir-birini əvəz etmiş bir çox tayfa ittifaqları və dövlət birləşmələri meydana gəlmişdi. V əsrin sonunda isə Orta Asiya tayfalarından biri olan Evtalitlərin (İrandilli tayfa) böyük qrupu Hindistan ərazisində məskunlaşmışdı və keçmiş Kuşan imperiyasının ərazisində böyük bir dövlət yaratdı. VI əsrdən etibarən Ön Asiyanın və Şimali Afrikanın yerli əhalisinin assimiliyasiyası ilə müşayiət olunan geniş ərəb işğalları dövrü başlayır. Bu dövrdə eyni zamanda Şərqi və Cənub-Şərqi Asiyada koreyalıların və yaponların konsolidasiyası başlayır. Çinlilər də tədriclə cənuba doğru yayılaraq, oradakı müxtəlif xalqlarla qarışmış, onların mədəni və təsərrüfat nailiyyətlərini

mənimsəyərək, eyni zamanda özü də bir-birindən fərqlənən yerli qruplara parçalanmış və yerli xalqlara çin dilini qəbul etdirmişdilər. Hind-çin yarımadasında vyetnamlıların, birmalıların, tailandlıların etnik və siyasi əraziləri mon-kxmer və indoneziyalılar hesabına xeyli genişlənmişdi. Sumatradan gəlmiş və Malaqkada məskunlaşmış malaylar, sonralar demək olar bütün İndoneziyada yayılaraq yerli etnik qruplarla birlikdə bir çox yeni xalqların təşəkkül tapmasına şərait yaratmışdılar.

II minilliyin birinci yarısında Asiya və Avropanın etnik tarixinə monqol hücumlarının böyük təsiri olmuşdur. Etnik qrupların uzaq yerlərə köçü ilə müşayiət olunan monqol işğalları xalqların bir-birinə qarışmasını sürətləndirirdi. Mərkəzi, Orta və Ön Asiyada, habelə Qafqazda və Şərqi Avropada yeni xalqların meydana gəlməsinə səbəb oldu. Bu etnik proseslərə misal olaraq Sibirdə, Volqa boyunda, Krımda müxtəlif tatar qruplarının təşəkkül tapdığını göstərmək olar. Tatar-monqol yürüşlərindən bir qədər əvvəl Balkan yarımadasına, müasir Mərkəzi Asiya türkmənlərinin əcdadı olan oğuz-türk tayfalarının köçü başlanmışdı. Onların yerli əhali ilə qarışması nəticəsində bir sira yeni xalqların, o cümlədən azərbaycanlıların və Osmanlı türklərinin formalaşması üçün şərait yarandı. Təxminən eyni vaxtda bantu dillərində danışan tayfaların Şərqi və Mərkəzi Afrikadan cənuba doğru yayılması prosesi gücləndi, XV əsrin sonunadək Asiya, Avropa və Afrikada demək olar ki, bizim dövrümüzə qədər gəlib çıxan bütün xalqlar artıq təşəkkül tapmışdı.

Dünya xalqlarının etnik tarixində kapitalizmin meydana çıxması və onun inkişafının böyük rolu olmuşdu. Bu dövrdə - yəni XVI-XIX əsrlərdə avropalılar Amerikaya, Avstraliyaya və Okeaniyaya yayılmışdılar. Bu böyük miqrasiyalarda, əvvəlcə ispanlar və portuqaliyalılar, bir qədər sonra hollandlar, fransızlar və ingilislər əhəmiyyətli rol oynamışdılar. Öz doğma torpaqlarından müxtəlif səbəblər üzündən ayrılan bu xalq qrupları yeni məskunlaşdıqları ərazilərdə yerli tayfalarla

əlaqəyə girmiş və yeni xalqların təşəkkülü üçün imkan yaratmışdılar. Bu vaxtlar müstəmləkə ölkələrində aborigenlərin çoxu məhv edilmiş və ya təcrid olunmuşdular. Bu mənada yeni xalqların formalaşması birinci növbədə Mərkəzi və Cənubi Amerikaya aiddir. Buradakı etnik inkişafın ikinci mərhələsi Kanada, ABŞ, Argentina, Avstraliya və Okeaniya xalqları üçün xarakterikdir. Afrikanın cənubunda eyni yolla müasir hollandların əcdadlarından (burlardan) xüsusi bir etnos-afrikan xalqı yaranmışdır. Onların dili holland dilinə yaxın olsa da, bir çox xüsusiyyətinə görə onlardan fərqlənir. Karib dənizi adalarında, Venesuela, Braziliya və Qananın etnik tarixində Avropalı mühacirlərin, habelə hindularla yanaşı Afrika mənşəli zəncilərin böyük rolu olmuşdur.

**b) Mədəni-təsərrüfat tiplərinə görə təsnifat**

Yaratdıqları təsərrüfat-mədəni tiplərin müxtəlifliyinə görə dünya xalqları aşağıdakı kimi qruplaşdırılır. **Təsərrüfat-mədəni tip** dedikdə, bir-birinə yaxın ictimai-iqtisadi inkişaf səviyyəsində olan, oxşar təbii-coğrafi şəraitdə yaşayan, müxtəlif xalqlarda tarixən meydana gələn təsərrüfat və mədəniyyətin müəyyən kompleks xüsusiyyəti başa düşülür. Bu tiplər hər bir cəmiyyətin istehsal üsulu ilə əlaqədardır. Müxtəlif tarixi dövrlərdə, insanların onları əhatə edən təbiətə münasibətini yalnız istehsal üsulu müəyyən edir. Müxtəlif ictimai-iqtisadi şəraitdə eyni mədəni-təsərrüfat tipləribir-birilə əlaqəsi olmayan, bir-birindən çox uzaqlarda yaşayan xalqlarda da meydana gələ bilər. Təsərrüfat-mədəni tiplər arasındakı fərq əhalinin təsərrüfat fəaliyyətində, habelə maddi və mənəvi mədəniyyət elementlərində özünü göstərir. Müxtəlif xalqların ictimai quruluşu, həmin xalqların öz mədəni-təsərrüfat tipləri ilə müəyyən edilir. Eyni zamanda həmin tiplər cəmiyyətin məhsuldar qüvvələrinin səviyyəsini əks etdirir. Təsərrüfat-mədəni tiplər tarixi kateqoriyadır. Bunlardan bəziləri hələ ibtidai insanların təşəkkülü dövründə, bəziləri isə ibtidai icma

quruluşunun dağılması və ilkin sinfi cəmiyyətlərdə meydana gəlmişdir. Kapitalizmə qədər ki, dövrdə yaranan bu mədəni təsərrüfat tipləri, məhsuldar qüvvələri səviyyəsinə görə üç qrupa bölünür. Birinci qrupa – böyük iqtisadi əhəmiyyətə malik olan ovçuluq, yığıcılıq və qismən balıqçılıq; İkinvi qrupa – toxa əkinçiliyi və maldarlıq; Üçüncü qrupa – isə təsərrüfat işləri zamanı heyvanların gücündən dartı qüvvəsi kimi istifadə edilən kotan əkinçiliyi daxildir. Müxtəlif ictimai-iqtisadi inkişaf səviyəsində olan müasir xalqlarda mədəni-təsərrüfat tiplərinin hər üç qrupuna rast gəlmək mümkündür. Bununla belə nəzərə almaq lazımdır ki, bu tiplər bir halda iqtisadiyyat və məişətdə həlledici rol oynayırsa da, başqa hallarda keçmişin qalıığı kimi özünü göstərir. Birinci qrupun tipləri üçün xarakterik cəhətlər – insanların yaşayıb qidalanması üçün yeganə mənbə sayılan yabanı bitkilərin və vəhşi heyvanların olmasıdır. Bunlar da söz yox ki, qida üçün yararlə hala salınmalıdır. Bu mərhələdə iqtisadiyyatda sadə istehsal vasitələrinin, ilk növbədə ovçuluq, yığıcılıq və balıqçılıq alətlərin istehsalı əsas yer tutur.

- **Birinci qrup** tiplərinin məhsuldar qüvvələri inkişafın səviyyəsi baxımından məhduddur.burada əmək məhsuldarlığı nisbətən aşağıdır. Eyni zamanda izafi məhsul tamamilə yoxdur. Ona görə də bu mərhələdə hələ kifayət qədər əmlak bərabərsizliyi və siniflərin meydana gəlməsi üçün iqtisadi əsas yoxdur. İzafi məhsul təkcə oturaq balıqçılarda və dəniz ovçuluğu ilə məşğul olan qrupların bəzilərində özünü göstərməyə başlayır. Bununla əlaqədar olaraq ictimai differensiasiya üçün, xüsusən ev qulçuluğunun yaranması üçün şərait meydana çıxır. Ovçuluq, yığıcılıq və balıqçılıq bazası üzərində heç bir vaxt heç bir yerdə sinfi cəmiyyət yaranmamışdır. Nə qədər ki, təsərrüfatın bu sahələri yeganə əsas idi, bəşəriyyət ibtidai icma quruluşu çərçivəsindən kənara çıxa bilmirdi. Birinci qrupa daxil olan mədəni-təsərrüfat tipləri hələ paleolit və mezolitdə meydana gəlmişdi.

- **İkinci qrup mədəni**-təsərrüfat tipləri toxa əkinçiliyi və maldarlıqdır. Bu qrupun tipləri birinciyə nisbətən irəliyə doğru atılmış böyük bir addımdır. Bu qrupda yaşayıb qidalanmaq üçün əsas mənbə mədəni bitkilərin becərilməsi və ev heyvanlarıdır. İqtisadiyyat birinci qrupdakına nisbətən möhkəmdir, əmək məhsuldarlığı yüksəkdir. Burada izafi məhsul yaranıb daimi xarakter kəsb edir və yığım üçün şərait yaradır. Əmlak bərabərsizliyi özünü qabarıq şəkildə göstərir. İstismar müxtəlif formalarda təzahür edir. İnkişaf etmiş toxa əkinçiliyi və heyvandarlıq bazası üzərində, bu xalqlarda ilkin sinfi münasibətlər, xüsusən quldarlıq və feodalizm münasibətləri meydana çıxır. Bu qrupa daxil olan xalqlarda artıq sənətkarlıq kənd təsərrüfatından ayrılmış və yüksək inkişaf yoluna düşmüşdür.
- **Üçüncü qrup mədəni** – təsərrüfat tipinə əkinçiliklə maldarlığın sintezi nəticəsində təsərrüfat və mədəniyyətin nisbətən yüksək tipi olan kotan əkinçiliyi daxildir. Torpağın şumlanmasında əl əməyinin nisbətən asanlaşdırılması, şum işində yeni alətlərə keçilməsi, heyvanların gücündən dartı qüvvəsi kimi istsfadə olunması – bütün bunlar məhsuldar qüvvələrin inkişafında böyük sıçrayış idi. Kotan əkinçiliyinin ilk dəfə Cənub-Qərbi Asiyada, Mesopotamiyada, sonra isə Misirdə (e.ə. IV-III minillik) meydana gəldiyi ehtimal olunur. Cənub və Şərqi Asiyaya, Şimali Afrika və Avropaya kotan əkinçiliyi bu ərazidən yayılmışdır. Yer kürəsinin başqa ərazilərinə − Böyük Səhradan cənubda – Afrikaya, Amerikaya, Avstraliya və Okeaniyaya kotan əkinçiliyi Avropa müstəmləkəçiliyi başlanana qədər keçə bilməmişdi. Kotan əkinçiliyi qədim dövrdə, habelə feodalizm və kapitalizm dövründə yüksək mədəniyyətin inkişafı üçün əsas olmuşdur. O, sinfi təbəqələşməni, şəhərin kənddən, sənətkarlıq və sənayenin kənd təsərrüfatından ayrılmasını sürətləndirdi, mürəkkəb və rəngarəng mədəniyyətə malik möhkəm dövlət birləşmələri

yaratdı. Müasir dövrdə kotan əkinçiliyi mədəni-təsərrüfat tipinə yer kürəsinin əksər xalqları daxildir.

Bu əsas qruplar çərçivəsi daxilində müxtəlif xalqlarda müşahidə olunan bir neçə konkret mədəni-təsərrüfat tipləri vardır. **I qrupun tipləri belədir:** Əsas məşğuliyyəti ovçuluq və yığıcılıq olan tropik və subtropik zonada yaşayan geridə qalmış xalqların təsərrüfatında indiyədək arxaik xüsusiyyətlər qalmaqdadır. Bu xalqların bir qismi səhra və yarımsəhra vilayətlərdə yaşayır. Bunlara Avstraliyanın avtoxton tayfaları və Cənubi Afrikanın buşmenləri aiddir. Digər qismi isə tropik meşələrdə yaşayanlardır. Bunlar əsasən Cənub-Şərqi və Cənubi Asiyanın geridə qalmış ovçu tayfaları, Mərkəzi Afrikanın piqmeyləri, cənubi Afrikanın ovçu tayfalarından olan batakudlar və quayaklardır. Təsərrüfatın və mədəniyyətin bu tipi yuxarı paleolitdə meydana gəlmişdir.

Şimal meşə zonası ovçularının təsərrüfat-mədəni tipi inkişafın nisbətən yüksək mərhələsində durur. Bu tip neolitdə, insanın keçilməz Şimali Asiya və Şimali Amerika tayfasını fəth etdiyi bir dövrdə meydana gəlmişdir. Təsərrüfat və mədəniyyətin bu tipi hələ bu yaxın dövrlərdə Sibirin meşə hissəsində yaşayan xalqlarda (evenklər, ketlər, yukagirlər) hakim rol oynayırdı və indiyədək Şimali Kanadanın hindularında (atapask və alqonkinlər) qalmaqdadır. Başqa bir tip şimal zonasında böyük çayın vadilərində, balıqla zəngin olan okean sahillərində meydana gəlmişdir. Bu oturaq balıqçıların mədəni-təsərrüfat tipidir. Bu tip kilyaklarda, ulçlarda, nanaylarda, itelmenlərdə, Kamçatka koryaklarında və hindularda hakim rol oynayır.

Sonrakı, nisbətən ixtisaslaşdırılmış mədəni-təsərrüfat tipi Şimali Asiya və Şimali Arktika sahillərində meydana çıxmışdır. Bu dəniz ovçularının təsərrüfatı idi. Bu tip Qrenlandiyadan Berinq boğazınadək ərazidə yayılmış eskimoslarda, sahil boyu çukça və koryaklarda indiyədək qalmaqdadır.

**II qrupa aşağıdakı tiplər daxildir:**

Öz mənşəyi ilə əvvəlkilərdən sonra gələn ikinci qrupun tipləri maralçılığın meydana gəlməsi ilə bağlıdır. Maral isə eradan əvvəlki son əsrlərdə Mərkəzi Asiya və Cənubi Sibirdə yayılmışdır. Başqalarından fərqli olaraq bu tip, Qərb yarımkürəsinə keçməmiş, ancaq Şimali Asiyada yayılmışdır.

Maralçılıq mədəni-təsərrüfat tipinə oxşayan, lakin özünün yüksək inkişaf səviyyəsi ilə ondan fərqlənən səhra köçəri maldar təsərrüfatı təqribən neolitin axırlarında (e.ə. II min.) yaranmışdır. Köçəri maldar tip köhnəliyin qalığı kimi müasir dövrdə Mərkəzi Asiya xalqlarında (Monqol, Tibet) qalmaqdadır. Keçmişdə isə Cənubi Sibir və Orta Asiya (qazax, qırğız və türkmən), İranın səhra və dağlıq rayonları xalqlarında (kürdlər, lurlar), Ərəbistanda (bədəvilər), Şimali Afrikada (qalla, tuareq) mövcud olmuşdur. Amerikada əhliləşdirilmiş ev heyvanları olmadığına görə bu cür mədəni-təsərrüfat tipi də olmamışdır.

Primitiv yığıcılıqdan yeni mədəni-təsərrüfat tipinə, yəni toxa əkinçiliyinə keçid böyük bir addım sayılırdı. Əkinçiliyə keçid yer kürəsinin müxtəlif hissələrində − Afrikada, Amerikada və Avropada müstəqil yolla baş vermişdir. Bu həmin ərazilərdə yetişdirilən mədəni bitkilərin müxtəlifliyilə izah olunur. Amerika və Okeaniyanın tropik ölkələrində becərilən bitki növləri əsasən giləli bitkilər (yams, taro, batat, manioka, kartof), Cənubi-Qərbi Asiyada – buğda, arpa, darı, Cənubi Asiyada isə çəltik, Afrikada – darı, Amerikada isə qarğıdalı olmuşdur.

Əkinçilikdən fərqli olaraq maldarlıq köçəri "Həyat tələb edir". **III qrup mədəni-təsərrüfat tipinə** kotan əkinçiliyi daxildir. Ev heyvanlarının kücündən dartı qüvvəsi kimi istifadə olunması bu tipin xarakterik xüsusiyyətidir. Kotan əkinçiliyi əl əməyinə əsaslanan əkinçiliklə maldarlığın sintezindən yaranmışdır. Kotan əkinçiliyinə keçidlə əlaqədar olaraq əmək məhsuldarlığı son dərəcə yüksəlir. İlkin kapital yığımı və

istismar üçün yeni-yeni imkanlar açılır. Sənətkarlıq əkinçilikdən ayrılır. Tədriclə, əvvəlcə manufaktura sonra isə fabrik sənayesi meydana çıxır. Asiya, Afrika və Avropadakı sinfi cəmiyyətlərin əksəriyyətinin əsas iqtisadi bazası kapitalizmə qədərki kotan əkinçiliyi olmuşdur.

**v) Dil təsnifatı.**

Dil xalqların və ya etnik birliklərin ən mühüm əlamətlərindən biridir. Hazırda yer kürəsində dialektlər nəzərə alınmazsa iki mindən artıq dil mövcuddur. Dillərin bir neçə təsnifat növü vardır. Bunların içərisində ən qiymətlisi **geneoloji** və **morfoloji** təsnifatlardır. Geneoloji təsnifat dilləri maddi qohumluq prinsipi üzrə qruplaşdırır. Bu təsnifata görə qonum dillər elmi cəhətdən yüksək qiymətləndirilən tarixi-müqayisə metodu vasiyəsilə öyrənilir. Dillər arsındakı qohumluq, həmin dillərin qrammatik və fonetik quruluşlarının yaxın olmasında özünü göstərir. Dil ailəsinin bütün dilləri əsas dil adlanan dilin dialektlərindən yaranmışdır. Qohum dillərin məcmusu dil ailəsini əmələ gətirir. Bəzən müxtəlif tarixi şəraitə düşdükdə əsas dilin dialektləri bir-birilə öz əlaqəsini itirir və inkişaf prosesi zamanı müstəqil, lakin öz aralarında qohum dillərə çevrilirlər. Əsas dilin dialektlərindən əmələ gələn dillər öz növbəsində inkişafın sonrakı mərhələsində müstəqil dillərə çevrilə bilən dialektlərə bölünürlər. Dilin inkişafındakı diferensasiya prosesi ilə, yəni dilin gələcəkdə yeni dillər əmələ gətirən dillərə parçalanması ilə yanaşı əks proses, inteqrasiya və ya birləşməsi prosesi də, yəni qohum dillərin vahid bir dil əmələ gətirməsi prosesi də mövcud ola bilər. İnteqrasiya prosesi, yəni dillərin vahid bir dildə birləşməsi millətlərin formalaşması dövrü üçün xarakterikdir.

Bir ailəyə daxil olan dillər öz aralarındakı müxtəlif dərəcəli qohumluqlarını saxlayırlar. Bununla əlaqədar olaraq dil ailələri budaqlara, onlar da öz növbəsində qrup və yarımqruplara ayrılırlar. Dünyanın bir çox dillərinin hələ lazımi səviyyədə öyrənilməməsi göstərir ki, hələ indiyə kimi

Amerika, Afrika və Avstraliyanın bit çox dilləri arasındakı qohumluq münasibətləri kifayət qədər üzə çıxarılmayıb.Buna görə də dil təsnifatının bir çox mühüm məsələləri üzrə, o cümlədən yer kürəsində dil ailələrinin sayı məsələsi üzrə linqvistlər arasında həmrəylik yoxdur. Ən başlıca dil ailələri aşağıdakılardan ibarətdir.

**Hind-Avropa dil ailəsi** – Hind-Avropa dil ailəsi 13 budağa ayrılır: hind, iran, slavyan, baltik, alman, kelt, italyan, roman, alban, yunan, erməni, anadolu və toxar. Hind vəya hind-ari budağı qədim, orta və yeni hind dillərinə ayrılır. Qədim Hind dillərinə, e.ə. II minilliyin ortalarında Şimali Hindistana soxulmuş ari qəbilələrinin- -veddaların veda dili daxildir. E.ə. I minillikdə yaranmış sanksrit dili veda dilinə çox yaxındır. Sanskritin iki ardıcıl müxtəlifliyi vardır. Məşhur “Mahabxaraat” və “Ramayana” poemalarının dili olan epik sanskrit və bizim eranın I minilliyinin ortalarında ədəbi dil kimi çiçəklənən klassik sanskrit. Bu dilin ölü dilə çevrilməsinə baxmayaraq indiyədək hindistanda ənənəvi elm dili kimi öz əhəmiyyətini itirməmişdir.

Qədim hind dialektlərindən yaranan praktik adlanan orta hind dilləri sonralar hindistanda danışıq dillərin də çevrildi. Prakrit dillərində sonralar bədii ədəbiyyat da yaranmağa başladı. Sanskritlə yanaşı mövcud olan bu dillərin bəziləri əhali tərəfindən anlaşılmaz olub xalis ədəbi dilə çevrildi. Erkən dini budda ədəbiyyatının dili olan pali dili prakrit dillərindən ən geniş yayılanı idi. Birma, Şri-Lanka, Tailand və Kampuçiyada milli dillərlə yanaşı pali dili kilsə və ədəbi dil kimi öz əhəmiyyətini indiyə qədər saxlayır.

Eramızın X əsrinin sonlarından ədəbiyyatda da istifadə edilməyə başlayan yeni hind dili prakritdən törəmişdir. İki ədəbi formaya malik olan hindistan dili (urdu və hindi) yeni hind dillərinin ən geniş yayılanıdır. Hindustan dili Hindistan və Pakistanın dövlət dili sayılır. Bundan başqa **ən böyük** yeni **hind** dillərinə misal olaraq benqal, bihar, maratx, pəncab,

racastxan, qucerat, oriya nepal, sinqx və s. göstərmək olar. Bizim eranın V-X əsrlərində digər hind dillərindən ayrılan və hindistandan kənarda mövcud olan **qaraçı dili** də yeni hind dillərinə aiddir. Hind Avropa dillərinin hind budağı əsasən Şimali Hindistanda yayılmışdır.

2. İran dilləri budağı Qərb və Şərq qruplarına ayrılır. Lakin bu qruplaşma onların müasir coğrafi bölgüsünə uyğun gəlmir. Qərbi İran dillərinə Əhəmənilər sülaləsinin dilləri ilə təqdim olunan qədim fars və "Avesta" dilləri aiddir. "Avesta" məcmuəsinin dili daha arxaik olub qədim veda dilinə çox yaxındır. Belə fərz edirlər ki, avesta və veda dilləri ari adlanan eyni bir hind-İran dilindən yaranmışdır. XIX əsrdə Hind – Avropa dilləri əvəzində çox vaxt "ari dilləri" termini işlənilirdi. Bundan başqa Midiya, parfiya, orta fars tacik, tat, kürd və bəluc dilləri də İran dillərinin Qərb qoluna aiddir. İran dillərinin şərq qoluna isə Soqdiya və ona yaxın olan Xarəzm, sak, skif, sarmat, alan, osetin, əfqan, yaqnobs və Pamir dilləri daxildir.

3. Slavyan budağı Şərq, Qərb və Cənub slavyanları qrupuna bölünür. Bütün slavyan dilləri bir-birinə çox yaxındır. Bu onu göstərir ki, ümum slavyan dilinin dialektlərə ayrılması prosesi yaxın vaxtlarda – eramızın I minilliyinin ortalarında baş vermişdir. Bu dialektlərdən biri VIII-IX əsrlərdə inkişaf edib X-XII əsrlərdə artıq formalaşan Şərqi slavyan dilləri olmuşdur. Məhz bu dildə bədii ədəbiyyatın ən gözəl nümunəsi "İqor polku haqqında dastan" yaradılmışdır. XIV-XV əsrlərdə Şərqi slavyan dilləri bir-birindən ayrıldı və Engelsin göstərdiyi kimi "yaşayan dillərin ən varlı və ən güclülərindən biri olan" rus dili, habelə ukrayna və belarus dilləri formalaşdı. Qərbi slavyan dillərinə: polyak, çex, slovak, kaşub və polab dilləri daxildir. Almaniya ərazisində də iki Qərbi slavyan dili inkişaf etməkdədir: Aşağı və yuxarı Lujitsk. Cənubi slavyan dillərinə: bolqar, makedon, sloven, serb-xorvat dilləri daxildir. IX əsrdə kilsə və ədəbi dil kimi staroslavyan dilindən istifadə olunurdu.

4. Baltik dilləri budağı iki qrupa ayrılır. Şərqi Baltik qrupuna litva, latış və ölü kur dili daxildir. İkinci qrupa isə XVII əsrin sonunda artıq ölü dilə çevrilən prus dili daxildir.

5. Alman dilləri Hind-Avropa dillərinin ən yaxşı öyrənilmiş budaqlarından sayılır. Bu dillər şimal, şərq və qərb qruplarına ayrılır. Şimal alman dillərinə: isveç, norveç, daniya, island və farer dilləri daxildir. Şərqi alman dilləri: osqot, vesqot, vandal və burqund dilləri ilə təmsil olunan ölü dillərdir. Bu dillərdən ən uzun yaşayanı – **osqot** dili Krımda XVI əsrə qədər davam etmişdir. Qərbi alman dilləri daha çox saylıdır. Erkən orta əsrlərdə əmələ gəlmiş qədim ingilis, qədim aşağı frank, qədim sakson və qədim yuxarı alman dilləri həmin qrupa aiddir. Qədim ingilis dili V əsrdə İngiltərə adalarında məskən salmış ingilis və saks alman qəbilələrinin dialektləri əsasında yaranmışdır. Qədim ingilis dilindən (XI-XV) yeni ingilis dili inkişaf etdi. Qədim aşağı frank dillərindən holland, flamand və friz dilləri yarandı. Qədim sakson dilindən Aşağı alman dialektləri təşəkkül tapdı. Qədim Yuxarı alman dilindən (XIII-XV) Orta Yuxarı alman dilləri (XI-XV), XVI əsrdən sonra isə Yeni Yuxarı alman dilləri inkişaf etdi. Müasir ədəbi alman dili yeni yuxarı alman dili əsasında meydana çıxmışdır. Qərbi alman dillərinə XI-XII əsrlərdə orta yuxarı alman dialektlərindən yaranmış idiş yəhudi dili də daxildir.

6. Kelt budağı qall, brit və kell dil qruplarına ayrılır. Birinci qrupa fransız və belçikalıların əcdadlarının dili olan qall dili daxildir. Bu dil bizim eranın ilk əsrlərində yox olmuşdur. Brit qrupuna V-VI əsrlərdə Britaniya adalarından köçüb gəlmiş və Bretan yarımadasında yaşayan əhalinin dili daxildir. Uels və kornuel dilləri də bu qrupa aiddir. Kelt dillərinə: irland, men və şotland dilləri daxildir.

7. İtalik budağı Apenin yarımadasının qədim ölü dillərindən olub iki qrupa ayrılır: birinci qrupa latın dili, ikinci qrupa osk və umbr dilləri daxildir.

8. Roman dilləri budağı Roma imperiyasının dağılmasından sonra latın dilinin danışıq dialektlərindən əmələ gəlmişdir. Bunlar: ispan, portuqaliya, katalon, fransız, pravansal, italiyan, sardin və retoroman (fransız, italiyan və alman dilləri ilə yanaşı İsveçrənin dövlət dili), rumın, moldav və XIX əsrdə ölmüş dalmat dilindən ibarətdir. Bəzi alimlər 7-8-ci budaqları vahid roman budağında birləşdirirlər.

9. Hind Avropa dillərinin alban budağı vahid bir dildən – alban dilindən ibarətdir.

10. Hind-Avropa dillərinin erməni budağı da vahid bir dildən – erməni dilindən ibarətdir. Bu dil qədim qrabar (V-XIX), orta və müasir danışıq dili olan aşxarabardan ibarətdir.

11. Bu dil ailəsinin yunan budağı da yeganə bir yunan dili ilə təmsil olunur. Bu dil sinfi cəmiyyət şəraitində üç minillik bir inkişaf yolu keçmişdir. Yunan dili tarixi üç dövrə ayrılır: qədim; orta və yeni yunan dilləri. Qədim yunan dili latın dili kimi beynəlxalq terminologiyanın əsas mənbəsidir.

12. Anadolu budağına Kiçik Asiyanın qədim ölü dilləri: xett-mixi, xett- heroqlif, luviya və palay dilləri daxildir. Alimlərin çoxu Anadolu yarımadasının Qərb hissəsində yerləşən likiya, lidiya və kariya dillərini də bu budağa aid edirlər.

13. Bir-birinə yaxın olan toxar A (qaraşar) və toxar B (kuçan) dilləri toxar budağını təşkil edir. Bu dillərdəki yazılı mənbələr V-VIII əsrlərə aid edilir.

Hind-Avropa dillərinin bu müxtəlif budaqları arasında qohumluq münasibətləri nəzərə çarpır. Bu mənada hind və İran dilləri arasında daha çox yaxınlıq vardır. Bu baxımdan ikinci yeri slavyan dilləri tutur. Müasir Hind-Avropa dillərinə nisbətən qədim Hind-Avropa dilləri bir-birinə daha yaxındır. Məs, rus, veda və latın dillərində oxşar səslənən bu növ ifadələr düzəltmək olar. Belə ki, "daite mne oqnə" ifadəsi veda dilində "data maxə aqnim" kimi, latın dilində isə "date mihi iqnem" kimi səslənir.

**Ural dil ailəsi** –üç budağa: fin, uqor və samodiy budaqlarına bölünür. Fin budağı Pribaltika, Perm və Volqa qruplarına ayrılır. Pribaltika qrupuna fin (suomi), saam (lopar), eston, karel, ijor, veps və liv dilləri daxildir. Perm qrupuna – komi-zıryan, komi-permyak və udmurt dilləri daxildir. Volqa qrupuna: dağ və düzən marilər, erzya-mordva, mokşa-mordva dilləri daxildir. Uqor budağı macar, uqor, mansi (voqul) və xanti (ostyak) dillərinə ayrılır. İndiki Dunay çayı boyunda yaşayan macarlar bu yerlərə IX əsrdə Cənubi Ural çöllərindən gəlmişlər.

Ural dillərinin Samodiy budağı nen, en, nqanasan və selkun dillərindən təşkil olunmuşdur.

**Altay dil ailəsi** –türk, monqol və tunqus-mancur budaqlarına şaxələnir. Türk dillərinin çoxlu təsnifatı mövcuddur. Onlardan biri türk dillərini beş qrupa ayırır: bolqar, cənub-qərb, şimal-qərb, cənub-şərq və şimal-şərq. Bu qrupun bütün dilləri hazırda da bir-birinə çox yaxındır. Hazırda ölü dil olan bulqar və xəzər dilləri, habelə müasir çuvaş dili Bulqar qrupuna daxildir. Cənub-qərb budağı ölü oğuz dilindən, türkmən, truxmen, azərbaycan, qaqauz və türk dillərindən təşkil olunmuşdur. Tatar, başqırd, qazax, qırğız, altay, kumık, noqay, qaraqalpaq, qaraçay-balkar, qaraim, habelə ölü poloves və peçeneq dilləri; cənub-şərq qrupu özbək, uyğur və ölü caqatay dilləri Şimal-qərb qrupuna aiddir. Buraya yakut, tuva, xakas, şor, qaraqas, orxon habelə qədim uyqur ölü dili şimal-şərq dilinə aiddir.

Çingiz xanın imperiyasının dağılmasından sonra bir vaxtlar vahid olan monqol dili dialektləri sonralar inkişaf edib müstəqil dillərə çevrildi. Hazırda monqol dillərinə: monqol, buryat, kalmık, moqol, monqor və daxur dilləri daxil edilir.

Tunqus-mancur dil budağı iki qrupa: tunqus və mancur qruplarına bölünür. Tunqus qrupu Sibir və Aşağı Amur yarım qruplarına ayrılır. Sibir yarımqrupuna evenk (tunqus), even (lamut) və negidal dilləri daxildir. Aşağı Amur yarımqrupuna

isə nanay (qold), udey, ulç, orok, oroç dilləri daxildir. Mancur qrupu: mancur, sibo və ölü çjur-çjen dillərinə ayrılır. Bir çox alimlər türk, monqol və tunqus-mancur dil budaqlarının hər birini ayrı-ayrılıqda müstəqil dil ailələri kimi səciyyələndirirlər.

**Semit-hamit dil ailəsi** –semit, Misir (hamit), liviya-bərbər, kuş və çad budaqları ilə təqdim olunur. Semit budağı şimal və cənub qruplarına ayrılır. Onlardan birincisi akkat (babil-assur) dilindən ibarət olan şərq yarımqrupuna və xananey, finikiya, uqarit, moavit, qədim yəhudi və aramey dillərindən ibarət olan qərb yarımqruplarına ayrılır. İsraildə hal-hazırda süni sürətdə qədim yəhudi dilini bərpa etməyə çalışırlar. Aramey dili b.e.ə VI əsrdən başlayaraq eramızın VI əsrinə qədər yaxın Şərqdə ən geniş yayılan dil olmuşdur. Onun qalıqlarına hazırda Livanda təsadüf edilir. Arameyin bir hissəsi aysor dili kimi bu günə qədər Rusiya, İraq, İran və Türkiyədə saxlanılır. Semit dillərinin cənub qrupu ərəb və efiopiya dilləri ilə: amxar, tiqre, tiqrinye ilə təmsil olunmuşdur. Köhnə həbəş dili – gez hazırda kilsə dili kimi saxlanılır.

Qədim, orta və yeni Misir dilləri Misir budağına aiddir. Ərəb dili yayılana qədər Misir əhalisi əsasən kopt dilində danışırdılar.

Liviya-bərbər budağına: liviya (ölü), bərbər, numidiya və quanc (Kanar adalarında), tuareq, kabil, rif və zenaq dilləri daxildir.

Kuş dillərində şimal-şərqi Afrikanın əhalisi danışır. Onlardan ən çox yayılanı: qalla, somali, afar və bedauedir.

Çad budağının ən böyük dili hausadır.

Semit-hamit dillərinin hamı tərəfindən qəbul edilən vahid bir təsnifatı yoxdur. Bir çox alimlər bu dil ailəsini beş deyil, iki budağa semit və hamit budaqlarına ayırır və liviya-bərbər, kuş və çad budaqlarını da axırıncıya birləşdirirlər.

**Dravid dil ailəsi** – özündə 16 dili birləşdirərək 4 budağa ayrılır. Bunlar: dravid, andxra, Mərkəzi hind və Şimal-qərb budaqlarıdır. Dravidin ən böyük dilləri: tamil, malayyali və

kannaradır. Andxra budağına: teluqu dili daxildir. Mərkəzi hind dillərindən ən böyüyü qonda dilidir. Şimal-qərb budağı braqui dilidir ki, bu dildə əsasən şimal-qərbi hindistanda və Pakistanda danışırlar.

**Malay-Polineziya dil ailəsi** – 4 budağa ayrılır: indoneziya, polineziya, meloneziya və mikroneziya. Bu dillər arasında indoneziya dilləri daha yaxşı öyrənilmişdir. Bunlardan ən geniş yayılanı yava, malqaş, taqal və malay dilləridir. İndoneziya və malay dilləri arasında fərq çox deyil, bu özünü yalnız orfoqrafiya və leksikada göstərir.

**Çin-Tibet dil ailəsi** – beş budağa ayrılır: çin, çjuan-tai, tibet-birma, myao-yao və vyetnam. Çin budağı çin və dunqan dillərinə ayrılır. Çjuan-tai budağına çjuan, tai, siam, laos, şan və b. dillər daxildir. Tibet-birma budağı: tibet, birma, himalay və assam dillərinə ayrılır. Ayrıca vyetnam dilindən ibarət Vyetnam budağı da vardır. Çin-Tibet dil ailəsi kifayət qədər öyrənilməmişdir. Elmi ədəbiyyatda dilləri gah 2, gah 4, gah da 3 budağa ayırırlar.

**Avstroasiya dil ailəsi** – də beş budağa ayrılır: mon-kxmer, munda, malaqqa, Mərkəz və Cənub-şərq. Mon-kxmer budağına: mon, kxmer və b. dillər aiddir. Munda budağı dilləri hindistanda yayılmışdır. Malaqqa budağına – semanq və senoy dilləri daxildir. Mərkəz budağı kxzazi və nikobars dillərinə bölünür. Cənub-şərq budağına çan və s. dillər aiddir.

**Paleoasiya dil ailəsi** beş budağa ayrılır: 1. eskimos və aleut dilləri; 2. çukot, koryak və kamçadal dilləri; 3. ket və ölü arin, asan dilləri; 4. yukagir və çuvan dilləri; 5. nivx dili. Bu dillər arasında dərin qohumluq münasibətləri yoxdur. Onların bəzilərinin arasında genetik əlaqələr hiss olunur.

**Qafqaz dil ailəsi.** Qafqaz dillərinin təsnifatı məsələsi də elmdə tam şəkildə həll olunmamışdır. Bəzi alimlər bu dilləri 4 müstəqil ailəyə, başqaları isə 4 budağa bölür: abxaz-adıgey, nax, Dağıstan və kartvel. Abxaz-adıgey budağı iki qrupa ayrılır. Abxaz və abazin dilləri .Abxaz qrupuna daxildir.

Adıgey qrupu kabardin və adıgey dillərindən ibarətdir. Bunların dili ümumi adıq dilidir. Çeçen, inquş və batsbi dilləri Nax budağına daxildir. Kartvel dilləri: gürcü, zan və svan dillərindən ibarətdir. Dağıstan dilləri avar, dargin, lak və ləzgi qruplarına ayrılır.

Linqvistlər bu dil ailələrindən əlavə Konqo-Kordofan, saxara-nil, Koysan, bantu dil ailələri ilə yanaşı papuas, Tai, hindu və s. dillərin daxil olduğu dil ailələrinin də mövcud olduğunu söyləyirlər.

Lakin dünya dillərinin heç də hamısı dil ailələrində birləşməyiblər. Yapon, koreya, bask, qədim şumer, elam, xurrit, urartu, proto-xet dilləri təcrid dillər hesab olunur və dünyada heş bir dil ailəsi ilə qohum deyildir.

Dilçilikdə tarixi-müqayisə metodunun məhdudluğundan asılı olraq geneoloji təsnifatın bir sıra çatışmaz cəhətləri vardır. Özünün bütün ləyaqətli cəhətləri ilə yanaşı bu metodun aşağıdakı mənfi cəhətləri mövcuddur ki, heç də həmişə onun vasitəsilə qohum dillər arasındakı tarixi inkişafı bərpa etmək olmur. Həm də təcrid olunmuş dillərin öyrənilməsində tarixi müqayisə metodu az keyfiyyətli rol oynayır. Odur ki, dilləri nəinki onların maddi qohumluğuna görə, habelə qrammatik quruluşuna görə də təsnif etmək olar. Qrammatikanın əsas bölməsi morfologiya və sintaksis olduğundan bu təsnifat növündə morfoloji və sintaksis əlamətlər onun əsas zəmnini təşkil edir. Morfoloji təsnifatın əhəmiyyəti daha böyükdür. Şlegel-Humbolt tərəfindən işlənib hazırlanmış morfoloji dil təsnifatı daha geniş yayılmışdır. Bu təsnifat dünya dillərini dörd tipə bölünür:

1. Köklü və yaxud təcrid olunan dillər;
2. Aqlyutinativ (iltisaqi) dillər;
3. Flektiv dillər;
4. İnkorpor edilənlər.

Birinci tipin xüsusiyyəti ondadır ki, sözlər morfoloji cəhətcə dəyişməz vəziyyətdə olur. Sözlərdə qramatik məna

verən affikslər yoxdur. Cümlədə sözlər bir-birindən təcrid olunmuş vəziyyətdə yerləşir. Burada sözlər arasında əlaqə sintaksis olaraq, yəni sözlərin ardıcıllığı köməkçi sözlər, ritm və intonasiya vasitəsilə müəyyən olunur. Məs. qədim çin, yapon və koreya dilləri təcrid dillərdir. Məs. çin dilində sözlər cümlədəki yerlərindən asılı olaraq müxtəlif məna daşıyır. “xao-jen” – yaxşı adam mənasını verirsə “jen-xao” – sevən insan mənasını verir.

**Aqlyunativ** dil tipi və yaxud “yapışdırılan” dillər qramatik məna daşıyan çoxsaylı affikslərin, kökləri dəyişməz olan sözlərlə birləşdirilməsi ilə xarakterizə olunur. Affikslər sözlərin kökləri ilə asanlıqla birləşdikləri kimi, asanlıqla da onlardan ayrılırlar. Affikslərin sözlərə hansı tərəfdən birləşməsindən asılı olaraq prefiks və ya suffiks kimi çıxış edirlər. Türk, uqro-fin, dravid, bantu və b. dillər aqlyutinativ dillərə aiddir.

**3. Flektiv** və ya çevik tip müxtəlif sonluqların istifadə edilməsi və sözlərdə bütün qramatik mənalı hissəciklərin (affikslərin) möhkəm birləşməsi ilə fərqlənir. Aqlyutinativ dillərdən fərqli olaraq flektiv dillərdə affikslərin sözün kökü ilə fonetik cəhətdən qaynayıb qarışması və yaxud birləşməsi baş verir. Flektiv dillərdə yeni sözlər sözdüzəldici affikslər vasitəsilə yaranır. Hind-Avropa və semit-hamit dilləri flektiv dillərə aiddir.

**4**. **İnkorpor edilən dillər** üçün kompleks sözlər xarakterikdir. Hind və bir sıra paleoasiya dillərində bizim cümləmizə onların söz cümləsi uyğun gəlir. İnkorpor edən dillər başqa dillərdən cümlələrin analiz əsasına görə, yəni sintaksis əlamətlərə görə fərqlənir. Məhz bu da morfoloji təsnifatın ardıcıllığına mane olur. Təsadüfi deyildir ki, bir çox linqvistlər inkorpor edilən dilləri aqlyutinativ dillərə əlavə tip kimi daxil edərək dünya dillərini dörd deyil, üç tip kimi təsnifləşdirirlər. Flektiv tipə aid etdiyimiz semit-hamit dilləri bir çox aqlyutinativ əlamətlərə malikdir. Bəzi qərb

ədəbiyyatında adətən bütün morfoloji tiplər eyni qiymətli tiplər kimi qəbul edilmir. Flektiv dillər ən kamil, təcrid edilən dillər isə ən primitiv dillər sayılır. Bundan başqa belə hesab edirlər ki, mücərrəd təfəkkür yalnız flektiv dillərlə əlaqədardır. Flektiv tip Hind-Avropa dilləri üçün daha çox səciyyəvi olduğundan belə fikirlərin irqçi xarakteri heç bir şübhə doğurmur. Morfoloji tiplər dilin inkişafının ardıcıl tarixi mərhələlərini izləyə bilmədiyindən hansı morfoloji tipin daha kamil olması haqqında danışmaq olmaz. Dünyanın bütün xalqları, dillərin hansı morfoloji tipə aid olmasından asılı olmayaraq ən yüksək mədəniyyət yaratmağa qadirdirlər. Morfoloji təsnifatın iki nöqsanlı cəhəti vardır: birincisi, onun köməyi ilə dillərin tarixi inkişaf yolunu izləmək mümkün olmur; ikincisi, o dünya dillərinin struktur xüsusiyyətlərini nəzərə almır. Morfoloji təsnifat öz əhəmiyyətinə görə geneloji təsnifatdan çox geri qalır və köməkçi xarakter daşıyır.

## AVSTRALİYA – OKEANİYA XALQLARI

Avropalılar tərəfindən dünyanın beşinci qitəsi kimi kəşf olunan Avstraliyanın sahəsi 7,7 milyon kv.km-dir. Okeaniyanın sahəsi isə 1,3 milyon kv.km-dir.

Geoloji baxımdan Avstraliya materiki dünyanın ən qədim kontinentidir. Ən yüksək nöqtəsi isə materikin şərqində yerləşən Kostyuşko zirvəsidir və dəniz səviyyəsindən hündürlüyü 2200 metrdir. Avstraliya tropik və subtropik zonada yerləşməklə faunası yoxsuldur. Materik tektonik cəhətdən ən sabit region hesab olunur.

Avstraliya və Okeaniyanın əhalisinin mənşəyi barədə bir çox alimlər müxtəlif fikirlər söyləyir və bu yerlərin məskunlaşması tarixini araşdırmağa təşəbbüs göstərirlər. Son 20-25 il ərzində bu problemin öyrənilməsi arxeoloji qazıntı materiallarına və bu bölgədəki mövcud dillərin dərin etnolinqvistik təhlilinə əsaslanaraq tam elmi bünövrə üzərinə qoyulmuşdur. Bu tədqiqatlardan aydın olur ki, bu ərazidə ilk dəfə Avstraliya və Yeni Qvineya məskunlaşmışdır.

Bütün tədqiqatları və etnolinqvistik xüsusiyyətləri nəzərə alaraq Okeaniyada aşağıdakı tarixi-mədəni rayonları qeydə almaq mümkündür:

1) Papuasiya; 2) Melaneziya; 3) Avstromelanezasiya; 4) Melano-Polineziya; 5) Hind-Mikroneziya; 6) Mikroneziya; 7) Polineziya.

## AVSTRALİYA VƏ TASMANİYA XALQLARI:

Avstraliya materikinin yerli sakinləri 40 min il bundan əvvəl orada məskunlaşmışdır. İngilislər bu əraziyə gələndə burada yerli aborigenlərin sayı 300 mindən çox idi. Hazırda Avstraliyanın yerli əhalisinin əksəriyyəti rezervasiya adlanan əlahiddə yaşayış məntəqələrində məskunlaşdırılmışdır. Onlar demək olar ki, yüksək mədəniyyətə yaxın buraxılmırlar.

Antropoloji cəhətdən avstraliyalılar avstralo – zənci böyük irqinə daxil olan kiçik avstraliya irqini təmsil edir. Bu irqin tünd qəhvəyi rəngləri dəriləri , qara dalğavari saçları , qalın saqqal və bığları , enli burunları , qalın dodaqları vardır. Onların orta ölçülü boy hündürlüyü, uzunsov başları var və sifətləri pronqatik əlamətlidir: başqa sözlə desək üst çənə sümüyü alt çənəyə nisbətən bir qədər irəliyə çıxmıç vəziyyətdədir.

Avstraliya dilləri də rəngarəngdir. Yerli avstraliyalıların dili müxtəlifliyinə görə bir neçə yüz dildən ibarətdir. Lakin sonralar assimilyasiya nəticəsində bunların sayı 200-ə enmişdir. Hal-hazırda isə Avstraliyanın və Yeni Zellandiyanın dövlət dilləri ingilis dilidir və onların Qanunverici orqanları Böyük Britaniya Krallığına tabedir.

Yerli avstraliyalılar ovçuluqla daha geniş məşğul olmuşlar. Onlar üçün ən qiymətli heyvanlar kenquru və digər heyvanlar olmuşdur. Avstraliyalıların bəzilərinin yaşayış evləri daimi olmasa da materikin cənub, şərq və qərb rayonlarında yaşayış yerləri çoxluq təşkil etmişdir. Buna təbii şərait də təsir etmişdir. Belə ki qeyd olunan ərazilərdən başqa materikin digər ərazilərinin əksəriyyəti tropik iqlim qurşağına düşdüyündən səhra şəraiti əhalinin yaşayış imkanlarını azaldırdı. Avstraliyalılara quru nəqliyyat vasitələri məlum olmasa da onlar gəmilərdən istifadə edirdilər.

Avstraliyalıların çox qəribə səslənən milli musiqiləri də mövcuddur ki, onlar bu musiqilər altında rəqs etməyi çox xoşlayırlar. Korrobori adlanan rəqslər kollektiv surətdə ifa olunurdu.

Avstraliyalıların dini dünyagörüşləri arasında animizm, magiya, fetişizm və totemizm geniş yayılmışdı. Bunlardan totemizm xüsusi yer tutmuşdur. Lakin avropalıların gəlişindən sonra Avstraliyada Xristianlıq geniş yayılmış və hal-hazırda Avstraliya İttifaqı əhalisinin əksəriyyəti xristiandır.

Assimilyasiya baxımından avstraliyalılardan da dəhşətli faciələrlə üzləşən tasmaniyalıların XIX əsrdə sayı 20 min nəfər idi. Lakin avropalılar tasmaniyalıların bir nəfər də olsun nümayəndəsini sağ buraxmadılar. Sonuncu yerli tasmaniyalı Uilyom Lens 1905-ci ildə ölmüdür. Tasmaniyalıların antropoloji tipi avstraliyalılardan xeyli fərqlənmişdir. Onlar orta boydan bir qədər kiçik boylu olmuşlar və tünd palıdı rəngli dəriyə malik idilər.

Avstraliyalılar və tasmaniyalılar tarixən eyni mənşəli olduqlarına görə onların dillərində ən çox uyğunluq nəzərə çarpırdı. Onların da əsas peşələri ovçuluq olmuşdur. Hal-hazırda Tasmaniya adası Avstraliya İttifaqına daxildir və əhalisinin dili ingilis dilidir. İngilis dilli əhali Xristianlıq dininə mənsubdur.

***OKEANİYA XALQLARI:*** Okeaniya adalarında Avstraliyadan fərqli olaraq mədəni inkişaf səviyyəsi müxtəlif olmuşdur. Burada əhalinin dili və antropoloji quruluşu da kəskin surətdə fərqlənmişdir. Okeaniya əhalisini aşağıdakı qruplarla təsnif edirlər: 1) Papuaslar; 2) Melaneziya xalqları; 3) Polineziya xalqları; 4) Mikroneziya xalqları.

Papuaslar, əsasən, Yeni Qvineyada yaşayırlar. Yeni Qvineya adası Qrenlandiyadan sonra dünyada ikinci böyük adadır. Adanın sahəsi 785 min kv.km-dir. Papuasiya adlanan ərazidə 750-yə qədər etnos yaşayır ki, bunların 572-si papuasdır. Ən böyük papuas etnosları enqa, çimbu, xaqen, kamano, xuli və başqalarıdır. Hazırda papuasların əksəriyyəti kəndlərdə yaşayırlar. Yeməkləri isə əksər vaxtlarda bitki mənşəli yeməklərdən ibarət olur. Papuaslarda nəsil ata xətti üzrə hesablanırdı. Papuaslar arasında ən geniş yayılan dini inamlar totemizm və magiya olmuşdur.

Melaneziyanın da etnik tərkibi olduqca mürəkkəbdir. Burada 200-ə qədər etnos yaşayır. Bunların böyük çoxluğunu avstroneziya dilləri (600 min), az bir qismini papuas dilləri (70 min) təşkil edir. Antropoloji baxımdan yerli əhali Avstraliya

irqinə daxil olan kiçik melaneziya irqinə mənsubdur. Dilləri Malay-Polineziya dil ailəsinə daxildir. Əkinçilik, balıqçılıq və ovçuluq əsas peşələrdir. Melaneziya kəndləri dairəvi, küçəvari və pərakəndə plan quruluşuna malik olan məskənlərdir. Melaneziyada ən yüksək ictimai quruluş Fici arxipelağında olmuşdur. Melaneziyalılar arasında fövqəltəbii qüvvələrə inam daha geniş yayılmışdı. Bundan başqa magiya, animizm, totemizm və s.etiqadlar da olmuşdur.

Polineziyalıların antropoloji quruluşu və dilləri onları bir-birinə yaxınlaşdırır. Onların boyu 170-173 sm, tünd qaraşın dəriləri, enli dalğavari saçları vardır. Polineziya dilləri də Malay-Polineziya dil ailəsinə mənsubdur. Polineziyalıların ən böyük etnosları maorilər, samoalar, tonqalılar, havaylılar və taitilərdir. Əvvəllər əkinçilik və balıqçılıq əsas olmuşdur. Adətə görə polineziyalılar içki içərkən dodaqlarını qaba söykəmirdilər. Polineziyalılar mahir sənətkarlar sayılırlar. Polineziyalıların əksəriyyəti təlim-tərbiyə işlərinə ciddi əhəmiyyət vermişlər. Onların dini görüşləri digər Okeaniya xalqları ilə oxşardır. Polineziyalılar musiqi və rəqslərə də böyük diqqətlə yanaşırdılar. Polineziyanın Pasxi adasında yaşayan aborigenlərin özlərinə məxsus mədəniyyəti olmuşdur. Hətta müəyyən olunmuşdur ki, onlar heroqlif yazıdan da istifadə etmişlər.

Mikroneziyaya mənsub olan 2140 adadan 96 adada insanlar məskunlaşmışdır. Mikroneziyada 190 min yerli etnos yaşayır. Onlar da Malay-Polineziya dil ailəsinə mənsub dillərdə danışırlar. Etnoqrafik baxımdan Mikroneziya 2 hissəyə ayrılır: 1) Qərbi Mikroneziya; 2) Şərqi Mikroneziya. Burada evlər bir qayda olaraq daş dirəklər üzərində tikilirdi. Əsas əmək alətləri ox və kaman, nizə və daş bıçaqlar idi. Balıqçılıq əsas məşğuliyyət sahəsi hesab olunur. Toxuculuq da geniş yayılmışdır. Mərkəzi və Şərqi Mikroneziyada əhali iki kastaya ayrılırdı: "Nəciblər" adlanan nəsli əyanlar və "Kayur" adlanan sadə adamlar. Okeaniyanın digər vilayətlərinə nisbətən

Mikroneziyada ictimai münasibətlər bir qədər zəif öyrənilmişdir. Missionerlərin əksəriyyətinin müşahidələrinə görə burada intensiv olaraq ibtidai icma münasibətləri dağılır və əmlak bərabərsizliyi yaranırdı.

## *AMERİKA XALQLARI*

Amerika qitəsi Şimali və Cənubi Amerika materiklərindən ibarətdir. Amerika insanların yaranması zonasına daxil deyildir. Amerika müasir fiziki tipli insanlarla (Home Sapiens) məskunlaşmışdır. Yeni Dünyanın ilkin sakinlərinin mədəni səviyyəsi Avropanın meolit və ya son naleolit mədəniyyətinə uyğun gəlir. Geoloci baxımdan Amerikada insanların ilkin məskunlaşması buzlaşma dövrünün sonlarına, yəni 40 min il bundan əvələ təsadüf edir. Amerikanın yerli əhalisinin böyük əksəriyyəti antropoloji baxımdan monqoloidlərə daha yaxındır. Onlarda müşahidə olunan bəzi avstropoloid əlamətləri, Amerikada belə irqi xüsusiyyətlərə malik olan əhali qrupunda məskunlaşmasını təsdiq edir. Eyni zamanda hər iki əhali qrupu məhz Berinq boğazı vasitəsilə məskunlaşmışdır.

Amerika tədqiqatçısı M. Suadeşin fikrincə hələ 15-20 min il bundan əvvəl hindular vahid bir dilin ayr-ayrı dilektlərində danışırdılar. Amerikanın avropalılar tərəfindən üçüncü dəfə kəşfindən sonra orada 2200-dən artq hindu dilinin olması müəyyənləşdirilmişdir.

Y.V.Bromley və Q.Y.Markovanın redaktəsi ilə buraxılan «Etnoqrafiya» dərsliyində Amerika aborigenləri ovçu, yığıcı, balıqçı və əkinçi qəbilələr bölgüsü əsasında qruplaşdırılmışdır. Amerikada etnoqrafik-mədəni vilayətlər aşağıdakılardan ibarətdir: 1) Arktika dəniz ovçuları; 2)Şimal-qərb sahilinin oturaq balıqçıları; 3) Kaliforniyanın yığıjı qəbilələri; 4) Şimalın meşə ovçuları; 5) Şimali Amerikanın şərq və cənub-şərq vilayətlərinin əkinçi qəbilələri; 6) Prerinn ovçu qəbilələri; 7) Şimali Amerikanın cənub-qərb vilayətlərinin müxtəlif

təsərrüfat tipli qəbilələri; 8) Mərkəzi Amerikanın yüksək mədəniyyətli xalqları; 9) Oroniko və Amazonka çayı hövzələrinin əkinçi və ovçu qəbilələri; 10) Cənubi Amerikada Pampa və Pataroniyanın ovçu qəbilələri; 11) Odlu torpağın ovçu-balıqçı qəbilələri.

Amerikanın kəşfi və məskunlaşma tarixini iki dövrə bölmək olar. Birinci dövr təxminən 40 min il bundan əvvəl başlayaraq, eramızın XV əsrinin axırlarına qədər davam etmişdir. İkinci dövr isə X.Kolumbun adı ilə bağlı olan böyük coğrafi kəşflərdən başlayaraq dörd əsrdən çox davam etmişdir.

Amerika dillərinin qarşılıqlı əlaqəsinin araşdırılmasından A.Kroberin, F.Boasın və E.Sepirin böyük xidmətləri olmuşdur. Hal-hazırda Amerikada yaşayan yerli xalqların böyük dil ailələri Eskimos-aleut, Penuti, Soke-mayya, Keçua, Aymara, Karib, Je (Jes), Alqonkin – vakaş, Na-dene, Siu-xoka, Tano-yuto-astek, Makrootomi, Sake-mayya, Çibça, Araykan, Aravak, Tupi-quarani, Çon dil ailələridir. Amerikada 58 dil qrupu müəyyən edilmişdir. Amerika qitəsinin kəşfindən sonra Cənubda ispanların və portuqalların, Şimalda isə ingilislərin, fransızların, qismən də hollandların müstəmləkəçilik siyasəti həyata keçirildi. Müstəmləkəçilik dövründə minlərlə yerli əhali qırıldı, Afrika qitəsindən buraya xeyli zənci köçürüldü. Hazırda Latın Amerikasında hinduların sayı nisbətən çoxdur. Hindular daha çox Meksika, Peru və Qvatemalada yaşayırlar. Şimali Amerika ərazisində də hindular yaşamaqdadırlar. Hinduların ümumi sayı isə 36,5 milyondur. Zəncilər isə, əsasən, ABŞ-da məskunlaşmışdır. Burada zəncilərin sayı təqribən 29 milyondur.

Arktika dəniz ovçuları adlanan Eskimoslar və Aleutlar, əsasən, Şimali Amerikanın şimalında və Qrenlandiyanın cənubunda yaşayırlar.

Şimali Amerikanın şimal-qərb sahilində isə oturaq balıqçılıqla məşğul olan əhali yayılmışdır.

Şimali Amerikanın meşə ovçuları adlananlar isə Alqonkinlər və Atapask qəbilələridir. Onlar daha çox materikin meşəlik zonasında həyat tərzi keçirirlər.

Preri hinduları isə Şimali Amerikanın mərkəzi hissəsində Preri çöl zonasında məskunlaşmışlar. Preri çöl zonası Böyük Göllər rayonunun qərbindən tutmuş qərbdə Qayalı dağlar rayonuna qədər genişlənir.

Kaliforniya ərazisində daha çox yığıcılıqla məşğul olan hindu qəbilələri yaşayır ki, bunları da Kaliforniyanın yığıcı qəbilələri adlandırırlar. Amerika etnoqrafi A.Krober Kaliforniya qəbilələrini linqvistik baxımdan 7 qrupa bölmüşdür.

Cənubi Amerikanın cənub qurtaracağında, Antarktida yaxınlığında Odlu torpaq adaları yerləşir. Burada məskunlaşan əhali 3 hindu qrupundan ibarətdir: Ona, Alakaluf və Yaqan. Bu qəbilə qrupları öz dillərinə və mədəniyyətlərinə görə bir-birindən fərqlənirlər. Hazırda isə bu qəbilələrə məxsus əhalinin sayı çox az qalmışdır.

Şimali Amerikanın Şərq və Şimal-Şərq vilayətlərində isə əkinçi hindu qəbilələri yaşayır. Bu qəbilələr arasında İrokezlər xüsusi yer tutmuşdur. Hazırda bu ərazilərin ABŞ hissəsində 60 min, Kanada hissəsində isə 30 min hindu yaşayır. Şimali Amerikanın Cənub-Qərb hissəsində də əkinçi qəbilələr yaşayırlar.

Mərkəzi və Cənubi Amerikada yüksək mədəniyyətli yerli xalqlar da yaşamışlar. Mayya, Astek və İnk mədəniyyətləri bu ərazilərin qədimdən bəri ən yüksək yerli mədəniyyətləridir. Mayya mədəniyyəti Qvatemala, Honduras və Meksikada geniş yayılmışdır. Astek mədəniyyəti də daha çox Meksikada yayılmışdır. İnk mədəniyyəti isə, əsasən, And dağları ölkələrində, yəni Peruda, Çilidə, Kolumbiyada və Ekvadorda geniş yayılmışdır.

Hal-hazırda Şimali Amerikada yaşayan əhalinin əksəriyyəti ingilis və fransız dillərində danışır. ABŞ-ın dövlət dili ingilis, Kanadanın dövlət dili isə ingilis və fransız

dilləridir. Cənubi Amerikada isə əksər ölkələrin dövlət dili ispan dilidir və əhalinin əksəriyyəti ispan dilində danışır. Latın Amerikası ölkələrində qaraçılar da yaşayırlar. Braziliyada isə dövlət dili portuqal dilidir. Peruda isə dövlət dili ispan və yerli Keçua dilləridir. Bəzi ərazilərdə qədim yerli dinlər qalmaqdadır. Cənubi Amerikanın mərkəzi hissələrində yerli dinlər daha çox yayılmışdır. Əhalinin əksəriyyəti Xristian dininə mənsubdur.

## AFRİKA XALQLARI

Afrika Avroasiyadan sonra ikinci böyük materikdir. Ən böyük çayları Nil, Konqo və Niger çaylarıdır. Afrikanın avropalılar tərəfindən tutulması ərəfəsində yerli əhalinin sayı dünya əhalisinin 20%-ni təşkil edirsə, 1960-cı illərdə bu göstərici 8%-ə enmişdir. XX əsrin 90-cı illərində Afrikada 520 mln. nəfərdən artıq əhali yaşayırdı. Afrika materikində 3 böyük irqin nümayəndələri: avropa, zənci və monqol irqlərinə məxsus insanlar yaşayır. Bundan başqa burada keçid və qarışıq irqin nümayəndələri də vardır. Zənci irqi ilə Avropa irqi arasında qarışıq və keçid formaya malik olan xüsusi bir irqi tip Həbəş irqidir.

Afrika materiki aşağıdakı ənənəvi etnoqrafik əyalətlərə bölünür:

1) Məğrib və Liviya;
2) Misir;
3) Şimali-Şərqi Afrika;
4) Qərbi Sudan;
5) Şərqi Sudan;
6) Şərqi Tropik Afrika;
7) Qərbi Tropik Afrika;
8) Cənubi Afrika;
9) Madaqaskar xalqları

İlk 3 qrupa daxil olan etnoqrafik əyalətlərdə yaşayan xalqların dilləri Ərəb dillidir. Bundan başqa qeyd olunan ərazilərdə yerli dillərdə danışan əhali də yaşayır. Bu ərazilər Afrikanın şimal hissəsini təşkil edir. Ərazidə İslam dini geniş yayılmışdır. Şimali Afrikanın əksər əhalisi müsəlmandır. Müsəlmanlar daha çox Misirdə, Liviyada, Əlcəzairdə, Tunisdə, Mərakeşdə və Sudanda yaşayırlar. Müsəlman əhalisi yaşayan Şimali Afrika ərazisi, Cənubi Afrika Respublikası (CAR) istisna olmaqla Afrikanın digər ərazilərindən mədəni, siyasi, iqtisadi və ictimai cəhətdən fərqlənirlər. Belə ki, bu regionun ölkələri daha çox inkişaf etmiş mədəniyyətə malikdirlər. Şimali Afrika ölkələrində memarlığın müxtəlif üslubları yaxşı inkişaf etmişdir. İslamın yaydığı ərazidə Ərəb xilafəti yarandıqdan sonra bu din yayılmağa başlamış və möhkəmlənmişdir. XIX əsrdə ərazidə Avropa ölkələrinin müstəmləkə rejimləri bərqərar olmuşdur. XX əsrin ortaları və sonlarında milli azadlıq mübarizələri nəticəsində ərazidə müstəqil dövlətlər meydana gəlmişdir. İslam dini ilə əlaqədar olaraq Şimali Afrika ərazisində müsəlman şəriət qaydaları geniş yayılmışdır. Misir qədim Şərq svilizasiyasının mərkəzlərindən biri olmuşdur. Regionun əlverişli coğrafi mövqeyi vardır. Belə ki, Aralıq dənizi ilə həmsərhəd olan Şimali Afrika ölkələri Avropa ölkələri ilə geniş əlaqələrə malikdirlər. Sudan ərazisində Afrasiya, Nil-Saxara və Niger-Kordofan dil ailəsinə mənsub xalqlar yaşayırlar.

Həbəşistan "Efiopiya" sözünün tərcüməsidir. "Efiopiya" isə qədim yunan sözü olub, "Aytiopiya"nın yeni formasıdır. Bu da "Günəş şüalarından qaralmış sifətləri olan insanların yaşadığı ölkə" deməkdir. Həbəşistan çoxmillətli və çox dilli ölkələr sırasına daxildir. Ərazidə müsəlmanlar, xristianlar və yerli dinə mənsub əhali yaşayır.

Tropik Afrika ərazisində isə bantu dilli xalqlar və Sudan dilli xalqlar məskunlaşmışlar. Qərbi Tropik Afrikada yaşayan bantu dilli xalqlar əkinçilik və ovçuluqla, Şərqi Tropik

Afrikada yaşayan bantu dilli xalqlar isə əkinçilik və maldarlıqla məşğuldurlar.

Cənubi Afrika tarixi-etnoqrafik vilayətinin şimal sərhədləri Zambezi çayı ilə əhatə olunur. Cənubi Afrikada ilk Avropa yaşayış məntəqəsini XVII əsrin ortalarında hollandlar salmışdılar. Sonralar bu ərazilərdə ingilislərin ağalığı güclənmişdir. Ərazidə buşmenlər və hottentotlar daha geniş yayılmışdır. Bundan başqa bantu dilli xalqlar da yaşayırlar. Buşmenlər və hottentotlar eyni bir antropoloji tipə aid edilməklə Koysan qrupunu təşkil edirdilər. Buşmenlər və hottentotlarla yanaşı Cənubi Afrikada zuluslar da yaşayırlar.

Ərazidə Cənubi Afrika Respublikası (CAR) İEKÖ (İnkişaf Etmiş Kapitalist Ölkələri) sırasına daxildir. Ərazinin zəngin faydalı qazıntıları vardır. Mərkəzi və Cənubi Afrikada Xristian dini də yayılmışdır. Yerli dinlər bəzi ərazilərdə mövcuddur. Çoxmilyonlu Afrika əhalisinin 12 milyonu hind-avropa dillərində danışırlar.

Madaqaskar dünyanın ən böyük adalarından biridir. Madaqaskar əhalisi öz antropoloji əlamətlərinə, dillərinə və mədəniyyətlərinə görə qonşu Afrika əhalisindən daha çox uzaq İndoneziya əhalisinə bənzəyir. Madaqaskar əhalisinin müasir dili İndoneziya dillərinin qərb qrupuna aiddir. Onların dili İndoneziya əhalisinin dilinə daha yaxındır. Dil və etnoqrafik elementlər malqaşları malay xalqları ilə eyniləşdirsə də, onların antropoloji əlamətləri malqaşları zəncilərlə yaxınlaşdırır. Ərəblərin gəlişinə qədər malqaşların yazısı olmamışdır. Malqaş dilində ilk yazı Ərəb əlifbası ilə XVIII əsrdə yazılmışdır.

## *ASİYA XALQLARI*

Avrasiya materiki həm ərazisinə, həm də əhalisinin sayına görə dünyanın ən böyük quru hissəsidir. Materik 2 qitədən ibarətdir: Avropa və Asiya. Asiya qədim insan məskənlərindən hesab olunur. Çin, Hindistan, Babilistan, Orta Asiya və Cənubi Qafqaz Asiyanın qədim mədəniyyət

mərkəzlərindəndir. Asiya xalqlarının sosial-iqtisadi və mədəni inkişaflarına son dövrlərdə başlanan müstəmləkə işğalları olduqca mənfi təsir göstərmişdir. Hazırda Asiya xalqları müstəmləkəçilik boyunduruğundan azad olaraq inamla müstəqillik yolu ilə addımlayır və sosial ədalət uğrunda mübarizə aparırlar. Asiyada bütün böyük insan irqlərinə rast gəlmək mümkündür. Bunların içərisində monqoloid və avropoid irqləri üstünlük təşkil edir. Burada papaus, melaneziy, piqmey-neqritos və avstroloid qrupları ad mövcuddur. Asiyada çoxlu miqdarda qarışıq antropoloji tiplərə də rast gəlinir. Burada Çin-Tibet, Hind-Avropa, Semit-Hamit, Altay, Avstroneziya kimi böyük dil ailələrinə məxsus əhali yaşayır. Qitədə xırda dil ailələrinə məxsus əhali də vardır.

Asiyada hazırda 3 milyarddan çox əhali yaşayır. Çin-Tibet dil ailəsinin tərkibində ən çoxsaylı olanları çinlilər və xueylərdir. Xueylər müsəlmandırlar. Bu dil ailəsinə mənsub xalqlar Çində, Hind-Çində, Nepalda və Şimali Hindistanda məskunlaşmışlar.

Paratay dil ailəsinə mənsub xalqlar Cənubi Çində və Hind-Çində yaşayırlar. Asiyanın dravid dillərində Hindistanın cənubunda yaşayan bütün xalqlar danışırlar.

Asiyada Hind-Avropa dilli əhali Hind, İran və Slavyan qruplarına daxildir. Hind dilli əhali Hindistan, Pakistan, Nepal və Banqladeşdə yığcam halda yaşayırlar. İran qrupuna daxil olan əhali İran, Əfqanıstan, Türkiyə, Tacikistan, Suriya, İraq və Pakistanda yaşayır.

Avroasiya dilləri, əsasən, Ön Asiyada yayılmışdır. Bunlar ərəblər, aysorlar və yəhudilərdir. Asiyanın Altay dil ailəsi Türk, Monqol və Tunqus-Mancur qruplarından ibarətdir.

Asiyanın tarixi-etnoqrafik əyalətləri bunlardır:

1) Ön (Qabaq) Asiya;
2) Cənubi Asiya;
3) Cənub-Şərqi Asiya;
4) Şərqi və Mərkəzi Asiya;

5) Orta Asiya və Sibir;
6) Qafqaz.

***ÖN ASİYA XALQLARI:*** Coğrafi cəhətdən Ön Asiya Kiçik Asiyanı, Mesopotamiyanı, Livanı, Ərəbistan yarımadasını və İran yaylasını özündə birləşdirir. Hal-hazırda Cənub-Qərbi Asiyada aşağıdakı dövlətlər yerləşir: Türkiyə, İran, İraq, Əfqanıstan, Suriya, Səudiyyə Ərəbistanı, Yəmən, İsrail (Fələstin), Livan, İordaniya, Oman sultanlığı, BƏƏ (Birləşmiş Ərəb Əmirlikləri), Bəhreyn, Küveyt, Qətər və Kipr respublikası. Bu ərazilərin etnik tərkibi haqqında ilkin məlumat e.ə. IV-III minilliyə aiddir. Regionun əhalisi 3 linqvistik qrupda təmsil olunur: Semit, İran və Türk qrupları. Semit dilli əhali ərəblər, aysorlar və yəhudilərdir. İran dilli əhali farslar, puştunlar, taciklər, kürdlər, bəluclar və lurlardır. Türk dillərində danışan əhali isə türklər, azərbaycanlılar, türkmənlər, özbəklər, qaşqaylar, şahsevənlər, qacarlar, əfşarlardır. Burada 3 böyük dinin əhalisi yaşayır. Ərazidə müsəlmanlar üstünlük təşkil edir. Yəhudilər və xristianlar da qeyd olunan ərazilərdə, xüsusi ilə, Yaxın Şərqdə yaşayırlar. Regionun özü də müəyyən cəhətlərinə görə etnoqrafik bölgələrə ayrılır: Əfqanıstan, İran, Türkiyə xalqları, Suriya və İraq xalqları, İsrail xalqları, Səudiyyə Ərəbistanı, Yəmən ərəbləri, Livan və İordaniya ərəbləri, Kipr və Ərəb Əmirlikləri.

Əfqanıstan ərazisində əfqanlar, taciklər və özbəklər üstünlük təşkil etməklə yanaşı burada müxtəlif xalqlar da yaşayır. İran ərazisində farslar, azərbaycanlılar, kürdlər, türkmənlər və ərəblər əsas etnik qruplar hesab olunur. Bununla yanaşı İran ərazisində xeyli miqdarda İran dilli və Türk dilli xalqlar da yaşayır. Semit dilli əhali də İranda çoxdur. Türkiyə Respublikası ərazisində türklər, kürdlər, türkmənlər, ərəblər, o cümlədən, Qafqaz xalqları (çərkəzlər, abazinlər, gürcülər, lazlar) üstünlük təşkil edirlər.

İraq Respublikası da çoxmillətli ölkələr sırasına daxildir. İraqda Semit qrupu, İran qrupu və Türk qrupuna aid olan xalqlar yaşayır. Semit qrupu xalqları: İraq ərəbləri, Fələstin ərəbləri, aysorlar; İran qrupu xalqları: Kürdlər, farslar, lurlar; Türk qrupu xalqları: Türkmənlər, türklər. Qeyd olunan iri xalqlarla yanaşı azsaylı xalqlar da yaşayır ki, bunlar da ermənilər, çərkəzlər, indeylərdir.

***CƏNUB – ŞƏRQİ ASİYA XALQLARI:*** Ərazidə Vyetnam, Kamboca, Laos, Tailand, Birma, Malayziya, İndoneziya, Filippin, Sinqapur, Şərqi Timor, Bruney ölkələri yerləşir. Əhalinin sayı 400 milyondan çoxdur. Cənub-Şərqi Asiyada ən geniş yayılmış dil ailəsi Avstroneziya dil ailəsidir. Regionun özü də aşağıdakı etnoqrafik bölgələrə ayrılır: Hind-Çin xalqları, Malayziya xalqları, Sinqapur xalqları, Bruney dövləti, Filippin xalqları, İndoneziya xalqları. Cənub-Şərqi Asiyada müsəlmanlar geniş yayılmışdır. Müsəlmanlar İndoneziyada üstünlük təşkil edir. İndoneziya dünyada müsəlman əhalisinin sayına görə birinci yerdə durur. Regionda xristianlar, buddistlər və yerli dinlərə inanan əhali də yaşayır.

***CƏNUBİ ASİYA XALQLARI:*** Regionda Hindistan Respublikası, Pakistan İslam Respublikası, Banqladeş Xalq Respublikası, Şri-Lanka Respublikası, Nepal Krallığı və Butan Krallığı yerləşir. Cənubi Asiyada 200-ə qədər xalq yaşayır. Əhalinin əksəriyyəti Hind-Avropa dil ailəsinin Hind, İran və Dard budaqlarına, habelə, Dravid, Avstroasiya və Çin-Tibet dil ailələrinə mənsub dillərdə danışırlar. Ərazidə müsəlmanlar, buddistlər və yerli dinlərə məxsus əhali yaşayır. Cənubi Asiyanın etnoqrafik vilayətləri aşağıdakılardır:

1) ***Şimal vilayətlərinin xalqları və ya Hindistan xalqları:*** Buraya pəncab, kəşmir, şina, balti xalqları daxildir. Əhalinin əksəriyyəti müsəlman və buddistlərdir.

2) ***Hindistan və Racəstan xalqları:*** Hindistan vilayəti Qanq çayı boyunca uzanır. Racəstan isə Hindistanın mərkəzi hissələrini əhatə edir. Əsas əhalisi hinduslar və racəstanlılar (racputlardır).

3) ***Şərq vilayətinin xalqları:*** Burada benqallar üstünlük təşkil edirlər. Benqallar Hindistan ərazisində Qərbi Benqaliyada, Banqladeş ərazisində isə Şərqi Benqaliyada yaşayırlar. Oriyalar və assamlılar da yaşayırlar. Ərazidə digər xırda xalqlar da məskunlaşmışdır. Benqalların əksəriyyəti müsəlmandır. Ərazidə buddistlər də yaşayır. Banqladeş xlqları əhalinin 98 %-i benqaldır. Əhalinin 85 %-i müsəlman, 14 %-i inanistlərdir. Burada buddistlər və xristianlar da yaşayırlar.

4) ***Mərkəzi Hind yaylasının xalqları:*** Ərazidə benqal, oriya, teluqu, maratx, racastxan xalqları yaşayır. Bundan başqa digər xırda xalqlar da ərazinin sakinləridir. Bunlara Qondaları misal göstərmək olar. Bxillər isə Qucarat və Racəstan vilayətlərində məskunlaşmışlar.

5) ***Qərb vilayətlərinin xalqları:*** Bu bölgəyə, əsasən, Hindistan Respublikası daxildir. Əsas xalqlar qucaratlar və maratxlardır. Qucaratlar, əsasən, Hindistanda və Pakistanda məskunlaşmışlar. Əhalinin əksəriyyəti induizm və İslam dinlərinə mənsubdur.

6) ***Cənubi Hindistan xalqları:*** Burada Dravid dil ailəsinə mənsub əhali çoxluq təşkil edir. Ən böyük etnosları tamillər, kannara, malayyali və teluqu xalqlarıdır.

7) ***Şimal-qərb vilayətləri:*** 1947-ci ildə Hindistanla Pakistan 2 müstəqil dövlətə ayrıldı və Sind, Bəlucistan, Qərbi Pəncab, Qərbi Kəşmir və Hindistanın bir sıra şimal əyalətləri Pakistana verildi. 1971-ci ildə Pakistanın şərq əyaləti Banqladeş adı ilə müstəqil dövlətə çevrildi. Hind-Avropa dil ailəsinə mənsub pəncablılar, sindxlər, puştunlar və bəluclar Pakistanın əhalisinin 97,5%-ni təşkil edirlər. Pəncablılar əhalinin 65%-ni təşkil edirlər. Pakistanda əhalinin dini inamları bu cürdür: müsəlmanlar 96%; Xristianlar 2%; İnduistlər 2%.

8) ***Nepal xalqları:*** Əhalinin əksəriyyəti Hind-Avropa və Çin-Tibet dil ailələrinə mənsubdur.

9) ***Şri-Lanka xalqları:*** Burada sinqallar əhalinin 74%-ni təşkil edir.

***ŞƏRQİ ASİYA XALQLARI:*** Bu əraziyə Çin, Monqolustan, Koreya və Yaponiya daxildir. Əhali, əsasən, Çin-Tibet, Altay və Avstroasiya dil ailələrinə mənsub dillərdə danışır. Ərazi aşağıdakı etnoqrafik vilayətlərə bölünür:

1) Çin xalqları: Buraya çinlilər, xueylər, altaylar, uyğurlar, monqollar, qazaxlar, mancurlar və başqaları daxildir.

2) Monqolustan xalqları: Buraya monqollar, buryatlar və qazaxlar daxildir.

3) Koreya xalqları: Ərazidə Koreya Respublikası və KXDR yerləşir. Əhalisinin əksəriyyətini koreyalılar təşkil edir.

4) Yaponiya xalqları: Əhalinin 99 %-i yaponlardır. Bundan başqa ərazidə koreyalılar, çinlilər, amerikanlar, filippinlilər, ingilislər, hindlilər və kanadalılar yaşayır.

## SİBİR VƏ UZAQ ŞƏRQ XALQLARI

Sibir əhalisinin 9/10 hissəsini slavyan xalqları təşkil edir. Sibirin daimi qeydiyyatda olan 26 milyonluq əhalisinin 22 milyondan çoxunu ruslar, bir milyondan çoxunu isə ukraynalılar təşkil edir.

Sibirin yerli xalqlarının sayı isə 1,3 milyondan artıqdır. Müasir Sibirdə 30-a qədər yerli xalq yaşayır. Onların bəzilərinin məskunlaşdığı torpaqlar Avropa dövlətlərinin bir çoxunun ərazisindən böyükdür. Məsələn, Saxa (Yakutiya) Respublikasının ərazisi Fransanın ərazisindən 6 dəfə, buryatların yaşadığı ərazisi isə Böyük Britaniya torpaqlarından 1,5 dəfə böyükdür. Sibir xalqları öz saylarına görə 2 qrupa ayrılırlar: böyük və kiçik xalqlar. Buryatlar, yakutlar, tuvalılar, sibir tatarları, xakaslar və altaylılar böyük xalqlar hesab

olunurlar. Qalan xalqların hamısı “Sibirin kiçik xalqları” sayılırlar.

Sibir xalqları müxtəlif dil ailələri və dil qruplarına bölünürlər. Ən çox qohum dilli xalqlar Altay dil ailəsinə mənsub olan xalqlardır. Altay dil ailəsi 3 qrupa ayrılır: 1) Türk; 2) Monqol; 3) Mancur. Türk qrupu daha genişdir. Sibirdəki Altay Sayan xalqları (altaylılar 75 min) da bu qrupa daxildir. Türk qrupuna daxil olan Sibir xalqları aşağıdakılardır: Tuvalılar, xakaslar, Qərbi Sibir tatarları, qaraqaslar, şorlar və dolqanlar, yakutlar. Bunların içərisində daha çox yakutlar üstünlük təşkil edir (360 min).

Sibirdəki monqol qrupu xalqlarından yalnız Baykal gölü ətrafında yaşayan buryatları (380 min) göstərmək olar.

Bu baxımdan tunqus-macur qrupuna daxil olan xalqların sayı daha çoxdur. Bu qrupa tunquslar, lamutlar, nanaylar, ulçlar, negidallar, oroçlar, udegeylər, oroklar və mancurlar daxildir.

Qərbi Sibirdə bəzi xırda xalqlar da yaşayır ki, bunlar da Ural dil ailəsinə mənsubdurlar.

Sibirin bəzi xırda xalqları paleoasiyalılar adlandırılır. Bu dil qrupuna Şimal-Şərqi Asiyanın bir çox xırda xalqları daxildir. Bunlar itelmenlər, çukçalar, koryaklar, yukagirlər və çuvanlardır.

Sibirin şimal-şərqində bir qrup eskimos (1500) və aleutlar (500) da yaşayır. Tundra ərazisində maralçılıq geniş yayılmışdır. Buryatlar daha çox əkinçiliklə məşğul olurlar. Cənubi Altayın və Sayanın türk xalqları (xakaslar və tuvalılar), əsasən, iri buynuzlu heyvanlar saxlayırdılar. Şimali Altayın türk əhalisi isə ovçuluqla məşğul olur. Əkinçilik təsərrüfatı Altaydan qərbə doğru yerləşən ərazilərdə Tomsk, İşim, Barabin və Tobol tatarları arasında yayılmışdı. Hazırda Sibir tatarları öz məişət və mədəniyyətlərinə görə qonşu ruslardan o qədər də fərqlənmirlər.

Şimalın maldar tayfaları, əsasən, yakutlardır. Rusların gəlişinə qədər onlar at və iri buynuzlu heyvanlar saxlayırdılar. Atlar ən şaxtalı günlərdə belə tövlədə saxlanılmırdı. Yakutlar balıqçılıqla da məşğul olurlar.

Köçəri buryatlar və altaylılar isə əvvəllər daha çox alaçıqlarda yaşayırdılar. Altayların, buryatların, xakasların və yakutların başlıca yaşayış evi tipi altıbucaq evlər idi. Oturaq yakutlar və buryatlar isə ağac evlərdə yaşayırdılar. Cənubi Sibirin maldar əhalisinin geyimləri monqol geyimlərinə bənzəyirdi. Cənubi Altay maldarları isə uzun ətəkli kürklər geyinirdilər. Yakutların qadın bayram libası “sanqıyax” adlanan uzun ətəkli qollu xəz koftalardan ibarətdir.

Nivxlərin, nanayların, ulçların, koryakların, itelmenlərin, selkupların və xantların təsərrüfatı oturaq balıqçı təsərrüfat idi. Balıqçılıq bütün il boyu əhalinin ehtiyacını təmin edən yeganə həyat sahəsi idi. Oturaq balıqçılar itlərdən nəqliyyat vasitəsi kimi istifadə edirdilər. Onlar mürəkkəb qoşqu üsulu ilə xizəklərə qoşulurdu. Amur və Ob balıqçıları balıq dərisindən şalvar və xalat tikir, qış paltarlarını isə xəz dəridən tikirdilər.

Ovçu və ya maralçı tayfalar Yenisey çayı ilə Oxot dənizi arasında məskunlaşmışlar. Onlar evenglər, evenlər, dolqanlar, selkunlar və ketlərin bir hissəsidir. Geyimləri “mamitsa” adlanan xəz dəridən ibarətdir və bu başdan ayağa qədər geyinilir.

Arktika dəniz ovçuları adlanan və Çukot yarımadası sahillərində yaşayan eskimoslar, çukçalar və aleutlar, əsasən, suiti və morj ovlayırdılar. Primorsk əhalisi keçmişdə yalnız tüstü çıxmaq üçün bacası olan qapısız qazmalarda yaşayırdılar. Oraya nərdivanla çıxıb-düşürdülər. XIX əsrdə onlar maralçı qəbilələr sayağı yaranqalar tikməyi öyrənmişdilər. Onlar da iki qatlı xəz kisələrə bənzər paltar geyirdilər.

Bir-birindən təcrid edilmiş vəziyyətdə yaşayan Sibir xalqları arasında nəsli qəbilə münasibətlərinin qalıqları çox güclü idi. Məsələn, yukagirlərdə belə bir qayda var idi ki,

gənclər gələcək qaynatasının evində bir müddət işləyərək onun qızı ilə evlənmək hüququ qazanırdı. Evlənən gənclər elə orada da yaşayırdılar. Bu tərzdə "işləyib ödəmə əsasında nigah" çukça və koryaklarda da qeydə alınmışdır. Ərin arvad tərəfə getməsi adəti XVII əsrdə itelmenlər arasında da vardı. Lakin Sibir xalqlarının əksəriyyətində patriarxal nəsli quruluş hökm sürürdü. Məsələn, nivxlərdə nəsil ata xətti üzrə hesablanırdı. Qədim Sibir xalqları arasında quldarlıq münasibətləri də saxlanılırdı. Qul edilmiş kişilər qadın kimi ev işlərində çalışırdılar. Lakin beşinci nəsildə qul artıq azad edilirdi.

Keçmişdə Sibir xalqları arasında ən çox şamanizm dini yayılmışdı. Şamanlıq XVII əsrdə buryatlar arasında buddizm ilə əvəz olunmuşdu. Buddizm tuvalılar arasında, xristianlıq xakas və altaylarda əsas din sayılır. Qərbi Sibir tatarları XVI əsrdə müsəlmanlığı qəbul etmişlər.

## MƏRKƏZİ ASİYA, QAZAXISTAN VƏ QAFQAZ XALQLARI

**MƏRKƏZİ ASİYA VƏ QAZAXISTAN XALQLARI:** Uzun sürən etnik inkişaf prosesində Mərkəzi Asiya və Qazaxıstanda yaşayan bir çox etnoslar artıq XX əsrin əvvəllərində burjua milləti şəklində formalaşmışdır. Mərkəzi Asiya və Qazaxıstanda yaşayan əhalinin 3/5 hissəsini türk dillərində danışan əhali təşkil edir. Bunlara misal olaraq özbəkləri, qazaxları, qırğızları, türkmənləri, qaraqalpaqları, tatarları, uyğurları və azərbaycanlıları göstərmək olar. Türkdilli xalqlar arasında əhalisinin sayına görə özbəklər birinci yerdə dururlar. Hind-Avropa dil ailəsinin İran qrupuna aid olan xalqlar ümumi əhalinin 7%-ni (50 milyon) təşkil edir. Bunlar taciklər, farslar, bəluclar və kürdlərdir. Slavyan mənşəli xalqlar 27% təşkil edir. Dunqanların dili Çin-Tibet dil ailəsinə daxil olan Çin dilidir.

Hal-hazırda Mərkəzi Asiya və Qazaxıstanda 5 müstəqil

dövlət: Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan və Qazaxıstan, habelə, Özbəkistanın tərkibinə daxil olan Qaraqalpaq Respublikası yerləşir.

Özbəkistan Respublikası əhalisinin 77,5 %-ni özbəklər təşkil edir. Burada ruslar, tatarlar, qazaxlar, taciklər, koreyalılar, qaraqalpaqlar, ukraynalılar, qırğızlar, yəhudilər, türkmənlər və azərbaycanlılar da yaşayırlar.

Qazaxıstan əhalisinin 40 %-ni qazaxlar təşkil edir. Qazaxlardan sonra ruslar üstünlük təşkil edirlər. Qazaxıstanda ukraynalılar, almanlar, tatarlar, özbəklər, belaruslar, uyğurlar, koreyalılar, azərbaycanlılar və dunqanlar da yaşayırlar.

Tacikistanda, əsasən, taciklər üstünlük təşkil etməklə yanaşı burada özbəklər, ruslar, tatarlar, qırğızlar, ukraynalılar da yaşayırlar.

Qırğızıstan Respublikasının əhalisinin 56 %-ni qırğızlar təşkil edir. Burada, həmçinin, ruslar (1,1 milyon), özbəklər, ukraynalılar, tatarlar, uyğurlar, almanlar, qaraqalpaqlar, dunqanlar və qazaxlar yaşayır. Rusların çoxluğu ilə əlaqədar olaraq Qırğızıstan Respublikasının dövlət dilləri qırğız və rus dilləridir.

Türkmənistanda əhalinin 80,5 %-ni türkmənlət təşkil edir. Türkmənistanda ruslar, qazaxlar, azərbaycanlılar, ermənilər, ukrainlər, bəluclar da yaşayırlar.

Mərkəzi Asiya və Qazaxıstanın maddi-mədəniyyəti etnik mənsubiyyətdən daha çox təsərrüfat və regional xüsusiyyətləri özündə əks etdirir. Şəhər yaşayış məntəqələrindən fərqli olaraq aul və qışlaq kimi məskənlər etnik xüsusiyyətlərə malikdir. Mərkəzi Asiya və Qazaxıstanda Alma-ata, Astana, Daşkənd, Səmərqənd, Bişkek kimi iri şəhərlər vardır. Regionda ən böyük şəhər Daşkənddir. Mərkəzi Asiyada yaşayış evləri 2 tipdir: Oturaq əkinçilərə məxsus bir mərtəbəli evlər və Köçəri maldarlara məxsus mövsümi xarakterli evlər. Mərkəzi Asiya xalqlarının ənənəvi geyimləri bir çox ümumi spesifik cəhətlərə malikdir. Kişi geyimlərinin əsasını tuniki formalı biçim

üsulunda hazırlanan köynəklər və enli şalvarlar təşkil edir. Üst paltarı kimi hər yerdə yaxası başdan ayağa qədər açıq, uzun qolları aşağıya doğru naziklәşən xalatlar geyirlər. Xalatın biçimi və onun rəngi milli mənsubiyyəti ayırd etməkdən daha çox onlar ayrı-ayrı vilayətlər üzrə fərqlənirdi. Məsələn, xarəzm özbəkləri, türkmən və qaraqalpaqlar qırmızı rəngli, Fərqanə özbəkləri və taciklər isə yaşıl-göy rəngli xalatlar geyirlər.

Ənənəvi qadın geyimləri XX əsrin əvvəllərinədək öz milli xüsusiyyətlərini daha çox mühafizə etmişdir. Onlar tuniki biçimli uzun köynək və şalvar geyirdilər. Paltarlar açıq rəngli parçalardan tikilirdi. Üst paltarları kişi geyimlərindən o qədər də fərqlənməyən xalatlardan ibarət idi. Mərkəzi Asiya ənənəvi qadın geyimlərinin əsasını xalat örtük təşkil edir. Qadınlar onu başlarına salırlar.

Mərkəzi Asiya və Qazaxıstan xalqlarının əksəriyyəti müsəlmandır. Qazaxıstanın şimalında xristianlar da yaşayırlar ki, bu da ərazidə rusların çoxluq təşkil etməsi ilə əlaqədardır.

***QAFQAZ XALQLARI:*** Xüsusi tarixi-etnoqrafik vilayət olan Qafqazın etnik tərkibi olduqca rəngarəngdir. Hal-hazırda Qafqazda 3 müstəqil ölkə: Azərbaycan, Gürcüstan (tərkibində Abxaziya, cənubi Osetiya və Acarıstan vilayətləri yerləşir) və Ermənistan Respublikaları, o cümlədən, Rusiya Federasiyası tərkibində olan Şimali Qafqazda muxtar qurumlar və respublikalar vardır: Dağıstan, Kabarda-Balkar, Şimali Osetiya (Alaniya), Çeçenistan, İnquşetiya muxtar respublikaları, Krasnodar ölkəsində Adıgey muxtar vilayəti, Stavropol ölkəsində Qaraçay-Çərkəz muxtar vilayəti və Xəzərin şimal-qərb sahillərində Kalmıkiya muxtar respublikası yerləşir. Qafqazda 50-yə qədər xalq yaşayır. Onların ən böyüklərinin statistik cədvəlinə baxaq:

| | |
|---|---|
| Azərbaycanlılar | 8 milyon |
| Gürcülər | 4 milyon |
| Ermənilər | 4,3 milyon |
| Abxazlar | 100 min |

| | |
|---|---|
| Acarlar | 300 min |
| Osetinlər | 600 min |
| Dağıstan xalqları: | |
| Avarlar | 550 min |
| Darginlər | 320 min |
| Kumıklar | 260 min |
| Ləzgilər | 450 min |
| Laklar | 120 min |
| Tabasaranlar | 85 min |
| Noqaylar | 70 min |
| Rutullar | 17 min |
| Aqullar | 13 min |
| Saxurlar | 15 min |
| Kabardinlər | 350 min |
| Balkarlar | 75 min |
| Çeçenlər | 1 milyon |
| Çərkəzlər | 55 min |
| İnquşlar | 200min |
| Adıgeylər | 120 min |
| Qaraçaylar | 150 min |
| Abazinlər | 36 min |
| Ruslar | 12 milyon |
| Ümumi əhali: | 32,5 milyon |

Linqvistik baxımdan Qafqaz əhalisi 3 böyük dil ailəsinə mənsubdur: Qafqaz, Hind-Avropa, Altay dil ailələri. Lakin ərazidə azsaylı xalqlar da yaşayır ki, bunlar daha çox Dağıstanda məskunlaşmışlar.

Antropoloji cəhətdən Qafqaz əhalisi yekcinsdir. Monqoloid əlamətli noqaylar və kalmıkların əksəriyyəti istisna edilməklə bütün digər xalqlar böyük Avropa irqini təmsil edirlər. Ruslar istisna edilməklə Qafqazın bütün əhalisi Avropa irqinin cənub budağına daxildirlər. Əhali başlıca olaraq üç əlamətlərinə görə fərqlənir:

1) Saçın və gözlərin rənginə görə;

2) Sifətin enliliyinə görə;

3) Baş indeksinə görə.

Qafqaz əhalisini aşağıdakı antropoloji tiplərə ayırmaq olar:

1) Böyük Qafqaz tipi;

2) Xəzər tipi;

3) Kuban və ya Pont tipi;

4) Kartvel və erməni tipləri.

Qafqaz əhalisinin müasir antropoloji tərkibi hələ Son Tunc və İlk Dəmir dövründə formalaşmışdır. Qafqazda ən geniş yayılmış dil ailəsi Qafqaz və ya İber-Qafqaz dil ailəsidir. Hazırda bu dil ailəsi 4 budağa ayrılır: 1) Cənub (Kartvel); 2) Şimal-Qərb (Abxaz-adıgey); 3) Mərkəz (Nax); 4) Dağıstan budaqları.

Kartvel dillərində gürcülər danışır.

Abxaz-adıgey dillərində abxazlar, abazinlər, adıgeylər, çərkəzlər və kabardinlər danışırlar.

Çeçenlərin və inquşların dilləri Nax budağına daxildir.

Dağıstan budağına avarların, darginlərin, lakların, ləzgilərin, tabasaranların, o cümlədən, Dağıstanda və Azərbaycanda yaşayan bir neçə xalqın dili daxildir.

Dağıstan və Azərbaycanda yaşayan Dağıstan dilli xalqlar ləzgilər, aqullar, rutullar, avarlar, tabasaranlar, saxurlar, udinlər, buduqlar, qrızlar və xınalıqlardır. Ləzgilər ləzgi, rus və Azərbaycan dillərində, aqullar ləzgi və rus dillərində, rutullar və saxurlar Azərbaycan və rus dillərində, tabasaranlılar öz müstəqil ədəbi dillərində, udinlər Azərbaycan və udin dillərində danışırlar.

Qafqazda Hind-Avropa dillərini təmsil edən xalqlar ruslar, ermənilər, osetinlər, ukraynalılar, tatlar, talışlar, kürdlər, yunanlar və başqalarıdır. İran dilli əhali osetinlər, talışlar, kürdlər və tatlardır. Qafqazda moldovanlara, qaraçılara, almanlara da rast gəlinir.

Altay dil ailəsinə mənsub olan xalqlar türk dilli xalqlardır. Bunlara azərbaycanlılar, noqaylar, kumıklar, balkarlar, qaraçaylar daxildir.

Qafqaz xalqlarının geyimləri bəzi əlamətlərinə görə ümumi xarakter daşısa da burada yaşayan xalqların geyimlərində də fərqlər vardır. Adıgeylərin, osetinlərin, qaraçayların, balkarların, abxazların geyimləri oxşardır. Bu xalqların geyim tipləri: beşmet, dar şalvar, papaq və yapıncı, ensiz toqqa və çəkmədən ibarətdir. Qadın geyimləri köynəkdən, uzun şalvardan, enli biçimli tumandan və hündür baş geyimindən ibarətdir. Dağıstan xalqlarının kişi geyimləri bir çox əlamətlərinə görə adıgey geyimlərinə bənzəyir.

Dini etiqadlarına görə Qafqaz xalqları 2 hissəyə: müsəlmanlara və xristianlara ayrılır. Xristianlıq Qafqazda eramızın ilk əsrlərində yayılmışdır. IV əsrdə bu din Qafqaz Albaniyasında (İndiki Azərbaycan və Cənubi Dağıstan) və Gürcüstanda qəbul edilmişdir.

Xristianlıq gürcülərdən abxazlara və adıgeylərə (VI-VII əsrlər) keçmişdir. Bu dini sonralar çeçenlər (VIII əsrdə), inquşlar, osetinlər və başqa dağlılar da qəbul etmişdilər.

Qafqazda İslam dininin yayılması bilavasitə Ərəb dövrü ilə (VII-VIII əsrlər) əlaqədardır. Bu din monqol yürüşləri dövründə, xüsusilə, Teymurun yürüşləri zamanı daha da möhkəmləndi. Abxazlar İslami XV əsrdə, türk işğalları dövründə qəbul etdilər.

Şimali Qafqaz xalqları arasında İslam dinini XV-XVII əsrlərdə türk sultanları və Krım xanları yayırdılar. İslam dinini XVII-XVIII əsrlərdə osetinlər Kabardadan qəbul etmişdilər. XVI əsrdə İslam Dağıstandan Çeçenistana da keçmişdir. İnquşlar isə İslam dinini XIX əsrdə çeçenlərdən qəbul etmişlər. İslam dini Şamilin başçılığı altında milli azadlıq hərəkatı dövründə dağlılar arasında daha da möhkəmləndi.

Azərbaycanlılar Cənubi Qafqazda yaşamaqla Qafqazın ən böyük yerli xalqıdır. Kökləri yerli Qafqaz Albaniyasına gedib

çıxan Azərbaycan xalqı öz milli adətlərinə, məişətinə və mədəniyyətinə görə digər Qafqaz xalqları ilə həm oxşar, həm də fərqli xüsusiyyətlərə malikdir. Albanların xarici antropoloji görünüşü haqqında məlumatlardan aydın olur ki, onlar Dağıstan və Azərbaycanda yaşayan, keçmiş albanların qalıqları olan xalqlara çox oxşar olmuşlar.

Cənubi Qafqazda ikinci böyük yerli xalq gürcülərdir. Gürcüstanda gürcülərlə yanaşı azərbaycanlılar, ruslar, ermənilər, abxazlar, osetinlər, acarlar və başqa xalqlar da yaşayırlar. Antropoloji cəhətdən gürcülər Pont-Zaqros tipinə aiddir. Gürcülərin arasında bir çox etnik qruplar da vardır. Hazırda onlar gürcü etnosunun tərkibinə daxil olaraq öz əvvəlki etnik xüsusiyyətlərini itirmişlər. Bunlar, əsasən, kartli, kaxet, tuşin, xevsur, pşav, moxev, mtiul, inqiloy, mesxi, cavax, imeret, raçin, leçxum, qori, acar, meqrel, laz (çan) və svanlardır. Gürcülər daha çox əkinçilik, maldarlıq, üzümçülük və şərabçılıq, o cümlədən, sənətkarlıqla məşğul olmuşlar. Gürcü yaşayış evləri 3 tipdir. Svanlar, xevsurlar və tuşinlər 3-4 mərtəbəli evlərdə yaşayırlar. Gürcü xalq nəqliyyat vasitələri 2 qrupdur: sürütmələr və xizəklər. Gürcü geyimləri özünəməxsusluğu ilə seçilir. Kişi geyimləri çoxa-axalexi adlanır. Gürcü adətinə görə endoqamiyaya yol verilmir. Elçiliyə gedənlər, adətən, qızın dayısının razılığını alırdılar. Bu adətə dasacerisi – razılıq deyirlər. Sonra patara nişani, yəni kiçik nişan taxılırdı. Bu mərhələdən sonra nişanlı qız artıq başı açıq evdən bayıra çıxa bilməzdi. Daha sonra böyük nişan olurdu. Bir qədər sonra toy şənliyi başlayırdı.

Ermənilər Cənubi Qafqazda gəlmə xalq olmaqla Hind-Avropa dil ailəsinin ayrıca bir qrupunu təşkil edirlər. Qədim erməni dili qrabar XIX əsrə qədər danışıq dili kimi istifadə olunmuşdur. Son orta əsrlər dövründən başlayaraq yeni ədəbi erməni dili – aşxarabar dili təşəkkül taparaq XIX əsrdə tam erməni dilinə çevrilmişdir. Ermənistan hal-hazırda monoetnik respublikadır. Ermənistanın qədim yerli əhalisi azərbaycanlılar

olmuşdur. Qafqaza XIX əsrdə gələn ermənilər sonralar yerli əhalinin məişət və mədəniyyətini mənimsəmişlər və bunları özününküləşdirməyə cəhd göstərmişlər.

**AVROPA XALQIARI**

Avropanın yer üzünün ayrıca bir hissəsi kimi qəbul edilməsi ilk növbədə orada yaşayan xalqların dünya tarixinin bəzi dövrlərində böyük rolu ilə əlaqədardır. Etimoloji cəhətdən Avropa adı yalnız coğrafi məna daşıyır: yunan sözü “Europa” (“Ereb” Assuriya sözündən) “Qərb ölkəsi” adlanır; o, konkret halda Avrasiyanın qərbi deməkdir. Ərazidə avropoid irqinə mənsub olan insanlar daha çox yayılmışdır. Qitədə avropoid irqi öz xüsusiyyətlərinə görə şimali avropoid və cənubi avropoid irqlərinə də ayrılır. Şimali avropoid irqinə daha çox Skandinaviya ölkələrinin əhalisi aiddir. Cənubi avropoid irqinə mənsub insanlar daha çox Cənubi İtaliyada yayılmışlar. Avropada Hind-Avropa dil ailəsinə məxsus 4 böyük qrup yayılmışdır: Slavyan; Alman; Roman; Kelt dil qrupları. Bu dul qrupları ilə yanaşı kiçik qruplar da vardır: Yunan, erməni və alban dilləri ayrıca dil qrupları kimi çıxış edirlər. Avropada Ural, Altay və Semit-Hamit dil ailəsinə məxsus dil qruplarının insanları da məskunlaşmışdır.

**SLAVYANLAR:** Avropanın ən böyük və ən geniş məskunlaşmış xalqlar qrupundan biri slavyanlardır. Slavyanlar 3 qrupa bölünür: 1) Cənub slavyanları: Bura Balkan slavyanları, yəni bolqarlar, makedoniyalılar və keçmiş Yuqoslaviya xalqları daxildir; 2) Qərb slavyanları: Bura polyaklar, çexlər, slovaklar və Luqovitsa serbləri daxildir.; 3) Şərq slavyanları: Bura ruslar, ukraynalılar və beloruslar daxildir.

Qərb slavyanlarının mənəvi mədəniyyəti ənənəvi mərasimlərlə zəngindir. Belə ki, polyaklarda, slovak və lujitsalılarda “dojimka” və “objomka” geniş qeyd edilir

(lujitsalılarda "xoruzun Öldürülmə günü"). Bu qədim slavyan əkinçilik bayramı avqust-sentyabr aylarına təsadüf edir və keçmişdə ayrı-ayrı sehrli hərəkət və mərasimlərlə müşayət edilirdi ki, bunun da əsas məqsədi bu məhsulu saxlamaq üçün növbəti ilin məhsul alınmasına təminat vermək idi. Bu dövrə aid olan digər ənənəvi bayram kimi yaz bayramı "stada na troitsu"nu, Polşada "ruh günü" , gənclər bayramı, "may ağacı" (bu bayramda tozağacının yüksək hissəsi kəsilmiş budaqlarla, açıq lentlərlə bəzədilir) bayramlarını göstərmək olar. Polyakların, çexlərin və slovakların böyük bir hissəsi katoliklərdir.

Cənub slavyanları qrupu xalqlarına bolqarlar, serblər, xorvatlar, makedoniyalılar, çernoqoriyalılar, müsəlman slavyanlar daxildirlər. Bu xalqlar, əsasən, Balkan yarımadasında məskunlaşmışlar. Cənub slavyanları qədim əkinçilik və maldarlıq ənənələrinə malikdirlər. Cənub slavyanlarının müxtəlif qədim bayramları vardır. Buna misal olaraq hələ antik dövrlərə aid olan "obrok" və onunla əlaqədar torpağın məhsuldarlıq magiyası, qədim "qurd günləri"-qurdlara həsr olunmuş noyabr ayının ilk həftələri və s. göstərmək olar. Bundan başqa bolqarlarda və digər cənub slavyanlarında məşhur olan və həm də mənşəyi antik dövrə gedib çıxan Trifon Zarezan günüdür ki, bu da 14 fevralda qeyd edilir (üzüm kəsilməsi və onlara çaxır tökülməsi). Təqvim bayramlarından müqəddəs Lazar günündə, pasxaya bir həftə qalmış qeyd edilən "lazarak" qız bayramını, Georgiyev gününü (6 may) – mal qaranın çəmənlərə birinci yaz otlağına çıxarılmasını və s. göstərmək olar.

Şərq slavyanları məişət və mədəni xüsusiyyətlərinə görə bir-birinə daha yaxındırlar. Onların ümumi sayı 200 milyondan çoxdur. Hal-hazırda 145 milyondan çox rus, 46 milyondan çox ukraynalı və 10 milyondan çox belorus yaşayır. Bu xalqların böyük əksəriyyəti Şərqi Avropada yaşayırlar. Şərq slavyanlarında əkinçilik, onunla sıx əlaqədə olan maldarlıq və

meşə təsərrüfatı daha yüksək səviyyədə inkişaf etmişdir. Mal-qaranın saxlanılmasında otlaq-bordaq forması üstünlük təşkil edir. Daha çox etnoqrafik xüsusiyyətləri xalq geyimlərində tapmaq olar. Geyimlərin istehsalı son zamanlara qədər kustar xarakteri daşıyırdı. Şərq slavyanları özləri kətan, çətənə, əkir, yun alır və dəri emal edirdilər. Şərq slavyanlarının əsas geyim tipi köynəklərdir. Kişilər dizə qədər, qadınlar isə daha uzun ətəkli köynəklər geyirdilər. Kişi köynəkləri birtipli – tunikli biçimdə olurdu. Yalnız rusların yaşadığı bir çox vilayətlərdə yanyaxa köynəklər geniş yayılmışdı. Qadın köynəklərində daha çox fərq nəzərə çarpırdı. Şərqi slavyan xalqlarının qadın baş örtükləri etnoqrafik baxımdan daha maraqlıdır. Qızların və ərli qadınların baş örtüklərində fərqli cəhətlər daha çoxdur. Qadın baş örtüyünün bağlanma qaydaları ən çox toylarda müşahidə olunurdu. Cənubi rus vilayətlərində, ukraynalılarda və beloruslarda baş yaylığından çələng düzəldirdilər. Bir çox mərkəzi vilayətlərdə baş örtüyünün özü bir növ çələngi xatırladırdı. Üst geyimləri daha universal xarakterdə idi. Bu mənada qadın və kişi geyimləri arasında böyük fərq nəzərə çarpmırdı. Ruslar, ukraynalılar və beloruslar rəsmən pravoslav kilsəsinə xidmət edirlər. Təqvim mərasimləri İvan Kupola bayramı, maslenitsa, troitsa, soçelnik təntənəli şəkildə qeyd olunur.

***ALMAN XALQLARI QRUPU:*** Bu qrupa aid olan xalqlar Şimali Atlantika adaları daxil olmaqla, Qərbi, Mərkəzi və Şimali Avropada yaşayırlar. Dil və mədəniyyətin bəzi xüsusiyyətlərinə görə bu xalqları iki böyük qrupa bölürlər: Şimali Alman (Skandinaviya) xalqları və Qərbi Alman xalqları.

Skandinaviya xalqları qrupuna isveçlər, norveçlilər, danimarkalılar, islandiyalılar və forerlilər daxildirlər. Təsərrüfatda meşə sahəsi daha çox inkişaf etmişdir ki, bu da təbii-coğrafi şəraitlə əlaqədardır. İsveç xalqı öz milli kostyumlarını müasir dövrdə yalnız toylarda geyir. Norveçlilərin milli geyimi “bunad” adlanır. Digər Skandinaviya xalqlarında

olduğu kimi danimarkalılarda da yun məmulatları geniş yayılmışdır. İslandiyalıların və farerlilərin ənənəvi mədəniyyəti Norveç mədəniyyətinə çox yaxındır.

Qərbi Alman xalqları qrupuna almanlar, avstriyalılar, ingilislər, şotlandiyalılar, oleterlilər, alman-isveçrəlilər, lüksemburqlular, elzaslılar, lotaringiyalılar, flamandlar, hollandiyalılar və frizlər daxildir. Bu xalqlar arasında daha geniş yayılmış dillər alman və ingilis dilləridir. Bütün alman xalqının özünü adlandırdığı ad – Döyç (Döyçlənd – Döyç torpağı) ölkənin şimalında yaşayan tevton tayfasının adı ilə əlaqədardır. Qədimdə ölkənin cənubunda yaşayan aleman tayfasının adı ilə bir çox roman xalqları almanları Aleman adlandırır. İngilislər isə onları germanlar adlandırırlar. German xalqlarının ənənəvi məşğuliyyəti heyvandarlıq, əsasən, iri buynuzlu mal-qaranın saxlanması və əkinçilikdir. İngilislərin milli mətbəxi və milli bayramları daha maraqlıdır. İngilislərin milli xörəkləri rostbif və bifşteks bir çox ölkələrdə məşhurdur. Ənənəvi yaz bayramları, xüsusən, indi İngiltərədə yalnız bir gün qeyd olunan maslenitsa böyük rəngarəngliyi ilə seçilir. Həmin gün səhər saat 11-də kilsə zəngləri kəndin bütün əhalisinə blinaların bişirilməsinin başlanmasını xəbər verir. Niderland əhalisinin əksəriyyəti şəhərlərdə yaşayır. Almanlarda da təqvim bayramları böyük təntənə ilə qeyd edilir.

***ROMAN XALQLARI QRUPU:*** Bu qrupa italyanlar, italyan-isveçrəlilər, ispanlar, fransızlar, portuqaliyalılar, friullar, romaneşlər, ladinlər, korsikanlar, katalonlar, qalisiyalılar, rumınlar və moldovanlar daxildir. İtalyanların mənəvi həyatı müxtəlif ənənəvi bayramlarla zəngindir. Milad günü və yeni il bayramı geniş miqyasda keçirilir. İtalyanlar Yeni il günü evdə lazım olmayan çini və şüşə qabları, sınıq mebeli tullayırlar. İtaliyada ən böyük yaz bayramı karnaval hesab edilir. Karnaval gəzintiləri, adətən, fevral-mart aylarında keçirilir. Pasxa italyanların ikinci böyük yaz bayramıdır. İtalyanlarda ən məşhur yay bayramı San Covanni günüdür (24

iyun). İspanlarda ən çox sevilən təqvim bayramı Milad günüdür. İspaniyada katolok təqvimi ilə bütün müqəddəslərin günü hesab edilən 1 Noyabr günü böyük əhəmiyyətə malik bayramdır. İspanlar da ənənəvi olaraq çoxlu karnavallar keçirirlər. İspan bayramlarında hər zaman koorido (öküzlər döyüşü) keçirilir.

***KELT XALQLARI QRUPU:*** Bu qrupa irdandiyalılar (Şimali və Cənubi İrlandiyada), valliyalılar (Uelsdə), gellər (Şotlandiyada və Gebrid adalarında) və bretanlar (Fransada Bretan yarımadasında) daxildir. Keltlər Avropanın ən qədim sakinlərindən biridir. Keltlərdə daha çox nəzərə çarpan Laten mədəniyyətidir. Bu ad müasir İsveçrədə La Ten adlanan yerin adı ilə belə adlandırılır. E.ə. V-I əsrlərə aid edilən mədəniyyət Qərbi və Mərkəzi Avropada yayılmışdı. Bu mədəniyyət oturaq əhalinin mədəniyyəti idi ki, bunlarda da sinfi quldarlıq cəmiyyəti yaranırdı, sənətkarlıq və ticarət inkişaf edirdi, şəhərlər böyüyürdü. Dağlı gellər dizlərə qədər uzanan damalı yubka – kilt geyinirdilər. Hazırda bunlar şotland ənənəvi mədəniyyətinin simvolu olmuşdur.

Yuxarıda qeyd olunan 4 böyük dil qruplarından başqa Avropada aşağıdakı xalqlar da yaşayır:

***BALTİK XALQLARI:*** Bu qrupa latışlar və litvalılar daxildir. Bu xalqlar, əsasən, Latviya və Litvada yaşayırlar. Qədim məşğuliyyətləri əkinçilik və heyvandarlıq olmuşdur. Latışların və litvalıların milli və mədəni həyatları çox oxşardır. Ənənəvi mədəniyyətin bir çox cəhətləri kimi latışlarda və litvalılarda xalq kostyumları çox oxşardılar.

***YUNANLAR:*** Balkan yarımadasının cənubunda və Egey, Aralıq, İoniya dənizlərinin adalarında, habelə, Kipr adasında Hind-Avropa dillərində danışan yunanlar yaşayırlar. Yunanlar qədim yüksək antik svilizasiyanın yaradıcıları hesab olunurlar. Ənənəvi yunan yaşayış evi tipləri müxtəlifdir. Əksər evlər birmərtəbəlidir. Evlərin pəncərə və aynabəndi, adətən, şərqə doğru yönəlmişdir. Ənənəvi xristian bayramları Milad günü,

Yeni il, pasxa ilə yanaşı yunanlar bütün Avropa xalqlarına məlum olan "may bayramı", təbiətin yaz oyanışı ilə əlaqədar bayramlar da keçirirlər.

***ALBANLAR:*** Hind-Avropa dil ailəsinə daxil olan xalqlardan biri də albanlardır. Onlar özlərini "Şgiptor" adlandırırlar. Alban dili Hin-Avropa dil ailəsinə daxil olan, İlliriya və Frakiyalılara aid edilən yeganə dil olaraq qalmışdır. XII əsrdə müstəqil Alban dövləti olan Ayberlər dövləti yaranmışdı. Alban kəndlilərinin ənənəvi məşğuliyyəti köçmə qoyunçuluqdur. Əkinçilikdə taxılçılıq əsas yer tutur. Albanların kənd məskənləri 3 tiplidir: dağınıq, yığcam və müasir küçəvari poan quruluşlu evlər. Albaniyada əhalinin əksəriyyəti müsəlmandır. Albaniyada Milad günü (25 dekabr), "Yaz günü" (1 və 14 mart) və Müqəddəs Georgi günü (23 aprel) təntənəli surətdə keçirilir. Albaniyada Müqəddəs Georgi günü (23 aprel) həm xristianlar, həm də müsəlmanlar tərəfindən qeyd edilir.

***MALTALILAR:*** Maltalılar Avropada yeganə Semit dilli xalqdır. Onlar Aralıq dənizində Malta və Qotso adalarında məskunlaşmışlar. Əsas məşğuliyyətləri əkinçilikdir. Otlaqların azlığı heyvandarlığı məhdudlaşdırır. İqlim Maltada ildə 2-3 dəfə məhsul götürməyə imkan verir. Maltalıların mənəvi həyatında katolosizm çox böyük rol oynayır.

***FİN-UQOR XALQLARI:*** Avropa qitəsindəki xalqların bir hissəsi Fin-Uqor qrupuna daxildir. Bu xalqlar Avropaya Ural dağı ətrafından gəlmişlər. Avropanın Fin-Uqor qrupu xalqlarına finlər, saamlar, estonlar, mordvalar, udmurtlar, marilər, komilər, karellər, vepslər və macarlar daxildir. Finlər Finlandiyada, estonlar Estoniyada, macarlar isə Macarıstanda məskunlaşmışlar. Digər xalqlar: saamlar Finlandiya və Norveçin şimal vilayətlərində, mordva, udmurt, marilər, komilər, karellər və vepslər Rusiyanın şimal və Volqayanı rayonlarında məskunlaşmışlar. Macarlar katolikdirlər. Fin tayfalarının birləşməsi XIV əsrdə başa çatmışdır. Estonların ənənəvi mədəniyyəti digər Pribaltika xalqlarınınıı

mədəniyyətinə bənzəyir. Saamlar monqoloid irqinə mənsubdurlar. Dini əqidəyə görə Volqayanı ərazinin fin dilli xalqları pravoslav xristianlardır.

**AZƏRBAYCAN ETNOQRAFİYASI**

Azərbaycanlılar Qafqaz regionunda say etibarilə yerli xalqlar arasında birinci ümumilikdə is,ə ruslardan sonra ikinci yerdə dururlar. Azərbaycan Respublikası əhalisinin sayı 8,3 milyondur. Azərbaycanda 8 milyondan çox azərbaycanlı yaşayır. Bundan başqa azərbaycanlılar Gürcüstanda, Mərkəzi Asiya və Qazaxıstanda, Rusiyada, Türkiyədə böyük qruplar halında yaşayırlar. Dünyada hazırda 50 milyondan çox azərbaycanlı yaşayır. Azərbaycan çoxmillətli ölkədir. Burada azərbaycanlılarla yanaşı çoxlu miqdarda etnik qruplar: ləzgilər, avarlar, saxurlar, rutullar, udinlər, xınalıqlar, qrızlar, buduqlar, gürcülər, talışlar, tatlar, türklər, ruslar, ukrainlər, belaruslar və digər xalqlar yaşayırlar. Azərbaycanda subetnoslar etnoqrafik qruplar da yaşayır: ayrımlar, padarlar, şahsevənlər və s. bu cür subetnoslara aiddir. Bu subetnosların dili Azərbaycan dilidir. Etnik qruplar tatlar, talışlar, kürdlərin dilləri – Avropa dil ailəsinin İran budağına aiddir. Qafqaz dilli xalqlar isə ləzgilər, avarlar, saxurlar, udinlər, buduqlar, qrızlar, xınalıqlar, yengiloylardır ki, bunlar da başlıca olaraq Azərbaycanın şimal-şərq və şimal-qərb rayonlarında məskunlaşmışlar.

Azərbaycan dili türk dillərinin cənub-qərb qrupuna daxil olmaqla 4 dialekt toplusuna və bir çox şivələrə bölünür. 4 dialekt qrupu aşağıdakılardır:

1) Şərq qrupu: Quba, Bakı, Şamaxı dialektləri; Lənkəran və Muğan şivələri daxildir;

2) Qərb qrupu: Qazax, Gəncə, Qarabağ dialektləri; Ayrım şivəsi daxildir;

3) Şimal qrupu: Şəki dialekti; Zaqatala-Qax şivəsi;

4) Cənub qrupu: Təbriz, Naxçıvan, Ordubad dialektləri; İrəvan şivəsi.

***ƏKİNÇİLİK VƏ MALDARLIQ:*** Azərbaycanın təbii-coğrafi şəraiti ta qədimdən burada əkinçilik mədəniyyətinin inkişaf etdirilməsi üçün əlverişli imkan yaratmışdır. Arxeoloji materiallar təsdiq edir ki, burada dəmyə və süni suvarmaya əsaslanan dənli bitkilər əkinçiliyi ilə yanaşı bağçılıq, üzümçülük və digər əkinçilik sahələri inkişaf etdirilirdi. Əkinçilik sistemi iki üsulla aparılırdı: dəmyə və suvarma əkinçiliyi. Bir qayda olaraq su çıxarılması mümkün olmayan əlverişli sahələrdə dəmyə əkinçiliyi tətbiq olunurdu. Subasar ərazilərdə isə suvarma əkinçiliyi geniş yayılmışdı. Qədim vaxtlardan Azərbaycanda yazlıq və payızlıq əkin sistemi tətbiq edilirdi. Bu sistem taxil əkinlərinə daha çox tətbiq edilir. Payızlıq taxıla daha çox üstünlük verilir. Taxıl bitkilərindən, əsasən, sarı buğda, ağ buğda, qaraqılçıq, xırda buğda, qırmızı buğda, kərə buğda üstünlük təşkil edir.

Azərbaycanda müxtəlif çəltik növləri yetişdirilirdi. Ən geniş yayılan çəltik növləri ənbərbu, sədri, çiləyi, çampo, marağa, əkülə, şabran, şəril sarıqılçıq, qırmızıqılçıq və başqalarıdır. Çəltik bitkisinin müxtəlifliyi onun qədim tarixə malik olduğunu sübut edir. Azərbaycanın ayrı-ayrı zonalarında çəltik becərilən sahələr xır, zəmi, bicar və s. adlar altında tanınır. Toxum səpilmiş bu sahələr, demək olar ki, məhsulun yetişməsinə qədər suyun altında olur. Digər dənli bitkilərə nisbətən çəltiyin suya təlabatı daha böyükdür.

Qədim əkinçilik mədəniyyətinə malik olan Azərbaycan özünün bostan-dirrik məhsulları ilə də məşhurdur. Bakı, Ərəş və Göyçay qəzalarında XIX əsrdə bostançılıq daha çox inkişaf etmişdir. Muğan ərazisində daha çox qarpız yetişdirilməsi ilə məşhurdur. Lənkəranda 23 adda dadlı qovun yetişdirilirdi. Abşeronda məşhur Qala və Zirə qarpızları yetişdirilirdi.

Azərbaycanın ənənəvi təsərrüfat bitkilərindən biri də pambıq olmuşdur. Pambıqçılıq Azərbaycan kənd təsərrüfatının elə sahələrindən idi ki, burada sahibkarlar artıq muzdlu əməyin tətbiqinə üstünlük vermişlər. Muzdlu işçilər, əsasən, Cənubi

Azərbaycandan və Dağıstandan gələnlər, o cümlədən, Azərbaycanın öz daxili vilayətlərində yaşayan torpaqsız kəndlilər olmuşlar.

XIX-XX əsrlərdə tütünçülük də əsas sahələrdən biri olmuşdur. Azərbaycanda tütünçülüyün inkişafına təsir göstərən ən əsas amillərdən biri xaricdən gətirilən tütün üzərinə qoyulan gömrük xərcinin artması olmuşdur.

Abşeron kəndlərində ən qiymətli bitki növlərindən olan zəfəran yetişdirilməsi əsas sahələrdən biridir. Abşeronun kəndində bu bitkinin yetişdirilməsinə üstünlük verirlər.

Azərbaycan toxucularının boyaq maddələrinə olan ehtiyacını ödəmək məqsədilə Quba, Göyçay və Lənkəran ərazilərində qırmızı boya əkinçiliyi xeyli inkişaf etmişdi. Lakin XIX əsrin 70-ci illərində alizarinin kəşfi bu bitkiyə olan ehtiyacı azaltdığından qırmızı boyanın istehsalı sürətlə azaldı.

Azərbaycanda ipəkçilik də bir təsərrüfat sahəsi kimi qədim tarixə malikdir. Mingəçevirdə arxeoloji abidələrinin verdiyi məlumata görə, hələ e.ə. II-I əsrlərdə yerli sakinlər pambıq, kətan və yun parçalarla yanaşı ipək parçalardan da istifadə etmişlər. XIX əsrdə ipək istehsalına görə Nuxa qəzası birinci yeri tuturdu. İpəkçilikdə barama qurduna xidmətin təşkilinin böyük rolu və əhəmiyyəti olmuşdur.

Azərbaycanda mühüm təsərrüfat sahəsi kimi bağçılıq və üzümçülük də əsas yer tutur. Bu təsərrüfat sahəsinin tarixi Tunc dövründən başlayır. Tarixi mənbələrdə Azərbaycan meyvələrinin şöhrəti haqqında geniş məlumatlara rast gəlinir. Azərbaycan üzümünün şöhrəti Rusiya və Avropa ölkələrinə yayılmışdır. Azərbaycanda 4 cür tənək becərmə üsulu olmuşdur: 1) Tənəklə bilavasitə qumlu sahələrdə öz kökü üstündə bitib inkişaf edir (Abşeron); 2) Tənəklər ağacların gövdəsinə, budaqlarına sarınan vəziyyətdə inkişaf edir; 3) Lək üsulu – tənəklərin üstü qışda torpaqla örtülür (Naxçıvan); 4) Tənəklər bir-biri ilə əlaqələndirilən yerdə basdırılmış payalara qaldırılır (Gəncə-Qazax).

Əkinçiliklə yanaşı iqtisadiyyatın əsasını təşkil edən təsərrüfat sahələrindən biri də maldarlıq olmuşdur. Azərbaycanda ipəkçilik, arıçılıq, ovçuluq və balıqçılıq da mövcud olmuşdur. Oturaq maldarlıq, əsasən, düzən ərazilərdə – Kür, Gəncəbasar və Xəzər ovalıqlarında yayılmışdır. Maldarlığın köçmə otlaq forması da geniş yayılmışdır. Köçmə təsərrüfat sistemi üç təbii zonanın – düzən, dağlıq və dağətəyi ərazilərin yem ehtiyatından və iqlim şəraitindən səmərəli istifadə olunmasına əsaslanır. Azərbaycan maldarları bir qayda olaraq öz heyvanlarını noyabr ayının ortalarından mart ayının ortalarına qədər qışlaqlarda saxlayırlar. Bundan sonra yaylaqlara köç edilir. Köç və onunla əlaqədar olan digər xərclər maldar əhalinin illik büdcəsinin əhəmiyyətli hissəsini təşkil edir. Qoyunçuluq təsərrüfatı Azərbaycan maldarlığının ən gəlirli sahələrindən biridir. İkinci mühüm sahə iri buynuzlu mal-qaranın saxlanmasıdır. Maldarlıqla atçılıq da mühüm yer tutur.

Kənd təsərrüfatının mühüm sahələrindən biri arıçılıqdır. Bu sahə, əsasən, Gədəbəy, Xanlar, Quba, Qusar, Şəki, Zaqatala, Daşkəsən, Şamaxı və Astara rayonlarında inkişaf etmişdir.

Ev peşəsi və sənətkarlıqda əsas yeri gön-dəri istehsalı, dekorativ-tətbiqi sənət, xalçaçılıq, ağacişləmə, metalişləmə, daşişləmə, dulusçuluq, toxuculuq tutur.

***YAŞAYIŞ MƏSKƏNLƏRİ:*** Azərbaycanın kəndləri 4 tipdir: Yol kənarı; Çay kənarı; Düzən; Şəhər ətrafı kəndləri. Azərbaycan kəndləri öz quruluşuna görə də 4 qrupa bölünür: Koma-koma; Yığcam; Küçəvari; Pərakəndə formalı kəndlər. Bundan başqa yaşayış məskənlərinin kənd, şenlik, oba kimi tarixən qərarlaşmış ictimai-iqtisadi formaları da vardır.

Geneoloji baximdan yaşayış məskənləri monogen və poligen xarakterli idi. İri yaşayış məskənləri ayrı-ayrı məhəllələrə bölünərək, az-çox dərəcədə öz ənənəvi nəsli və patronimik xüsusiyyətlərini saxlayırdılar.

Əhalinin təsərrüfat ənənələri, mövcud inşaat materialı, iqtisadi güzəran və etnik xüsusiyyətlər yaşayış evlərinin forma və tip müxtəlifliyinə çox böyük təsir göstərən amillərdir.

Azərbaycan əhalisi qədim dövrlərdən bəri başlıca olaraq əkinçilik və maldarlıqla məşğul olduğundan belə həyat tərzinə uyğun olaraq daimi və mövsümi xarakterli yaşayış evləri inşa edirdilər.

***GEYİMLƏR:*** Azərbaycanda natural və yarımnatural fərdi kəndli təsərrüfatının uzun müddət ərzində davam etməsi müxtəlif səciyyəli geyim tiplərinin yaranmasına təsir göstərmişdir. Bir qayda olaraq qapalı təsərrüfat formasında istifadə üçün zəruri olan geyim materialları (gön-dəri, ipək, pambıq, yun) hər bir ailənin öz fərdi təsərrüfatında hazırlanırdı.

Milli qadın geyim kompleksinə üst və can köynəkləri, cüttuman, taybalaq, darbalaq, zıbını (gödəkcə), çəpgən, çərkəzi, ləbbadə, nimtənə, küləcə, katıbı, kürdü, çalma, arxalıq, çutqu, ləçək, örpək, kəlağayı, başmaq, çust, corab, kəmər və müxtəlif bəzək növləri daxildir. Ənlik, sürmə və vəsmə kimi kosmetik vasitələr, habelə, xına və rəng Azərbaycan qadınlarının məişətində az yer tutmamışdır.

Ənənəvi kişi geyimləri tuniki və doğrama biçimli can və üst köynəklərindən, şalvardan, arxalıq, çuxa və papaqdan, habelə, müxtəlif ayaqqabı növlərindən ibarətdir. Yapıncı və kürk geniş yayılmış geyim tipləri olmasa da, əhalinin müəyyən təbəqələri bundan geniş istifadə etmişdir. Toqqa və qurşaq geyim kompleksini tamamlayan başlıca mədəni amillərdir.

***MİLLİ YEMƏKLƏR:*** Azərbaycan xalq yeməkləri və içkilər maddi mədəniyyətin mühüm tərkib hissəsi kimi öz müsbət ənənələrini dövrdən-dövrə keçirərək dəyişikliyə məruz qalmış və daha da zənginləşmişdir. Ərzaq məhsulları iki tərkibə qruplaşdırılır: A) Bitki mənşəli məhsullar: 1) Çörək məhsulları; 2) Meyvə-tərəvəz məhsulları; B) Heyvan mənşəli məhsullar: 1) Ət xörəkləri; 2) Süd məhsulları. Oturaq həyat tərzi keçirən əhali, əsasən, əkinçilik bitkilərinə və tərəvəz

növlərinə, onlardan hazırlanmış ərzaq məhsullarına üstünlük verirdisə, maldarlıqla məşğul olan əhali isə ət və süd məhsullarına üstünlük verirdi.

Undan həm çörək, həm də müxtəlif xəmir xörəkləri hazırlayırlar. Bunlara misal olaraq xəngəl, xəşil, quymaq, umac, əriştə, həsi (qındı) və başqalarını göstərmək olar. Xəngəlin əsas növləri sulu və quru xəngəl növləridir. Gəncə-Qazax zonasında xəngəl xörəyi daha çox bişirilir. Burada "qurut xəngəli" adlı xörək quru xəngəl növünün adı kimi tanınmışdır.

Azərbaycan milli xörəklərinin xeyli hissəsi düyüdən hazırlanır. Düyüdən 50 növ plov hazırlayırlar. Azərbaycan mətbəxində quş əti və balıq məhsulları da əhəmiyyətli yer tutur.

Maldarlıq geniş yayılmış ərazilərdə süd məhsulları, qatıq, pendir, xama, qaymaq geniş istifadə olunur. Pendirlər müxtəlif növdə olur. Bakı, Zuvand, Gəncə, Qazax, Qarabağ, Talış, Quba-Qusar, Şirvan pendirləri bir-birindən fərqləndirilir. Ət xörəkləri, əsasən, payız və qış aylarında süfrədə əsas yeri tutur. Yerli qadınlar kəsilmiş heyvanın baş-ayağından kəllə-paça bozbaşı da hazırlayırlar. Bu xörək xalq təbabətində üstünlük verilən qida növlərindən biridir.

Azərbaycan yeməkləri iki qrupa ayrılır: mərasim yeməkləri və gündəlik yeməkləri. Mərasim yeməkləri bayram günlərində, toylarda, yasda və digər məişət işlərində hazırlanır. Gündəlik yeməklər isə səhər, günorta və axşam yeməklərindən ibarətdir.

Azərbaycan süfrəsinin ənənəvi içki növləri də vardır. Bunlar soyuq və isti içki növləridir. Soyuq içki növlərinə su, şərbət, ayran, atılama və çeşidli şirələr aiddir. İsti içki növlərinə daha çox çay aiddir.

***NƏQLİYYAT VASİTƏLƏRİ:*** Azərbaycanda başlıca olaraq quru və su yolları, dəmir yolları əsas əhəmiyyətlidir. Azərbaycanda xalq nəqliyyat vasitələri 4 qrupa ayrılır: Piyada;

Minik-yük; Təkərsiz; Təkərli nəqliyyat vasitələri. Su nəqliyyatının da müxtəlif növləri vardır.

***AİLƏ:*** Azərbaycanda sovet hakimiyyətinin qurulmasına qədər patriarxal ailə ukladının güclü qalıqları saxlanılır və bunlar bütünlüklə şəriət qanunları çərçivəsində nizama salınırdı. Başlıca ailə formaları monoqam və patriarxal ailə nikah formaları idi. Azərbaycanın ailə münasibətlərində iki forma – ekzoqamiya və endoqamiya geniş yayılmışdır. Endoqamiyanın kroskuzen, ortokuzen, sororat kimi nigah qaydalarına riayət olunur.

***ŞƏHƏR MƏDƏNİYYƏTİ:*** Azərbaycanda qədim dövrlərdən bəri şəhər mədəniyyəti formalaşmış və inkişaf etmişdir. Hal-hazırda Qafqazın ən böyük şəhəri olan Bakıda 2 milyondan çox əhali yaşayır. Azərbaycanda Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Şuşa və digər iri şəhərlər də mövcuddur. Bu şəhərlərdə, əsasən, sənayenin müxtəlif sahələri inkişaf etdirilir.

***MƏNƏVİ MƏDƏNİYYƏT:*** Mədəniyyət tarixi də insanların öz tarixi qədər qədimdir. Etnoqraflar, adətən, mədəniyyət anlayışını maddi və mənəvi mədəniyyət tiplərinə bölürlər. Maddi mədəniyyət elementlərinə yuxarıda qeyd etdiyimiz nəqliyyat və yükdaşıma vasitələri, yaşayış məskənləri, evlər və təsərrüfat tikintiləri, yeməklər və içkilər, geyimlər və bəzəklər, o cümlədən, əmək alətləri, qab-qacaqlar və s. daxildir. Mənəvi mədəniyyət anlayışına insanın zehni əməyi nəticəsində yaradılan bütün şeylər daxildir. Bunlar, əsasən, adət və ənənələr, elm, din, fəlsəfi görüşlər, xalq yaradıcılığı nümunələri, ədəbiyyat, incəsənət, müxtəlif inam və etiqadlardır.

Mənəvi mədəniyyətin xüsusi sahəsi kimi şifahi xalq yaradıcılığının qədim tarixi vardır. Xalqın keçmiş tarixini, məişətini, təsərrüfat sahələrini əks etdirən folklor materialları əsrlər boyu ağızdan-ağıza keçib dillər əzbəri olmuş və gələcək nəsillər üçün həmişə mühüm tərbiyəvi rol oynamışdır.

Xalq yaradıcılığı çox zəngin və geniş əhatəlidir. Əfsanələr, əsatirlər, lətifələr, xalq mərasim və adətləri, nağıllar, dastanlar, bayatılar, laylalar, oxşamalar, sayaçı sözləri, holavarlar, atalar sözləri, məsəllər, tapmacalar və s. bir tərəfdən xalqın ictimai həyat tərzini, onların sosial zülmə və yadellilərə qarşı mübarizə motivlərini əks etdirmiş, digər tərəfdən ailə-məişət məsələlərini, Vətənə, elə-obaya, əməyə dərin məhəbbət hissini əks etdirmişdir.

Qədim Azərbaycan nəğmələri xüsusi əhəmiyyətlidir. Bu nəğmələrdə əhalinin təsərrüfat və məişət həyatı xüsusi ilə öz əksini tapmışdır.

Xalq milli bayramlarda öz adət-ənənəsini daha yaxşı biruzə verir. Novruz bayramı ərəfəsində həyət-baca təmizlənir, ev silinib-süpürülür, hamı təzə və şux geyinib bayram əhval-ruhiyyəsində olur. İnama görə, həmin gün bütün küsülülər barışmalı, düşmənçilik aradan qaldırılmalıdır.

Xalq yaradıcılığında səhnələşdirilmiş oyunların, tamaşaların böyük rolu olmuşdur. Açıq havada keçirilən və böyük tərbiyəvi əhəmiyyət daşıyan bu oyunlara böyük tamaşaçı kütləsi baxır. “Kos-kosa”, “xan-xan”, “maral oyunu”, “kosa və gəlin”, “kilim arası” kimi xalq oyunları öz mənşə kökləri ilə qədim Şərq xalqlarının mədəniyyətləri ilə səsləşir. Vaxtilə Azərbaycanın Bakı, Şuşa, Şamaxı, Gəncə və Ordubad şəhərlərində geniş şöhrət qazanmış “zorxana” yarışlarını da xalq oyunlarına aid etmək olar. Burada pəhləvanlar xüsusi libaslar geyərək bir-birilə yarışır, qurşaq tutur, güləşir, daş qaldırır, öz güclərini sınayırdılar.

Azərbaycanın ayrı-ayrı bölgələrində bu günə qədər də bəzi yerlərdə qorunub saxlanılmış xalq oyunları qədim tariximizin bir hissəsi olmaqla insanların mənəvi aləminin formalaşmasında mühüm əhəmiyyətə malikdir. Odur ki, onların bütöv Azərbaycanın ayrı-ayrı bölgələri üzrə tədqiqi həm də mənəvi irsin qorunub saxlanılması baxımından qiymətlidir.

Azərbaycanda, əsasən də Gəncə-Qarabağ bölgəsində yayılmış qədim xalq oyunları içərisində canbaz (akrobat), şatır (qaçışla məşğul olan adam), ipatdı, sədağ (ox), qolça, kaman, dozu mərə, beş daş, duvaqtapma, mil oynatmaq, daş qaldırmaq və s. geniş yayılmışdır. Xüsusilə, Novruz bayramı günlərində Gəncə-Qarabağ bölgəsinin dağ kəndlərində cıdır, müxtəlif idman oyunları, güləş, nizə tullamaq, oxatma, tonqal üstündən hoppanmaq, papaq oyunu və s. yarışlar keçirilir.

Gəncə-Qarabağ bölgəsində çovkan oyunu da geniş yayılmışdır. Çovkan uzunluğu 1 – 1,25 metrə qədər olan, başı əyri çömçəvari əl ağacıdır. Bu oyun zamanı oyunçular iki qrupa ayrılıb əllərinə çomaq götürürlər. Çomaqların ucu qövs şəklində əyilmiş və nadir ipək torlarla hörülmüş olur. Meydanın ortasında top yuxarı atılır, oynayanlar qışqıra-qışqıra topun üstünə atılıb, onu ələ keçirməyə və rəqibin qapısı (çuxuru) tərəfə aparmağa çalışırlar. Bu oyun meydançada ya at üstündə, ya da piyada keçirilir. Meydançanın qarşı tərəfində bir-birindən müəyyən məsafədə aralı oyunçuların topu atması üçün iki çuxur qazılırdı. Top ağacdan, yaxud içərisinə at tükü doldurulmuş materialdan hazırlanırdı. Oyunda atla iştirak edənlər bütün oyun ərzində at üstündə olmalı idilər.

Adətən, yoxsullar, atı olmayanlar piyada oyun keçirirdilər. Gəncə-Qarabağ bölgəsində piyada oyun daha geniş yayılmışdır.

Gəncədə yaşayıb yaratmış Nizami Gəncəvinin "çovkan" oyununu öz əsərində təsvir etməsi bu oyunun Azərbaycanda geniş yayıldığını təsdiq edir. Bu haqda şair "Xosrov və Şirin" poemasında yazır:

Dişi aslan kimi yetmiş nəfər qız,
Şirinin yanına gəldi qayğısız.
… Çovkan oynamaqda çox çevikdilər
Göydən qapırdılar topu müxtəsər [30, s.121].

Nizami Gəncəvi "Şərəfnamə" əsərində çovkan oyununun hələ qədimlərdən təşəkkül tapdığını, Əhəmənilər dövründə isə daha geniş şöhrət tapdığını yazmışdır.

Çovkan oyunu haqqında Dədə Qorqud dastanında, Əvhədi Marağayi, Qətran Təbrizi, Xaqani Şirvani, Zülfüqar Şirvaninin, eləcə də səyyah Övliya Çələbinin, "Siyasətnamə" əsərinin müəllifi Xacə Nizamülmülkün, Nəsiminin, M.P.Vaqifin, M.V.Vidadinin və başqalarının əsərlərində geniş məlumatlar vardır.

Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanında da XII əsrdə Bağdadda "Top və çovkan" oyunu üzrə yarışlar təşkil edildiyi göstərilmişdir. Bu yarışda dünyanın bir çox ölkələrindən 200-dən artıq atçapan iştirak etdiyi göstərilmişdir. Ermitajda saxlanılan və üzərində "çovkan" oyunu təsvir edilən vaza bu oyunun Azərbaycanın Qərb bölgəsində geniş yayılmasından xəbər verir. A.Yakubovski "Musiqiçilər təsvir edilmiş vaza və Polo oyunu" adlı məqaləsində qeyd edir ki, bu gözəl abidənin Asiyanın hansı vilayətində yaradılmasını demək çətindir. Ancaq bu XII əsrə aid vaza olduğuna görə üzərində çomaqla "çovkan" oynayan 6 atlının və oyun zamanı topu götürən nökərin piyada fiqurunun təsviri Nizami Gəncəvinin təsvir etdiyi çovkan oyununa yaxın olması belə güman etməyə əsas verir ki, vaza Gəncə-Qarabağ bölgəsində hazırlanmışdır.

Gəncə-Qarabağ bölgəsində də geniş yayılmış çovkan oyunu sonradan Azərbaycandan Hindistana və İngiltərəyə keçmişdir. Elə Avropada da bu oyunu sevən ilk ölkə İngiltərə olmuşdur. XIX əsrin ortalarında ingilislər Hindistanda çovkan oynayan atlıları görmüşdülər. Oyun ingilisləri maraqlandırmış, onlar hindlilərdən oyun qaydalarını öyrənmişdilər. Sonralar ingilislərin özləri bu oyunla məşğul olmuş və onu "Polo" adlandırmışdılar. Hətta 1908-1920-ci illərdə keçirilən olimpiadalarda ingilislər, 1924-1936-cı illərdə keçirilən oyunlarda isə argentinalılar qalib gəldilər.

Azərbaycanda ən geniş yayılmış qədim oyunlardan biri də "Baharbənd" və "Papaq" oyunudur. Baharın əvvəllərində atçapanlar xüsusi çəmənliyə toplaşır və "Baharbənd" oyununa hazırlaşırdılar. Gəncə-Qarabağ bölgəsində bu oyun xüsusi təmtəraqla keçirilirdi. Şuşada Cıdır düzü adlanan yerin olması da buna sübutdur. Oyun zamanı atı çapa-çapa papağını, silahını, kəmərini, xəncərini, çuxasını, arxalığını, ayaqqabılarını ardıcıllıqla əynindən çıxarır. Atçapan nəzərdə tutulmuş yerdə atı geriyə sürür və sürəti azaltmadan yerə atılmış əşyaları yığıb dəyişir. Finişə hamıdan tez çatan qalib hesab olunur.

"Baharbənd" oyunu, əsasən, kələ-kötürlü yerlərdə keçirilirdi. Əyri-üyrü dar cığırlarla at çapmaq gəncdən yüksək məharər və cəsarət tələb edirdi. Gəncə-Qarabağ zonasında bu oyun daha geniş yayılmışdı.

"Papaq" oyunu maraqlı, zarafatla keçən oyunlardan biri idi. Bu oyunda öz papağını saxlayan və oyunun digər iştirakçılarının başından iki və daha çox papaq götürən atlı qalib hesab edilirdi. 8-12 atlı arasında bir qız olur. O, üzünə yaylıq örtür və toxunulmaz hesab edilir, lakin öz yoldaşlarının papağını götürmək hüququna malik olur. Papaqsız qalan məğlub atlılar atdan düşürlər.

Xalqımızın mənəvi mədəniyyətində xalq musiqi yaradıcılığının xüsusi yeri vardır. Ustad xanəndələr muğam musiqisi əsasında şöhrət qazanmışlar. Dahi Nizami hələ orta əsrlərdə mövcud olan muğam mədəniyyətinə öz münasibətini "Xəmsə"sində dəfələrlə bildirmiş və 8 qədim muğam növünün adını çəkmişdir. Nizami Gəncəvi ona bəlli olan yüzə qədər xalq mahnılarından 30-nun adını çəkmiş, 32 musiqi alətindən bəhs etmişdir. Azərbaycan xalq musiqi alətləri simli, nəfəsli və zərb alətləri olmaqla üç qrupa ayrılır. Ən geniş yayılmış simli alətlərdən qopuz, saz, tar, kamança və s. göstərmək olar. Azərbaycanda aşıq yaradıcılığı da özünəməxsus yer tutur.

Azərbaycan xalq rəqs sənəti də yüksək dərəcədə inkişaf etmişdir. “Ceyranı”, “İnnabı”, “Uzun dərə”, “Bənövşə”, “Lalə”, “Mirzeyi”, “Tərəkəmə”, “Vağzalı” kimi oyun havaları xalqın ruhunu oxşayır. Kollektiv rəqs növlərindən olan “Yallı” Azərbaycanda qədim rəqslərdən biridir. Yalnız kişilərin iştirak etdiyi “Cəngi” və “Zorxana” rəqsləri dözümlülük, cəsarət və çeviklik tələb edən rəqs növləridir.

# ETNOQRAFIK MƏKTƏBLƏRIN YARANMASI və INKIŞAFI

Etnoqrafiya dünya xalqlarının həyat və məişətindən bəhs edən elmdir. Etnoqrafiya antropologiya, arxeologiya, dilçilik, folklorşünaslıq, coğrafiya və digər elmlərlə əlaqəlidir. İlk etnoqrafik biliklər tarixin qədim və orta əsrlər dövründə əldə edilmişdir.

Etnoqrafik məktəblərin yaranmasında isə filosof, maarifçi və ensiklopediyaçıların baxışları mühüm rol oynamışdır. Utopik sosiolist J.Russonun «Bərabərsizliyin mənşəyi və əsasları haqqında mühakimə» (1755) və «İctimai saziş və ya siyasi hüquqların prinsipləri» (1762), ingilis iqtisadçısı A.Smitin «Xalqların təbiəti və sərvət toplamaq səbəbləri» (1776) adlı əsərlərində xüsusi mülkiyyət əsas götürülmüşdür.

S.Dejnyov və V.Atlasovun Uraldan şərqdə yaşayan aborigen xalqlar -koryaklar və itelmenlər haqqında məlumatları böyük əhəmiyyət kəsb edir.

Rusiyanın 1675-1677-ci illərdə Çində olmuş səfiri A.Spafarinin «Çin dövlətinin təsviri» və «Amurun təsviri», Q.Novitskinin «Ostyak xalqları haqqında qısa təsvir» (1715), rus səyyahı S.Kraşeninikovun 1737-1741-ci ildə yazdığı, «Kamçatka torpağının təsviri», M.Lomonosovun «Rusiyanın qədim tarixi» və «Şəcərənin qısa səlnaməsi» əsərlərinin də xüsusi yeri vardır.

M.Lomonosov, Lepjoxin, P.Pallas və S.Qmelinin ekspedisiyalarının materialları əsasında 1776-1788-ci illərdə «Rusiya dövlətində yaşayan xalqların təsviri» adlı olduqca maraqlı bir kitab nəşr olunmuşdur. Moskva Universitetinin professoru S.Denitski «Ailənin və xüsusi mülkiyyətin mənşəyi» (1775) əsərində ailəyə və xüsusi mülkiyyətə cəmiyyətin tarixi inkişafı ilə sıx əlaqəli, dəyişən və inkişaf edən bir hadisə kimi baxmışdır. XVIII əsr tarixşünaslığında

A.N.Radişevin rolu böyükdür. Onun fərdilik prinsiplərini izah edərək təklikdə yaşamağın ölümlə nəticələnəcəyini yəqin etməsi və kollektivçilik haqqında fikirləri də maraq doğurur.

XVII-XVIII əsrlərdə istər qərbdə, istərsə də Rusiyada ibtidai icma tarixinin öyrənilməsi sahəsində etnoqrafik və tarixi materialların toplanmasında mühüm nailiyyətlər qazanılmışdı. Bununla belə qeyd olunan dövrdə etnoqrafiya bir elm kimi hələ formalaşmamışdı. Bu elm müstəqil bir sahə kimi yalnız XIX əsrin ortalarında Qərbi Avropa və Amerika ölkələrində təşəkkül tapmağa başlamış, XIX əsrin 60-70-ci illərində isə müxtəlif ölkələrdə etnoqrafik təşkilat və cəmiyyətlər yaranmışdır. İngilis etnoqrafı Toms etnoqrafiyanı folklor adlandırmışdır (folk-xalq, lor-bilik deməkdir).

Etnoqrafiya elminin inkişafında 1607-ci ildə yazıçı İ.Zommerin Maqdeburq şəhərində nəşr etdirdiyi «Etnoqrafik məcmuə», 1791-ci il Nürenburq şəhərində dərc olunan «Etnoqrafik albom», 1820-ci il macar «Etnoqrafiya» albomu, 1826-cı il İtaliya coğrafiyaçısı Adriano Balbinin «Etnoqrafik atlas»ı, fransız fiziki Jan-Jak Amperin 1830-cu ildə təklif etdiyi antropoloji elmlərin təsnifatı və etnologiyanın yeri və 1839-cu ildə fəaliyyətə başlamış Paris «Etnologiya cəmiyyəti»nin böyük əhəmiyyəti olmuşdur.

1842-ci ildə Nyuyorkda «Amerika etnologiya cəmiyyəti» fəaliyyətə başlamışdır. 1843-cü ildə İngiltərə «Etnologiya cəmiyyəti», 1869-cu ildə Almaniya və 1871-ci ildə İtaliya «Antropologiya və etnologiya cəmiyyəti», 1845-ci ildə isə «Rus coğrafi cəmiyyəti» nəzdində «Etnoqrafiya» bölməsi fəaliyyətə başlamışdır. Bu sahədə akademik Berin və Nadejdinin fəaliyyəti diqqətəlayiqdir.

Rus etnoqrafiyası XIX əsrin ortalarında B.Boqoroz, V.İexelson, S.Şternberq, N.Mikluxo-Maklay və D.Anuçinin kompleks tədqiqat metodu əsaslandırılmışdır. Cənub-şərqi Asiya xalqlarının etnoqrafik baxımından öyrənilməsində N.Mikluxo-Maklayın rolu böyükdür. M.Kovalevski, Y.Petri,

S.Şternberq, F.Kol, N.Ziber və başqaları isə təmayülçülər idilər.

1851-ci ildə «Rus coğrafiya cəmiyyəti»nin Qafqaz şöbəsi yaradılmış və 1852-ci il Zapiski «KORQO», 1872-ci ildə isə Izvestiya «KORQO» jurnallarının nəşrinə başlanılmışdır.

Azərbaycanda isə etnoqrafik məlumatlar XIX əsrdən etibarən elmi şəkildə toplanılmağa başlanılmışdır. Lakin etnoqrafik biliklərin əldə edilməsinin başlanqıcı qədim və orta əsrlər dövrünə aiddir. H.A.Həvilov «Azərbaycan etnoqrafiyası» kitabında qeyd edir ki, hələ antik müəlliflərin-Strabon, Böyük Plini, Klavdi Elianın əsərlərində Azərbaycan ərazisində yaşayan tayfalar, onların təsərrüfat məşğuliyyəti. Maddi və mənəvi mədəniyyəti haqqında məlumatlara rast gəlinir. Orta əsrlər dövründə xalqımızın böyük mütəfəkkir oğulları tərəfindən yaradılan ədəbi-bədii əsərlərdə, qəhrəmanlıq və məhəbbət dastanlarında Azərbaycan xalqının etnoqrafiyasına dair müfəssəl məlumatlar vardır. Azərbaycanda olmuş bir çox Yaxın Şərq və Avropa ölkələri səyyahları, habelə rus müəllifləri yerli əhalinin həyat tərzi ilə yaxından tanış olaraq, onların təsərrüfatı, maddi və mənəvi mədəniyyəti, adət-ənənələri, ailə-nigah münasibətləri barədə maraqlı materiallar toplamışdılar.

L.M.Morqanın «Qədim cəmiyyət» (1877) əsərinin surətini də etnoqrafiya elmində yeri böyükdür.

Sosial-iqtisadi formasiyaların etnoqrafik tədqiqində K.Marks və F.Engelsin əsərlərinin xüsusi rolu vardır. F.Engelsin «Kapitalizməqədərki istehsal formaları» məqaləsi (1883) və K.Marksın «Kapital» (1867) əsərində «Ovçu xalqlar», «Vəhşilər» haqqında, həmçinin Hindistan, digər şərq xalqları ilə Dunay knyazlığının milli hərəkat problemləri əsas yer tutur. F.Engelsin 1878-ci ildə yazdığı «Anti Durinq» əsərində qədim insan birlikləri, habelə Hindistan, slavyan, kelt

və german xalqları, həmçinin dinin tarixi haqqında məlumatlar vardır.

«Alman ideologiyası» (1883) əsərində K.Marks və F.Engelsin maddi mədəniyyət, xüsusi mülkiyyət və onun qalıqları haqqında mülahizələri şərh olunur.

F.Engelsin «Ailənin xüsusi mülkiyyətin və dövlətin mənşəyi» (1884) adlı əsərinin etnoqrafiya elmində, 1896-cı ildə yazmış olduğu «Meymunun insana çevrilməsində əməyin rolu» adlı əsərinin isə antropogenez problemində yeri böyükdür.

K.Marks və F.Engelsin davamçıları Avqust Bebel, Pol Lafarq, Karl Kautski, Roza Lüksemburqun əsərlərində və baxışlarında da etnoqrafik istiqamətlər özünəməxsus yer tutur.

Cəmiyyətin iqtisadi və siyasi inkişafı XIX əsrin 80-90-cı illərində – Taylor, Lebbok, Mak-Lennan, Morqan, Spenser, Lippert və s. kimi görkəmli etnoqraf alimlərin yetişməsinə səbəb oldu.

Budapeşt muzeyi (1872), Stokholm (1874), Paris (Insan muzeyi 1877), Rotterdam (1883), Varşava (1888), Skansendə açıq səma altında ilk muzey (Stokralm, 1891), Sv. Martin muzeyi (Slovakiya, 1893), Sofiya (1893), Brüssel (1897), Krakov (1910), Arnhemdə açıq səma altında muzey (Niderland, 1972) və digər muzeylər yaradıldı. İngiltərədə «Folklor» (1890) və «Mən» (1901), Almaniyada «Etnoqrafiya» (1909), Avstiya-Macarıstanda «Antropos» (1906), Amerikada «Beynəlxalq Etnoqrafiya arxivi» (1888) «Amerika antropologiyası» (1899) və s. məcmuələr nəşr olunmağa başlandı, XIX əsrin 60-70-ci illərindən həmçinin çöl tədqiqat işlərinə start verildi. Amerika etnoqrafı Frans Boas 1897-1902-ci illərdə Şimal-Qərbi Amerika və Şimal-Şərqi Asiyaya səfər etdi. 1880-ci ildə Amazonkanın cənub hissəsində - Şinqa çayı sahillərində yaşayan bakairi tayfaları, habelə Mato, Qrosso vilayətində yaşayan borora hinduları öyrənildi.

Konrad Starkenin «İlkin ailə, onun təşəkkülü və inkişafı» (1888) əsəri, ingilis Eduard Vestermarkın (mənşəcə

fin) (1862-1939) «İnsani nikahın tarixi» (1891), Henri Kunun (1862-1936) «Avstraliya zəncilərinin qohumluq ittifaqları» (1894) və «Nikah və ailənin başlanğıcı (1912-1913)» adlı əsərlərini yazdı. Alman etnoqrafı Ernst Qrossun «Ailənin və təsərrüfatın formaları» (1896) mövzusunda kitabı çap olundu.

Alman etnoqrafı Henri Şursun «İnkişaf edən siniflər və kişi ittifaqları» əsərində insanların iqtisadi münasibətlərinin erkən formaları və yeni problem məsələləri əksini tapdı.

Eduard Han, Karl Blyuxer, Feliks Şomlo animist nəzəriyyəni tənqid edərək, pramoxoteizmi, Taylor isə «Dinin parçalanması» (1898) əsərində preanimizmi əsaslandırdı.

# ETNOLOGIYA ELMINDƏ YARANMIŞ ILK CƏRƏYANLAR

## 1. Təkamülçülük

İnsanın mənşəyi və inkişafı mövzusu ətrafında uzun illər ərzində mürtəce və mütərəqqi ideyalar arasında kəskin mübarizə getmişdir. Qədim dövrdə insanın Allah tərəfindən yaradılması haqda fikirlər hakim rol oynayırdı. Lakin insanın təkamül yolu ilə əmələ gəldiyini iddia edən fikirlərə də rast gəlinirdi. Antik müəlliflərin bu fikirləri inkişaf etdirilərək XVI əsrdə Vazeli, XVI-XVII əsrlərdə Harvey, Vaneski, sonrakı yüzilliklərdə A.Kaverznev, A.Radişev və N.Çernışevski, Qərbi Avropada B.Lamarkın əsərlərində elmi nəzəriyyə şəklində irəli sürüldü. Bir-birinin ardınca müxtəlif elm sahələrində təkamül ideyası təsdiqini tapdı və nəhayət, biologiyaya daxil oldu. Bitki və heyvanların təkamülü Lamark, Ber, daha sonra isə Uolles və Darvin tərəfindən qəti şəkildə sübut edildi. Qeyd etmək lazımdır ki, elmin başqa-başqa sahələrində olan bu kəşflər arasında yalnız xronoloji deyil, həm də daxili ideya əlaqəsi var idi.

XIX əsrin birinci yarısında elmin müxtəlif sahələrində qələbə çalan, onları köhnəlmiş dini baxışlardan azad edən təkamülçülük nəzəriyyəsi yeni yaranmaqda olan insan və onun mədəniyyəti haqqında elmə daxil olmaya bilməzdi. Odur ki, etnologiyada ilk klassik məktəb təkamülçülük hesab olunur. Təkamül nəzəriyyəsinin əsasını insan nəslinin və bundan yaranan mədəniyyətin inkişafının vahidliyi; bu inkişafın düz xətt üzrə sadədən mürəkkəbə doğru getməsi; ictimai quruluşun və mədəniyyətin yaranmasının psixoloji əsaslarının mövcudluğu; hadisələrin inkişaf qanunlarının fərdin psixoloji xüsusiyyətlərinin nəticəsi olması və s.-lə izah etmək olar. Göstərilən ideyalar təkamül məktəbinin hər bir nümayəndəsinin fikirlərində özünəməxsus şəkildə əksini tapırdı.

Alman təkamül məktəbinin nümayəndəsi Adolf Bastian (1826-1905) ixtisasca həkim idi. O, ömrünün üçdə birini səyahətlərdə keçirmiş və demək olar ki, dünyanın hər yerində olmuşdu. Səyahətləri zamanı çoxlu etnoqrafik materiallar toplamışdı ki, bu da onun yaratdığı və başçılıq etdiyi «Berlin Xalqşünaslıq muzeyi»nin təşkili üçün əsas olmuşdu. «Tarixdə insan» və «Adi təfəkkür» əsərlərində onun insanların eyni təfəkkür qabiliyyətinə malik olması və bəşər mədəniyyətinin vahidliyi haqqında fikirlər əsas yer tuturdu. O, həm də «Antropologiya, etnoqrafiya və tarixəqədərki dövr» cəmiyyətinin yaradılmasının fəal təşəbbüskarı olmuş və bu cəmiyyətin nəşr etdirdiyi etnoloji jurnalın redaktoru olmuşdu.

Bastianın «Adi təfəkkür» əsəri nə qədər qarışıq və mürəkkəb olsa da mütərəqqi idi. İnsan nəslinin və şüurunun vahidliyi, əqli tərəqqi, onun ətraf mühitdən asılılığı o dövr üçün əsas ideyalar idi. Bastian xarici aləmin təsiri üzərində dayansa da, bütün bəşər tarixini psixologiyaya, adi və xalq təfəkkürünün formalaşmasına qurban vermək onun ideyalist baxışlarından irəli gəlirdi. Onun materializmdən və idealizmdən yüksəkdə durmaq ideyası sadəlövhlük olub o, digər təkamülçülərə nisbətən daha çox idealist xarakter daşıyırdı.

Alman etnoloqu, təkamülçü, Marburq universitetinin fəlsəfə professoru Teodor Vays (1821-1864) irqçiliyə, irqlərin əqli baxımından, qeyri-bərabərliyi ideyasına qarşı çıxır, coğrafi mühitin insan mədəniyyətinə təsiri fikrini qəbul edirdi. Bəşəriyyətin vahidliyi ideyasını təsdiq edən Vays ayrı-ayrı xalqların inkişaf səviyyəsindəki fərqləri tamamilə doğru olaraq tarixi şəraitlə əlaqələndirirdi. O, antropologiyanın tarixin təbii əsasını, etnologiyanın isə xalqları və qəbilələri, onlar arasında qohumluq əlaqələrini öyrənən elm olmasını bildirirdi. Təkamülçülər arasında daha az tanınan, lakin daha ardıcıl materialist tədqiqatçı, əslən alman, lakin Avstraliyada yaşayan Yulius Lippert (1839-1909) çex tarixi, din tarixi və bəşər

mədəniyyətinin tarixi ilə məşğul olmuşdur. Y.Lippertin «Ruhlara pərəstiş və onun qədim yəhudi dini ilə əlaqəsi», «Xristianlıq, xalq etiqadları və adətlər», «Kahinliyin ümümi tarixi», «Ailə tarixi», «Mədəniyyət tarixi» əsərləri uzun illər etnoloqların diqqətini cəlb etmişdir. Y.Lippert dinin bütün inkişaf tarixini ruhlara və əcdadlara pərəstişlə əlaqələndirir, dini inamların yaranmasında təsəvvürlərə deyil, emosiyalara, qorxu hissinə üstünlük verirdi.

Lippert «Mədəniyyət tarixi» kitabında yazırdı ki, «mədəniyyət tarixi» bəşəriyyəti ən aşağı yoxsulluq vəziyyətindən çıxaran və onu bugünki yüksəkliyə qaldıran əməyin tarixidir. Onun fikrincə, insanın yaradıcılıq qabiliyyəti coğrafi mühitin təsiri altında formalaşır. Yerli həyat şəraitinin müxtəlifliyi insan qabiliyyətini bir növ sınağa çəkir. Digər təkamülçülər kimi Lippert də ailənin və nikahın ilkin, elementar formalar üzərində inkişaf etdiyini göstərirdi. O, ailənin ən qədim forması kimi, ana ailəsini göstərirdi. Bu ailələrdə nikah fərdi deyil, qrup formasında idi.

İlkin ictimai formaların öyrənilməsi məsələsində alman etnoloqu Henrix Şurts (1863-1903) tamamilə yeni fikirlərə söykənmişdi. Belə ki, əvvəllər etnoloqlar ilkin ictimai formalardan danışarkən ailə, nikah və qan qohumluğu münasibətindən bəhs edirdilər, Şurts isə qeyd edirdi ki, geridə qalmış xalqların həyatında tamamilə yeni tipli ictimai münasibətlər – kişilər ittifaqı mövcud olmuşdur. Bu, qan qohumluğu münasibətləri olmayıb, kişilərin ibtidai, daha geniş ictimai birliklərinin yaranması üçün başlanğıc idi.

Təkamül məktəbinin önündə ingilis təkmülçüləri gedirdi. Onların arasında ixtisasca hüquqşünas olan D.T.Mak-Lennan (1827-1881) 1865-ci ildə «Ibtidai nikah» adlı kitabını nəşr etdirmişdi. O, bu kitabda bəşər tarixinin bütün dövrlərində nikahın və ailənin formalarını tədqiq edir, geridə qalmış xalqlarda ailə-nikah adətlərini təkamülçülük ideyası zəminində izah etməyə çalışırdı. O, qızların qaçırılması yolu ilə

yaranan nikah formasına, eqzoqamiya, poliandriya, qohumluğun ana xətti ilə hesablanması kimi ilkin adətlərə materialistcəsinə yanaşırdı. O, hesab edirdi ki, nəsildə yeni doğulan qız uşaqları, əməyi az məhsuldar olduğuna görə öldürülürdülər. Bu səbəbdən də nəsil daxilində nikah əlaqəsinə girmək üçün qadın çatışmır və bir neçə kişi bir qadınla nikahda olmaq məcburiyyətində qalırdı. Bu poliandriya adlanırdı ki, Mak-Lenan onun iki tipini müəyyənləşdirmişdi: nairi tipinə görə ərlər bir-birinə qohum deyil, tibet tipinə görə isə ərlər hətta doğma qardaş idilər.

Poliandriya şəraitində nəsil ana xətti ilə hesablanırdı. Çünki, qadının bir neçə əri olduğundan, doğulmuş uşağın atasının kimliyinin müəyyən edilməsi çətinlik törədirdi. Digər tərəfdən, qəbilədə qadın çatışmadığından, yad qəbilələrdən zorakı yolla qadınları qaçırırdılar. Bu da nəticə etibarilə ona gətirib çıxarırdı ki, qəbilə daxilində evlənmək qadağan edilirdi. Belə bir qayda eqzoqamiya adlanırdı. Qeyd edək ki, eqzoqamiya və endoqamiya adətlərindən ilk dəfə məhz Mak-Lennan bəhs etmişdir.

Qəbilədə qadınların və kişilərin sayı bərabərləşdikdə endoqamiyaya keçid baş vermiş və qohumluğun qadın xətti ilə hesablanmasından kişi xətti ilə hesablanmasına keçilmişdir. Əsərdə matriarxat və patriarxat adətləri də əsaslandırılırdı. Xatırladaq ki, Mak-Lennanın bu fikirləri daha öncə İsveçrə alimi Baxovenantikin mifoloji ədəbiyyata əsaslanaraq yazdığı «Ana hüquq» əsərində əksini tapmışdır. Lakin onun əsərləri geniş yayılmadığından, Mak-Lennan özü bu kitabla 1866-cı ildə tanış olmuşdu. Müəllifin «Heyvan və bitkilərə pərəstiş haqqında» əsərində isə totemizm və ibtidai din tarixi şərh olunur.

İngilis təkamülçü klassiklərindən olan Herbert Spenser (1820-1903) sırf kabinet alimi, filosof, bioloq, psixoloq və sosioloq idi. Onun iri həcmili «Sintetik fəlsəfə sistemi» əsərinin bir hissəsini təşkil edən «Sosiologiyanın əsasları»

əsəri etnoloji materiallarla zəngindir. Spenser cəmiyyətin inkişafına üzvü aləmin inkişafından üstün olan amil kimi baxırdı. O, cansız təbiətin qeyri üzvü inkişafını, canlı təbiətin bitkilərin, heyvanların və insanların üzvü inkişafını vahid bir normada əlaqələndirirdi. O, qeyri-üzvü və üzvü inkişafda anologiya görür və cəmiyyəti heyvan orqanizminə bənzədirdi. Məsələn, Spenserə görə, rabitə yolları qan damarları, əmtəə dövriyyəsi maddələr mübadiləsi idi.

O, bildirirdi ki, cəmiyyət xarici və daxili amillərin təsiri altında inkişaf edir. Xarici amil deyəndə, coğrafi mühit və qonşu cəmiyyətlər, daxili amil deynədə isə insanın fiziki təbiəti, irqi fərlər və insanın psixoloji xüsusiyyətləri nəzərdə tutulurdu. O, geridə qalmış xalqların fiziki, mənəvi və əqli cəhətdən inkişaf etməmiş insanlardan ibarət olduğunu bildirirdi. Bu isə irqçi düşüncə tərzi və mürtəce ideya idi.

Arxeoloq və etnoloq Con Lebbok (1834-1913) 1865-ci ildə yazdığı «Tarixəqədərki dövr» və 1868-ci ildə yazdığı «Mədəniyyətin başlanğıcı» adlı əsərlərində öz təkamülçü fikirlərini ortaya qoymuşdur. O, bəşər tarixini yaratmaq üçün arxeologiya və etnoqrafiyanı əsas vasitə hesab edir, geoloji metodlardan faydalanmağı zəruri sayırdı.

O, «Mədəniyyətin başlanğıcı» əsərində insan cəmiyyətinin və mədəniyyətin inkişafı məsələsinə xüsusi diqqət yetirirdi. Ailə və nikahın tarixi inkişaf məsələsi onu daha çox maraqlandırırdı. C.Lebbok nikahın ilkin formasının kommunal (icma) nikah olduğunu göstərərək yazırdı ki, hər bir icmanın qadınları və kişiləri bir-biri ilə ər-arvad münasibətlərində olurdular. Sonralar bu kommunal nikah qızların qaçırılması yolu ilə fərdi nikaha keçdi və bu yolla eqzoqamiya əmələ gəldi. Lebbok dinin inamların inkişafı məsələsinə də toxunur və bildirirdi ki, bir çox xalqların hələ də dini yoxdur, ateizm mərhələsində yaşayırlar, müəyyən mərhələlərdə isə bütpərəstlik, totemizm, şamançılıq və

antropomorfizm (yəni Allahı insan şəklində təsəvvür etmək) mövcud olmuşdur.

Təkamülçü klassiklər arasında ən çox şöhrət qazanmış Eduard Taylor (1832-1917) varlı ailədən çıxmış, gəncliyində ticarət-sənaye fəaliyyətinə başlamaq istəyində olduğuna görə ali təhsil almamışdır. 1855-ci ildə Taylor səyahəti ilə əlaqədar Kubaya gedərkən mərkəzi Amerikadakı arxeoloji qazıntıları maliyyələşdirən metsenat-bankirlə tanış olmuş və həmin şəxs Taylorda başqa xalqların mədəniyyət və məişətinə maraq oyatmışdır. O, etnoloji ədəbiyyatı və Avropa muzeylərindəki materialları tədqiq edərək bilik dairəsini genişləndirmişdir.

E.Taylor 1865-ci ildə «Bəşəriyyətin qədim tarixinə dair tədqiqatlar» adlı kitab nəşr etdirmişdi. Burada qədim dövrdən başlayaraq müasir sivilizasiyaya qədər bəşər mədəniyyətinin mütərəqqi inkişaf xəttini əsaslandırmağa çalışmışdır. O, ayrı-ayrı xalqların məişət və mədəniyyətindəki fərqli cəhətləri həmin xalqların qeyri-bərabər inkişafı ilə əlaqələndirirdi. E.Taylorun 1871-ci ildə yazdığı «İbtidai mədəniyyət» əsəri isə az bir vaxt ərzində dünya şöhrəti qazanmışdı. Geniş etnoloji materiallarla zəngin olan bu kitabda bəşəriyyətin mənəvi mədəniyyətinin inkişafına, xüsusən də dini inamlara geniş yer verilmişdir. 1881-ci ildə E.Taylorun sonuncu iri həcmli kitabı «Antropologiya» nəşr olmuşdur. Burada müəllifin əvvəlki əsərlərinə yekun vurulmuş, texnikanın və maddi mədəniyyətin inkişafına geniş yer verilmişdir.

Bəşər mədəniyyətinin mütərəqqi inkişafını qəbul edən E.Taylor bu mütərəqqiliyi daimi təkmilləşmədə – bir mədəni amilin digərindən törəmədə görürdü. E.Taylor yazırdı ki, hər bir xalqın özünəməxsus əmək aləti, silahı, geyimi, xüsusi nikah, əmlak qanunları, mənəvi və dini təlimləri əhəmiyyətli bir fakt olsa da, biz bütün həyatımızı o mühitin içərisində keçirdiyimizdən onlara az diqqət yetiririk. Etnologiya elmi insan qrupunun məhz bu cür ümumi mədəni xüsusiyyətləri ilə məşğul olur.

Taylor mədəni amillərin qarşılıqlı tarixi əlaqələrini müəyyənləşdirməkdən ötrü digər bir elmi metoddan – köhnəliyin qalıqları metodundan istifadə edirdi. Survival qalıqlar termini elmi dövriyəyə məhz Taylor tərəfindən daxil edilib. Qalıqlar deyəndə adətlər, mərasimlər, ənənələr kimi amillər nəzərdə tutulurdu. Mədəniyyətin bir mərhələsindən digərinə keçiddə bunlar köhnəliyin xüsusiyyətlərini özündə qoruyub saxlayırdı.

Taylor mənəvi mədəniyyət məsələlərinə, xüsusən də ibtidai inamlara geniş yer verirdi. O, dinin mənşəyinə dair animizm nəzəriyyəsinin banisi kimi bu sahədə məşhurlaşmışdı. Taylorun fikrincə, vəhşi xalqların mərasimləri və dini etiqadları heç də müxtəlif anlaşılmazlıqların qarışığından ibarət olmayıb, mədəni ardıcıllığı ilə düzgün məntiqə əsaslanır. Bütün bunların əsaslarını ruhlara inam təşkil edir.

Taylor ruhlara inamı dinin minimumu adlandırırdı. Başqa sözlə ona «animizm» adı verirdi. O, animizmin köklərini ibtidai xalqların filosofluğunda görürdü. 250-dən çox əsərin müəllifi olan Taylorun tədqiqatları tarixdə vahid inkişaf xəttinin qəbul edilməsi sahəsində təkamülçülərin müsbət cəhətlərini qəbul edir və bəşəriyyətin inkişafında ovçuluğu, maldarlığı və əkinçiliyi bir-birindən fərqləndirirdi.

Fransada təkamülçülüyün nümayəndəsi Şarl Leturno (1831-1902) ixtisas etibarilə həkim-fizioloq, eyni zamanda məhsuldar yazıçı olmuşdur. «Etnoloji materiallar üzrə sosiologiya» kitabında öz dünyagörüşünü şərh etmişdir. Leturnaya görə, məhz etnologiya insan və onun mədəniyyətinin tarixini dərk etmək üçün mühüm rol oynaya bilər. Bu kitabın ardınca Leturno ictimai həyat və mədəniyyətin ayrı-ayrı sahələrinə dair «Mənəviyyatın təkamülü», «Nikah və ailənin təkamülü», «Mülkiyyətin təkamülü», «Siyasi təkamül», «Müxtəlif insan irqlərinin hüquqi təkamülü», «Dini təkamül», «Quldarlığın təkamülü» adlı təkamülçü kitablar nəşr etdirir. Bu

kitablar çox sadə dildə yazıldığından onları hamı oxuyurdu. Lakin, bu kitabların elmi səviyyəsi çox da yüksək deyildi. Onların ən böyük nöqsanı ayrı-ayrı sahələrdə təkamülçüləri bir-birindən təcrid edilmiş vəziyyətdə tədqiq etməsi idi. Həyatın digər tərəfləri və ümumi mədəniyyət ukladı unudulurdu. Bu kitablar ciddi bir sistemlə əlaqəli olmayıb, faktlar və xalqların həyatındakı müxtəlifliklər barədə müzakirələrdən ibarət idi.

Təkamül cərəyanının önündə gedən alimlərdən biri də Henri Luis Morqan (1818-1881) idi. İxtisasca vəkil olan Morqan bir neçə kapitalist kompaniyasının səhmdarı olmuşdur. O, ömrünün 40 ilini irokez və başqa hindu qəbilələrinin həyatının öyrənilməsinə sərf etmişdir.

1847-ci ildə «İrokezlər haqda məktublar» başlığı altında ardıcıl məqalələr nəşr etdirən Morqan bu məktublar əsasında 1851-ci ildə «İrokezlər ittifaqı» adlı kitabını nəşr etdirir. Daha sonra digər hündu qəbilələrin etnologiyası ilə tanış olan Morqan, müxtəlif qəbilələr arasındakı oxşarlığı nəzərə alaraq onlar arasında qohumluq əlaqələrini araşdırırdı. Sorğular vasitəsilə başqa ölkələrdə yaşayan xalqların qohumluq terminologiyası materiallarını hindu qohumluq anlayışı ilə müqayisə edən Morqan 1870-ci ildə «Qohumluq sistemi və insan ailəsinin xüsusiyyətləri» kitabını nəşr etdirdi. Morqanın 1877-ci ildə nəşr olunan «Qədim cəmiyyət» əsərində ibtidai icma cəmiyyətinin mühüm məsələləri: dövrləşmə, nəsli qəbilə təşkilatının inkişafı, ailənin və xüsusi mülkiyyətin inkişafı məsələləri geniş yer almışdı. 1881-ci ildə Morqan sonuncu iri həcmli əsərində «Amerika yerlilərinin evləri və həyat şəraiti» adlanan kitabında nəsli icma münasibətlərinin hindu qəbilələrinin yaşayış məskənlərində necə cərəyan etməsindən bəhs edirdi.

O, bu əsərlərdə göstərirdi ki, ilk baxışda çətin görünən irokez ictimai quruluşu – qəbilə, fratriya, tayfa, konfederasiya əslində ilkin qəbilə quruluşunun ardıcıl inkişaf forması idi.

Qəbilə demokratik olduğundan irokez konfederasiyasının bütün strukturları da demokratik idi. Onların müasir xalqların dövlət təşkilatlarından heç bir fərqi yoxdur.

«Qədim cəmiyyət» əsərində Morqan bəşər tarixinin və ailənin ardıcıl inkişaf mərhələlərini dəqiqləşdirirdi: 1) Ailənin ilk forması qan qohumluğuna əsaslanan ailədir. Belə ailələr nizamsız cinsi əlaqələrin mövcudluğundan yaranmışdır. Valideynlər və övladlar arasında nikah qadağan idi; 2) Punalual ailələr – bir neçə bacının ümumi kişilərlə, bir neçə qardaşın ümumi qadınlarla nikahı; 3) Qoşa və ya sindromik ailə (başqaları ilə nikah əlaqəsində olmaq istisna deyil); 4) Patrixal poliqam ailə; 5) Monoqam ailə (başqaları ilə nikah əlaqəsində olmaq istisnadır). L.Morqanın «Amerika yerlilərinin evləri və həyatı» kitabı da xüsusi yer tutur.

Rusiyada təkamülçülük Qərbi Avropa təkamülçülüyü ilə eyni vaxtda yaranmışdı. Lakin burada o, çox da böyük təsir gücünə malik deyildi və mifoloji cərəyandan sonra ikinci yerdə dururdu. Rusiyada təkamülçülüyün əsasını K.Kavelin qoymuşdur. O, Taylordan çox əvvəl köhnəliyin qalıqları nəzəriyyəsini yaratmışdı. Rus etnoloqları içərisində Qərb etnoloqlarının fikirlərinə şərik çıxanlar çox idi. Onlardan İ.N.Smirnov, S.Şaşkov, M.J.Kulişer, M.M.Kovalevski, N.F.Sumçov, M.V.Dovnar – Zapolski, E.Y.Petri, N.N.Mikluxo – Maklay, daha sonralar L.Y.Ştenberq, N.N.Xaruzin və başqalarının adlarını çəkə bilərik. Təkamül məktəbi D.N.Anuçin kimi böyük alimin baxışlarına da təsir etmişdi. Lakin, onun baxışları klassik təkamülçülüklə məhdudlaşmırdı.

### Təkamülçü etnoloqların nəticələrinin təftişi

XIX əsrin sonlarından etibarən elmi-etnoloji fikir iki istiqamətdə inkişafını davam etdirirdi: 1) Ailə-nikah və dinin mənşəyi və inkişafına dair əvvəlki nəzəriyyələrə yenidən baxmaq, onları təkzib etməyə təşəbbüs göstərmək; 2) Əvvəllər nəzərdən qaçırılmış problemin qoyuluşu.

1888-ci ildə orta məktəb müəllimi, danimarkalı Konrat Starke çox da böyük olmayan «Ibtidai ailə, onun mənşəyi və inkişafı» adlı kitab nəşr etdirdi. Starke inadla qeyd edirdi ki, ailə və nikah cinslərin qarşılıqlı bioloji hisslərinə görə deyil, təsərrüfat əlaqələrinə görə qurulurdu. Çünki qarşılıqlı bioloji yaxınlıq bir ailədə olmadıqda belə təmin oluna bilərdi. Kişi əlavə işçi qüvvəsi əldə etmək məqsədilə ailə qururdu. Ailənin digər bir motivi kişinin uşaq sahibi olmaq istəyindən irəli gəlirdi.

Eduard Vestermark mənşə etibarilə fin olsa da, İngiltərədə yaşamış, London universitetinin sosiologiya kafedrasının professoru olmuşdur. 1881-ci ildə yazdığı üç cildlik «İnsan nikahının tarixi» əsərinin müəllifidir. Onun əsas ideyası bundan ibarət idi ki, insan heyvanat aləmindən əmələ gəlib və onun həyatı bütövlükdə üzvü aləmin qanunlarına tabedir.

Vestermark kitabında insanların nikah həyatının hərtərəfli bioloji təhlilinə xüsusi diqqət yetirərək, kişilərin qadınlara qulluq göstərməsini, cinsi cəlbetmə üsullarını (bəzənmək, geyim, saç düzümü və s.) paltarların rolunu və s. qeyd edirdi. O, eqzoqamiya adətinə də bioloji cəhətdən şərh verirdi.

Məşhur tarixçi Henri Kunov «Avstraliya zəncilərinin nəsli təşkilatları» adlı əsərində yalnız Avstraliya qəbilələrinin timsalında qohumluğun, ailə və nikahın ilkin formalarını təsəvvüründə canlandırmağa çalışmışdır. Morqanın nəzəriyyəsindən çıxış edən Kunov bildirirdi ki, müxtəlif yaş qrupları arasında nikahın qadağan edilməsi eqzoqamiya adətinə gətirib çıxarmışdır. Eyni yaş qruplarından olan qadınlar az olduğundan və kişilərə başqa yaş qruplarından olan qadınlarla evlənməyə icazə verilmədiyindən, onlar istər-istəməz kənar qəbilələrdən özləri üçün arvad axtarmağa məcbur olurdular. Buradan da mübadilə yolu ilə müxtəlif dəstələr arasında nikah əlaqələri və nəhayət eqzoqamiya yaranırdı.

Alman etnoloqu Ernest Qrosse «Ailə və təsərrüfat formaları» kitabında yazırdı ki, müxtəlif ailə formalarına müxtəlif təsərrüfat formaları uyğun gəlir. Hər bir ailə formasının xüsusiyyətini içərisində böyüdüyü təsərrüfat formasının xüsusiyyəti ilə izah etmək olar.

Təsərrüfat sahələrinin etnoloji materiallar əsasında öyrənilməsi sahəsində ən əhəmiyyətli hadisə alman coğrafiyaşünas və zooloq alimi Eduard Xanın (1856-1928) tədqiqatları oldu. Onun çıxış nöqtəsi təsərrüfatın üçmərhələli inkişafı (ovçuluq, maldarlıq, əkinçilik) haqda fikirləri tənqid etməsi olmuşdu. Xan «Ev heyvanları və onların insan təsərrüfatında rolu» əsərində heyvanların təsərrüfatda istifadəsindən bəhs edilir.

İqdisadçı Karl Buxerin 1893-cü ildə nəşr etdirdiyi «Xalq təsərrüfatının yaranması» kitabı geniş səda doğurdu. Bu kitab etnoloji materiallarla zəngin olmasa da, verilən sxem zahirən mükəmməl və sadə idi. O qeyd edirdi ki, bəşər təsərrüfatı üç mərhələdən keçmişdir: qapalı ev təsərrüfatı, şəhər təsərrüfatı və xalq təsərrüfatı. Buxerin fikrincə, geridə qalmış xalqlar təsərrüfata qədərki mərhələdə dayanmış və onların heç bir təsərrüfatı olmamışdır. Birinci mərhələdə məhsullar istehlak, tələbat əhəmiyyəti daşıyırdısa, ikinci mərhələdə onarın mübadilə əhəmiyyəti çoxalmışdır.

Büxerin iqtisadi inkişaf sxemi etnologiya elminə heç nə vermədi. Əksinə «ibtidai həyat» haqqında tamamilə yanlış təsəvvürlərin möhkəmlənməsinə səbəb oldu. Ondan fərqli olaraq macar alimi Feliks Şomlonunun «Ibtidai icma cəmiyyətində maddi nemətlərə münasibət» adlı kitabı elmdə tanınmasa da, təsərrüfatın inkişafının ilkin formalarının öyrənilməsində irəliyə doğru atılmış bir addım idi. O, haqlı olaraq bildirdi ki, geridə qalmış xalqların məişətinin öyrənilməsinə öz məntiqi anlayışlarımızla yanaşmaq düzgün deyil: təsərrüfata, hüquqa, dinə bu cür yanaşsaq, onda

təsərrüfat anlayışından heç nə qalmaz. Çünki bu xalqlarda təsərrüfat elementləri dini elementlərlə və s.-lə qarışıb.

Şomlo avstraliyalıların və b. xalqların yaşayış formalarını obyektiv nəzərdən keçirərək belə qərara gəlir ki, onların hamısında müxtəlif mübadilə formaları və maddi nemətlərə müxtəlif yanaşma mövcud olmuşdur. Burada tayfalararası mübadilə, nemətlərə tayfadaxili münasibət, hədiyyə etmə adəti ilə bir-birinə qarışmaq, dini mərasimlər, qənimətin bölünməsi, qanuni nikah qayda-qanunu, vərəsəlik adətləri və s. nəzərdə tutulur. O, avstraliyalılarda mübadilənin və sənətin dövr etməsinin 17 növünü müəyyənləşdirmişdi.

**Promonoteizm:** Dinin müdafiəçisi olan alimlər animizm nəzəriyyəsinə qarşı mübarizədə asanlıqla yol tapa bilmirdilər. Lakin görkəmli ingilis etnoloqu və folklorçusu Endryu Lenqin «dinin yaradılması» tezisi onlara son ümid oldu. Lenq bir çox xalqların dini inamlarında səma allahının və yaradıcısının obrazına rast gəlindiyini göstərirdi. Lenq onu «ümumi ata» adlandırırdı. Bu xristian missionerləri tərəfindən gətirilməyib, ruha və ya ölmüş əcdada inam iddiasının təkamülü də deyildi. Lenq bildirirdi ki, ibtidai insan ilk dəfə ayrı-ayrı əşyaların kimlərinsə tərəfindən yaradıldığını dərk etməyə başlayanda bütövlükdə dünyanın da kimsə tərəfindən yaradıldığını, onun yaradıcısının, daha doğrusu allahın olmasını düşünə bilərdi. O, bildirdi ki, dində iki cərəyan mövcuddur: 1) dini cərəyan – ruhun çağırılması kimi sehrli adətlərdə, hətta aşağı səviyyəlilərdə mövcud olmuşdur; 2) mifoloji cərəyan – tamamilə magiyadır, yalan və qalmaqallı əfsanələrdən ibarətdir.

**Preanimizm nəzəriyyəsi**: Bu nəzəriyyəni iki qrupa ayırmaq olar. Birinci qrupa daxil olan nəzəriyyəçilər animizmin yaradıcısına xas olan dinin intellektual dərki çərçivəsində qalırdılar. Onlar hesab edirdilər ki, ruh haqda təsəvvürlərdən qabaq hansısa naməlum sirli cadugər qüvvəyə inam haqqında primitiv və qeyri-primitiv fikirlər mövcud

olmuşdur. Digərləri animizmin tənqidində daha da irəli gedərək emosional və iradi hərəkətlərin üstünlüyünü bildirirdilər.

Böyük ingilis etnoloqu və folklorçusu Ceyms Freyzerin (1854-1941) əsərlərinin əksəriyyəti din tarixinə həsr olunmuşdur. Freyzeri məhşurlaşdıran 12 cildlik «Qızıl budaq» kitabında insan ruhuna inam, onun müxtəlif formalara keçməsi, onların bitkilərdə təcəssümü, aqrar ayinlər, ağaclara sitayiş, tabu adətləri, magiya, saflaşma ayinləri, insanın qurban verilməsi, müqəddəs nikah və s. haqda danışılır.

Müəllif tərəfindən irəli sürülən tarixi və etnoloji fikirlər bir faktın - qədim İtaliyada Nemoy Dionisi məbədində kahin vəzifəsi ilə bağlı özünəməxsus vərəsəlik adətinin izahına yönəlmişdi. Belə ki, bu vəzifəni tutmaq istəyən qabaqcadan qorunan ağacın budağını qırmalı və öz sələfini öldürməli idi. Məhz bu qəribə adəti izah etmək istəyi Freyzeri 12 qalın clddən ibarət «Qızıl budaq» kitabını yazmağa vadar etmişdir. Freyzerin əsas ideyası bəşəriyyətin əqli inkişafının ardıcıl mərhələləri haqda ümumi nəzəriyyə idi. O üç ümumi tarixi mərhələni müəyyən etmişdi. Onlardan birincisi cadugərlik (magiya) mərhələsidir. Bu dövrdə insan heç bir ruh və ya allah haqda düşünmədən özünün cadugər qüvvəsinə, yəni yağışı yağdırmaq və kəsdirmək qabiliyyətinə, vəhşi heyvanları rəqslə aldatmaq, düşmənə kənardan zərər yetirmək, sevgi hissini beyinə yeritmək qabiliyyətinə malik olduğuna inanırdı. Din mərhələsi adlanan ikinci mərhələdə insan artıq öz xəyali qüdrətinə inanmır və bunları ruhun və allahın fövqəltəbii qüdrəti ilə izah edir və onlara dua ilə müraciət etməyə başlayır. Üçüncü elmi mərhələdə insan bu nəticəyə gəlir ki, nə o, nə də allah yerdəki varlıqların hərəkətini idarə etmir. Bunlar təbiətin qanunauyğunluqlarıdır.

Əlavə olaraq qeyd edə bilərik ki, bioloji cərəyan etnoqrafiya elmində mühüm cərəyanlardan biri olaraq, insanın bioloji varlıq olmağı faktını təsdiq edir.

XIX əsrin 60-70-ci illərində C.Darvinin təkamül təlimi etnoqrafiyanın formalaşmasına təkan verdi. Canlı aləmin inkişafındakı qanunauyğunluq və orqanizmlərin təbiətdən asılı olaraq dəyişməsi haqqında Didro, Holbax, Lamertinin də müəyyən xidmətləri olmuşdur. B.Lamark və Ç.Darvin tərəfindən əsası qoyulan təkamül nəzəriyyəsinə görə hər şeyin sadədən mürəkkəbə doğru dəyişməsi mütərəqqi tarixi inkişafın müəyyən qanunauyğunluqlarına əsaslanır. Odur ki, təkamül təlimi etnoqrafiya (Etnologiya) elminin ideoloji bazasına çevrilmiş, Ç.Darvinin təkamül təlimi əsasında etnoqrafiya təkamül məktəbi cərəyanı yaranmağa başlamışdır.

XIX əsrin 70-80-ci illərində təkamül məktəbi nümayəndələri - A.Bastian, Helbeldi (Almaniya), E.Baylor, C.Lebbok, Mak-Lennan, H.Spenser (İngiltərə), L.Morqan vahid inkişaf xəttini əsas götürürdülər. Təkamülçülərə görə hər bir xalq, hər bir tayfa ictimai inkişaf quruluşu ilə bəşər tarixinin bir mərhələsinin təşkilatçılarıdırlar.

XIX əsrin sonunadək «ictimai darvinizm» nümayəndələri Almaniyada F.Lankeni, O.Ammopu, Hekkel və İ.Voltmanı, İngiltərədə Haykraftı və B.Giddi; Zərapsada Vişede Lyanuyu, XX əsrdə isə Cenikson, Kallini və digərləri idilər.

XIX əsr «neodarvinizm» nəzəriyyəçiləri ictimai – darvinçilərin baş indeksinə əsaslanırdılar. Dolixot sefaidir-uzun başlıqları braxitsevalidir girdə başlılar, mezosefali – orta həcmli başlılar idilər.

Spenser Frobenius, Freyd, Malinovski bioloji cərəyan ideyasının müxtəlif meyllərini təsdiq edirdilər. Rasizm nəzəriyyəsi isə insan irqlərinin əqli və maraq dairəsinin inkişafının öyrənilməsi ilə məşğul idi. Rasizm ali və aşağı irqlər arasındakı fərqləri xalqların tarixi inkişafı, mədəniyyətlərindəki özünəməxsusluq və onların inkişafının səviyyəsi ilə əlaqədar olmasını əsas götürürdü.

XIX əsrdə rasistlərin istismarçı ideologiyası quldarlığın, sosial boyunduruğun tərəfdarı idi. Jozef Qobinonun «İnsan irqçiliyinin qeyri bərabərliyinin təcrübəsi» əsəri sosial Darvinizmi əsaslandırırdı. XIX əsrin 80-ci illərindən Almaniyada rasizmin başlanmasının əsası qoyuldu. Lakin, Lyudvin Voltman bildirdi ki, rasizm elmi cəhətdən əsassızdır. Lyapuj, Voltman isə «irq-dil, irq-mədəniyyət, irq-etnos»un tarixi əlaqələrini əsaslandırdılar.

**2. Diffizionizm** (Diffuziyaçılıq)

XIX əsrin sonu XX əsrin əvvəllərində etnologiya elmində geniş yaılmış istiqamətlərdən biri də diffusunizm idi. «Diffuziya» anlayışı fiziki anlayış olub (latınca diffusio - yayılma, qarışma, genişlənmə deməkdir), insan mədəniyyəti sahəsində xalqlar arasında əlaqələr vasitəsilə-ticarət, işğallar, insanların köçməsi ilə mədəni amillərin yayılması deməkdir. Buna baxmayaraq onu insan mədəniyyəti sahəsinə tətbiq edərkən mədəni amillərin xalqların bir-biri ilə əlaqəsi sayəsində yayılması mənasında başa düşürlər. Diffuzionizm isə diffuziyanın tarixi prosesinin əsas mahiyyəti olmasını qəbul edən elmi istiqamətdir. Diffuzionistlər bütün bəşər tarixini mədəni əlaqələr, toqquşmalar, mədəniyyətin götürülməsi və mənimsənilməsi ilə əlaqələndirirlər. Bilavasitə təkamülçülüyə qarşı yönəlmiş diffuzionizm tarixi tərəqqi və təkamül anlayışının özünü ləğv etməyə, onu mədəni diffuziya anlayışı ilə, daha doğrusu mədəni amillərin bir yerdən başqa yerə daşınması anlayışı ilə əvəz etməyə çalışır və mədəni duffuziyanı «evalyusiyaya» (təkmmülçülüyə) qarşı qoyulurdular.

Diffuziyonizmin ilk nümayəndələrindən biri Fridrix Ratsel (1844-1904) antropocoğrafiya təliminə əsaslanırdı. Əvvəlcə Münhen, 1886-cı ildən Leypsiq universitetlərinin coğrafiya üzrə professoru olan Ratsel «Antropocoğrafiya» (1882-1891), «Xalqşünaslıq» (1885-1888), «Torpaq və həyat» (1901-1902) və digər əsərlərində insanların yer üzərində

yayılma arealını göstərməklə mədəniyyətin inkişafının coğrafi şəraitdən asılı olması ideyasını əsaslandırmağa cəhd etmişdir. O, təbii mühitin etnosun daxili həyatına, onun mədəni səviyyəsinə, habelə xalqlar arasında əlaqələrin xüsusiyyətlərinə təsir göstərən bütün formalarını dərindən təhlil etmişdir.

Ratsel «Antropocoğrafiya» kitabında bildirirdi ki, xalqlar arasında müxtəlifliklər onlar arasında əlaqələr nəticəsində aradan qalxır, yəni tayfaların köçməsi, işğallar, irqlərin qarışması, mübadilə, ticarət, rabitə yollarının inkişafı və s. buraya daxildir. Onun ilk dəfə olaraq mədəni hadisələrin ölkələr və bölgələr üzrə konkret şərtlərə uyğun olaraq yayılmasına diqqət yetirməsi çox əhəmiyyətlidir.

Ratsel ilk dəfə olaraq mədəni hadisələrin xalqlar arasında qarşılıqlı əlaqələrin nəticəsi olması məsələsini qaldırdı və onu daha çox maddi mədəniyyət hadisələrinə münasibət maraqlandırırdı. Ratsel onları adi «etnoqrafik əşyalar» (etnoqraphische Gegenstande») adlandırırdı. Ratsel xalqlar arasında mədəni-tarixi əlaqələrin formalaşmasında irqi əlamətlərə və dilə, xüsusilə də maddi mədəniyyət hadisələrinə diqqət yetirirdi. Məlumdur ki, irqi tiplər bir-biri ilə qarışır və antropoloji əlamətlər getdikcə daha çox aradan qalxır. Dil irqə nisbətən bir qədər sabit olsa da zaman-zaman dəyişə, hətta itə bilər və başqa dillər tərəfindən sıxışdırıla bilər. Maddi mədəniyyət əşyaları isə öz formasını və yayılma arealını daha çox qoruyub saxlayır. Xalqlar dəyişir, məhv olur, yenidən yaranır, bu hadisələr bəzən ləng, bəzən sürətlə gedir, əşyalar isə necə var, elə də qalırlar. Buna görə də etnoqrafik əşyaların coğrafi yayılmasının öyrənilməsi xalqların tarixi üçün xüsusi əhəmiyyət daşıyır.

Almandilli ölkələrdə diffisionizmin üç bölməsi mövcud olmuşdur: Frobeniusun «Mədəni morfologiya»» məktəbi, Qrebnerin «Köln» məktəbi, V.Şmidtin «Vyana» məktəbi.

Leo Frobenius (1873-1928) arxeoloq, etnoloq, folklorşünas olmuş, diffuzionizm çərçivəsində «mədəniyyətin anotomiyası, morfologiyası, fiziologiyası» və «mədəni dairələr» nəzəriyyəsini yaratmışdır. Afrika mədəniyyətinin mahir bilicisi olan Frobenius Afrika, Avstraliya və Okeaniya xalqlarının mədəniyyətinin tədqiqi ilə əlaqədar 12 ekspedisiyada olmuşdur. Tədqiqatlarının nəticəsini «Afrika mədəniyyətinin mənşəyi» (1898) əsərində cəmləşdirən Frobenius mədəniyyətə canlı orqanizm kimi baxmış, dəyişməsinin ümumi həyat qanunlarına tabe olduğunu bildirmişdi.

Frobenius Afrikanı hər birinin özünəməxsus maddi mədəniyyət əlamətləri olan əyalətlərə (dairələrə) bölməyə çalışmışdır. Onun Qərbi Afrika mədəni dairəsi adlandırdığı vilayət Konqo çayı hövzəsini, Aşağı və Yuxarı Qvineya sahillərini əhatə edirdi. Bu mədəni dairənin bir çox əlamətləri həqiqətən də adı çəkilən ərazi üçün xarakterik idi. Məsələn, ikitərəfə maili dam örtüyü olan düzbucaqlı evlər, bitki mənşəli ipli kaman, hörmə qalxan, bitkidən hazırlanmış çoxsimli musiqi alətləri, qumsaatı formasında barabanlar, maskalar və s.

Frobenius habelə Yeni Qvineyanın və Melaneziyanın digər ərazilərinin mədəniyyətində «Qərbi Afrika mədəni dairəsi»nin oxşar əlamətlərini aşkara çıxarmışdı. Bu mədəniyyətin Cənub-Şərqi Asiya mədəniyyətinə oxşarlığını nəzərə alan tədqiqatçı onu «malay-niqrit mədəniyyəti» adlandırmışdır. Frobenius daha iki Asiya mədəniyyətini qeydə almışdır. Bunlar Şimali və Şimal-Şərqi Asiyaya güclü təsir edən, daha qədim olan «Hind mədəniyyəti» və nisbətən gec yaranmış, yalnız Şimali Afrikaya nüfuz etmiş «semit mədəniyyəti» dir. Frobeniusa görə, yadellilərdən mənimsənilən mədəniyyətlər bir kənara qoyulsa, Afrikanın hər yerində, xüsusən də onun cənub hissəsində özünəməxsus qədim mədəni təbəqə aşkara çıxarılmışdır. Frobenius bu qədim mədəniyyəti «niqrit mədəniyyəti» adlandırır, onu Avstraliya və Okeanının

qədim mədəni təbəqəsinə oxşadırdı. Afrikada «niqrit mədəniyyəti» (zənci mədəniyyəti) qalsa da, Frobeniusun fikrincə, o zəifləyib və daha gənc «malay-niqrit» və «asiya» mədəniyyətləri ilə qarışması nəticəsində tamamilə yeni «Afrika mədəniyyəti» yaranıb. Onun Afrika üçün spesifik xüsusiyyətləri isə bunlardır: afrikalılarda dəri qalxanları, bıçaq, nizə başlıqları, musiqi kamanları, silindrik konusvari daxmalar (Kegelhütte) və s. inkişaf etmişdir.

Frobenius fikrincə bir halda ki, mədəniyyət canlı orqanizmdir, bu halda onun kişi və qadın cinsi ilə bağlılığı olmalıdır. O, Afrikada «tellurik-efiopiya-patriarxal» mədəniyyətini və «xtonik-hamit-matriarxal» mədəniyyətini fərqləndirirdi. «Tellurik» və «xtonik» terminlərinin hər ikisi «yer» mənasını versə də «tellurik» mədəniyyət aşağıdan yuxarı, «xtonik» mədəniyyət isə yuxarıdan aşağıya doğru dərinləşən inkişafı ifadə edir. «Tellurik» mədəniyyət yuxarıya qalxmağa cəhddir və zahiri formalarda təzahür edir, məsələn, dirəklər üstündə qurulmuş yaşayış evləri, dirəklər üstündə qurulmuş anbar, ayaqlı çarpayı və s. «Xtonik» mədəniyyət isə əksinə yerə qapılmağa cəhddir, yəni qazma yaşayış evi, yeraltı taxıl anbarı, yer sobaları, yeraltı dünya haqqında təsəvvürlər və s.

Beləliklə, Cənubi Afrika mədəni təbəqəsinin Avstraliya və Okeaniya mədəniyyətinə oxşarlığı qədim mədəniyyətlərin qarışması nəticəsində almandilli ölkələrdə yaranan diffuzionizmin ən geniş yayılan cərəyanlarından biri Qrebnerin «Köln» məktəbi və yaxud «mədəni dairələr nəzəriyyəsi» olmuşdur. Afrika mədəniyyətinin yaranması, mədəniyyətin öyrənilməsində təbii metodun rolu, habelə mədəni amillərin kartoqrafiyalaşdırılması metodu Frobenius tərəfindən əsaslandırılmışdır. Frits Qrebner (1877-1934) XX əsrin əvvəllərindən etibarən ibtidai xalqların etnologiyası ilə məşğul olmağa başlamış, bu məqsədlə tarixi müqayisə metodundan istifadə etmiş və tarixi metoda üstünlük vermişdir.

Öz fikirlərini isə 1904-cü ildə Berlin antropologiya və etnologiya cəmiyyətinin yığıncağında oxuduğu məruzələrdə və 1914-cü ildə nəşr etdirdiyi «Etnologiyanın metodu» əsərində şərh etmişdir. F.Qrebner XX əsrin əvvəllərindən ibtidai xalqların etnoqrafiyası ilə məşğul olmuşdur. Avstraliya və Okeaniyanı ilkin tədqiqat obyekti kimi götürən Qrebner burada 6-dan 8-dək müstəqil «mədəni» dairənin mövcud olduğunu və bunların hər birinin bir neçə (5-dən 20-dək) mədəni elementdən ibarət olduğunu göstərmişdir. O, bir çox maddi mədəniyyət formalarını, ictimai həyatın və mənəvi mədəniyyətin bəzi amillərini bu elementlər sırasına aid edirdi. Qrebner bu mədəni dairələrə daxil olan hər bir mədəni amili xəritələşdirməyə (kartoqrafiyalaşdırmağa) çalışmışdır. Bu yolla bəzən mədəni dairələr üst-üstə düşür və mədəni təbəqələr yaradılırdı. O, mədəni dairələrin coğrafi vilayətlər daxilində yayılmasından, onların yaranması və yayılması yollarında zaman ardıcıllığı nəticəsinə gəlirdi. Məsələn, əgər bir mədəni dairə hansısa vilayətin mərkəzində yerləşirdisə deməli o, burda nisbətən gec yaranmışdır, yəni özündən əvvəlkini vilayətin kənarlarına doğru sıxışdırmışdır. Əgər nisbətən gec yaranmış mədəni dairə hansısa vilayətin kənarlarına gəlib çatırsa, bu o deməkdir ki, o, məhz bu hissədən vilayətə zolaq şəklində daxil olmuşdur. Qrebner bu metoddan istifadə edərək belə nəticəyə gəlmişdir ki, Avstraliya və Okeaniya hüdudlarında 8 mədəni dairə mövcuddur və onlar aşağıdakılardır:

1) Tasmaniya (ilk niqit) mədəniyyəti;
2) Bumeranq (yeni niqrit və ya qədim avstraliya) mədəniyyəti
3) Totem (qədim papuas) mədəniyyəti
4) İkisinifli mədəniyyət (şərqi papuas)
5) Melaneziya kaman mədəniyyəti
6) Protopolineziya mədəniyyəti
7) Yeni polineziya mədəniyyəti
8) İndoneziya mədəniyyəti

Qrbenerə görə bu mədəni dairələrdən Tasmaniyaya yalnız onun adı ilə adlanan birinci mədəniyyət keçmişdir. Avstraliyada birinci və ikinci mədəiyyətlər bir-birindən ayrılmazdırlar. Onların hər ikisinə Okeaniyanın bir çox rayonlarında da rast gəlinir. Avstraliyaya həmçinin totem və ikisinifli mədəiyyət növləri də keçmişdir. Lakin onlar burada bir-birinə qarışmayıb, müstəqil fəaliyyət göstərmişlər. Melaneziyada başlıca olaraq totem və ikisinifli mədəniyyət üstünlük qazanmışdır. Sonrakı mədəniyyətlər Avstraliyaya daxil olmamışlar. Qrebnerin bölgüsünə əsasən bu mədəniyyətlər həm əlaqəli, həm də müxtəlifdirlər. O, «Melaneziyanın kaman mədəniyyəti və onun qohumları» (1909), «Etnologiya üsulu» (1911) adlı əsərlərində «Forma və kəmiyyət» ölçüsünə xüsusi önəm verirdi.

Qrebnerin çoxsaylı ardıcılları vardı ki, onlardan afrikaşünas B.Ankeranı, Köln etnoqrafiya muzeyinin direktoru Villi Foyu, Leypsiq Universitetinin professoru F.Krauzeni, bir çox etnoloji əsərlərin müəllifi Yulius Lipsi və b. göstərmək olar.

Qrebner 1923-cü ildə yazdığı «Etnologiya», 1924-cü ildə yazdığı «İbidai xalqların dünyagörüşü» adlı əsərlərində öz nəzəriyyəsinin qeyri-ciddiliyini və əsassızlığını dərk etməyə başlamışdı. Artıq o, bilirdi ki, insanların şüuruna təsir edən heç də sxematik mədəni dairələr deyil, real mədəni tiplərdir və ibtidai ovçular, ata hüquqlu istismar münasibətlərə əsaslanan xalqlar, Afrika xalqları, yüksək mədəniyyətli xalqlardır.

Avstraliyada diffuzionizmin katolik kilsəsinin atası (pateri) Vilhelm Şmidtin (1868-1954) başçılıq etdiyi «Mədəni-tarixi məktəb» və ya «Vyana məktəbi» cərəyanı mövcud idi. Şmidtin nəzəriyyəsinin üç  başlıca mənbəyi var idi: 1) Qrebnerin «mədəni dairələr sxemi»; 2) Kollmanın «piqmey» nəzəriyyəsi; 3) Endriyu lenqin allah-ataya əzəli etiqad konsepsiyası.

Şmidtin məqsədi etnologiya elmini kilsə ehkamlarına yönəltməkdən ibarət idi. O, Endriyu Lenqin «Dinin yaradılması haqda» əsərini din haqda elmdə çevriliş hesab etmiş, bu kitablardan istifadə edərək, elmi faktların köməyi ilə «ilahi kəşflər» barədə kilsə ehkamlarının və «İncil» ənənələrinin doğruluğunu sübut etməyə çalışmış, bütün əməyini və biliyini «ibtidai monoteizm» nəzəriyyəsinin yaradılmasına sərf etmişdir. Şmidt əsas ideyalarını 12 cilddən ibarət «Allah ideyasının təşəkkülü», «Piqmeylər haqqında» (1910) və «Bəşəriyyətin ilk pilləsində mülkiyyət» əsərlərində insanların yarandığı dövrdən başlayaraq xüsusi mülkiyyətə sahib olmalarını əsaslandırır.O, Vyana məkstəbi nümayəndələrinin İtaliya və Avstraliya katolik dairələrinin baxışlarını əks etdirirdi. V.Şmidt və onun davamçıları V.Koppers, M.Quze-inde, P.Şebestian ibtidai icma dövründə xüsusi mülkiyyətin, patriarxal ailənin, monoteizmin olduğunu iddia edirdilər. Onlar dövrü mədəniyyəti 7 əsas mədəni dairənin «qarışması» məhsulu kimi səciyyələndirir, bu sahədə Afrika piqmeylərinə müraciət edirdilər.

V.Şmidt Papa XII Piy pater tərəfindən Vatikandakı Lateran etnoqrafiya muzeyinə direktor təyin edilmişdi.

Duffizionizm ABŞ-da o qədər də əhəmiyyətli istiqamət deyildi. Onun bu qitədə ilk rüşeymləri Frans Boasın təkamülçü baxışlarını tənqid edərək Qrebnerin ideyalarıyla razılaşması oldu. Belə ki, eyni mədəni amillər müxtəlif coğrafi regionlarda yarana bilməzdi. Hər bir yerli mədəniyyətin inkişafı üçün diffuziya mühüm əhəmiyyətə malik idi. Bu məktəbin nümayəndələrindən biri olan Klark Uisslər (1870-1947) «Amerika hinduları» əsərində şimali amerika hindularını və onların mədəni elementlərinin coğrafi yayılmasını təhlil edərək bu nəticəyə gəlmişdir ki, mədəniyyət ayrı-ayrı qrupların müvafiq ekoloji mühitə uyğunlaşmasının nəticəsidir.

O, Şimali Amerika hüdudlarını 15 mədəni dairəyə ayırmış, mədəni diffuziyanın ümumi qanunlarını

müəyyənləşdirmiş və qeyd etmişdir ki, antropoloji cizgilər yarandığı yerdən bütün istiqamətlərdə yayılma xüsusiyyətinə malikdir.

İngiltərə etnologiya elmində də diffuzionizm heç vaxt əhəmiyyətli rol oynamayıb, müvəqqəti xarakter daşımışdır. Burada diffuzionizmin ən məşhur nümayəndəsi Uilyam Rivers (1864-1922) olmuşdur. O, ixtisas etibarilə həkim – nevropatoloq olmuş, etnologiya ilə ilk dəfə Alfred Xeddonun başçılığı ilə 1898-ci ildə Torres boğazı adalarına təşkil edilmiş «Kembric, ekspedisiyası»nda iştirakı zamanı məşğul olmağa başlamışdır. Elmi fəaliyyətinə 1908-ci ildə Melaneziya adalarında yaşayan xalqların ailə-nikah münasibətlərini və qohumluq terminlərini öyrənməklə başlamışdır. 1914-cü ildə yazdığı ikicildlik «Melaneziya cəmiyyətinin tarixi» kitabında bildirirdi ki, melaneziyalılarda qohumluq və ictimai münasibətlərin inkişafına sadəcə təkamül kimi baxmaq, onu Melaneziya əhalisinin özünün təkamülü tarixini aydınlaşdırmadan başa düşmək olmaz. Eyni zamanda Rivers Qrebnerin metodundan da uzaqlaşmış və düzgün olaraq, onun mədəniyyətin yayılması haqda anlayışının bəsitliyini qeyd etmişdir. Rivers hesab edirdi ki, onun metodu köhnə təkamülçülüklə qrebnerçi diffuzionizm arasında orta modeldə durur. Rivers yazırdı ki, xalqların əlaqələri və onların mədəniyyətlərinin qovuşması elə hərəkətverici stimullar yaradır ki, bunlar bəşəriyyətin mütərəqqi inkişafına təkan verir. Rivers xalqların əlaqəsi və onların mədəniyyətlərinin qovuşmasını bəşəriyyətin mütərəqqi inkişafına təkan verən qüvvə kimi səciyyələndirirdi. Beləliklə, Rivers təkamülçülük ideyasının çatışmazlıqını qeyd edir və diffuzionizmi qiymətləndirirdi.

Riversin diffuzionist baxışları ingilis tarixi etnoloji ədəbiyyatı üçün xarakterik olan, o qədər də geniş yayılmayan cərəyanın «hiperdiffuzionizm» və ya «panegiptizm» cərəyanının əsasını qoydu. Bu nəzəriyyəni cəmi iki alim təmsil

edirdi: Eliot-Smit və Perri onların elmi baxışları və əsərlərinin istiqaməti bir-birinə yaxın olub və sivilizasiyanın vahid mərkəzdən-Misirdən bütün dünyaya yayıldığını iddia edirdilər.

Qrafton Eliot-Smit (1871-1937) öz baxışlarını «Qədim misirlilər», «Hökmdar mumiyaları», «İbtidai mədəniyyətin miqrasiyası», «Bəşər tarixi» kitablarında ifadə etmişdir.

Eliot-Smit Misirdən bütün dünyaya yayılmış bu ümumi dünyəvi sivilizasiyanı «heliolit» mədəniyyət («günəş daş» mədəniyyəti) adlandırır, bunu mədəniyyətə xas olan əlamətlərlə – günəşə sitayiş və meqalit abidələrin tikilməsi ilə əlaqələndirirdi. Eliot-Smit Misirdən bütün dünyaya yayılmış mədəni amilləri sadalayaraq göstərirdi ki, bunlar əsasən meqalit abidələr tikmək adəti, ölüləri mumiyalamaq, günəşə və ilana sitayiş, səcdəgahların hazırlanması, ilahi fironla günəşin övladlarına sitayiş, toxuculuq, kəllənin deformasiyası adəti, qulaqların dartılıb, uzadılması və deşilməsi adəti, simvolik təsvirlər və s.-dən ibarət idi.

Uilyam Ceyms Perri, İndoneziyada «meqalit mədəniyyəti» və «Günəşin övladları» əsərlərində «panegiptizm» nəzəriyyəsini fantastik səviyyəyə çatdırdı. O, bildirirdi ki, bəşər mədəniyyəti tarixi iki mərhələyə ayrılır: 1) ibtidai, primitiv qida yığıcılığı mədəniyyəti qədimdən hər yerə yayılmış, indiyədək bir çox geridə qalmış xalqlarda saxlanılır; 2) əkinçiliyə, daş tikintisinə, metal-işləməyə əsaslanan yüksək mədəniyyət. Perri ikinci mədəniyyəti «arxaik» adlandırır və elementlərini sadalayırdı: suvarma əkinçiliyi, daş piramidalar, sərdabələr, qayalarda qəbirlər, daş təsvirlər, dulusçuluq, metal-lurgiya, mirvari əldə edilməsi, daşın cilalanması, hakim sinifdə iki yerə bölünmə («günəşin övladları» və «yeraltı dünya» ilə bağlı olan hərbi rəhbərlər), ölülərin mumyalanması, böyük ilahə anaya sitayiş, insanın qurban verilməsi (əkinçilik və ilahə-anaya sitayişlə bağlı), ana hüquqi totemik dual təşkilatlar, eqzoqamiya və s.

Diffuzionizm istiqamətinə bəzən arktik mədəniyyəti tədqiq edən danimarkalı etnoloq, arxeoloq və antropoloqları da aid edirlər. Onlar Qudmund Hatt, Knut Rassmussen, Kay Birket-Smit, Terkel Matiassen, Fredrix de Laquna və başqalarıdır. Bu tədqiqatçıların ən məşhuru Arktikaya «Tula ekspesiyası»nın fəal iştirakçısı Birket-Şmit olmuşdur. O, mədəniyyətin ümumi inkişaf gedişi ilə əlaqədar olaraq mədəni diffuziya anlayışının və eyni qaydada mədəniyyətin təkamülünün vacibliyini qəbul edirdi. O, Ratselin yolunu gedərək, Qrebnerə tamamilə zidd olaraq qeyd etmişdir ki, mədəniyyətin ayrı-ayrı elementləri müxtəlif cür yayılmış və nəticədə onların yeni birləşmələri əmələ gəlmişdir. Qeyd edək ki, Danimarka etnoloji məktəbinin diffuzionist istiqamətə aid edilməsi yalnız şərti mümkündür. Diffuzionist istiqamətdə məşhur norveçli antropoloq alim Tur Heyerdalın xidmətlərini xüsusilə qeyd etmək lazımdır. O, XX əsrin 50-ci illərindən etibarən XXI əsrin əvvəllərinədək öz əsərlərində diffuzionist istiqaməti inkişaf etdirmişdir.

Diffuzionizmin etnologiya elmindəki payını qiymətləndirərkən bu istiqmətin əsas qüsurlarını da göstərmək lazımdır. Bunlar əsasən aşağıdakılardır: mədəni amillərin onun yaradıcısı olan insan və xalqdan ayrı tutulması, insanın yaradıcı qüvvəsini nəzərə almaq, buradan da ortaya çıxan mədəniyyətin cansız əşyaların yığımından ibarət, yalnız zaman daxilində hərəkət edə bilməsi kimi sırf mexaniki təsəvvürlər (Qrebner), mədəniyyətin insandan asılı olmayan canlı və müstəqil orqanizmin olması fikri (Frobenius), bütün mədəniyyətlərin bir mərkəzdə bir dəfə yaranması, bütün dünyaya da buradan yayılması fikri (Eliot Smit).

Amma diffuzionizmin çıxış nöqtəsi düzgün idi. Və cərəyanın nümayəndələri xalqlar arasında konkret mədəni əlaqələr haqda məsələ qaldırdılar.

### 3. Fransız sosioloji məktəbi

Təxminən XIX əsrin sonlarında Qərbi Avropa etnologiyasında diffuzionizmdən daha məhsuldar olan «sosioloji» cərəyan meydana çıxdı. Əgər klassik təkamülçülər etnologiyanın əsas predmeti kimi insanı, diffuzionistlər isə mədəniyyəti görürdülərsə, sosioloji cərəyanın nümayəndələri diqqət mərkəzini insan cəmiyyətinə yönəldirdilər. Diffuzionizm əsasən almandilli ölkələrdə, sosioloji cərəyan isə Fransada geniş yayılmışdı. Bu cərəyanın ən böyük nümayəndəsi filosof, pedaqoq, sosioloq Emil Dürkqeym (1858-1917) olmuşdur. Sırf kabinet alimi və pedaqoq olan Dyürkqeym 1882-ci ildən ayrı-ayrı əyalət adamlarına, 1886-cı ildən Bordo, 1902-ci ildən Sarbonna universitetlərində fəlsəfə, pedaqoqika, sosiologiya dərslərini demiş, özündən əvvəlki pozitvist sosioloqların – Oqüst Kont, Mill Spenser, Tard və digərlərinin ideya təsiri altında olmuş, özünün xüsusi yolunu yaratmışdır. Nəzəri baxışlarını «Ictimai əməyin bölgüsü haqda», «Sosioloji metodun qanunları», «İntihar» adlı əsərlərində təqdim etmişdir.

O, cəmiyyətə ayrı-ayrı fərdlərin birləşməsindən ibarət kütlə kimi deyil, xüsusi reallıq kimi baxır və yazırdı ki, cəmiyyət sadəcə fərdlər toplusu deyil, onların assosiasiyalarından ibarət sistemdir. Bu səbəbdən o, ən vacib iş kimi sosial faktların yəni, ictimai amillərin öyrənilməsi metodunun yaradılmasını əsas hesab edirdi. «Sosioloji metod»un əsas vəzifəsi kimi elmi və pozitiv metodu, sosial faktlar kimi təfəkkür və hissiyyatı, xarici aləmdə digər şəxsə yanaşmanı əsas götürürdü. Emil Dyukqeym 1890-cı ildə etnoqrafiya elminin bütün sahələrində «Sosioloji metod məfhumunun işlənməsini əsaslandırırdı. Elmi metod, pozitiv metod, sosial faktlar: təfəkkür və hissiyyat, xarici aləmdə digər şəxsə yanaşma məsələlərini E.Dyukqeym əsaslandırırdı.

Sosial biliklərin öyrənilmə metodunda cəmiyyəti, sosial tipi, sosial elmi görünüşü, «ictimai təsəvvür», «ictimai şüur» anlayışını, inamlar və hissiyyatı, «Özünə qəsdin sosioloji

metodları» kitabında əsaslandırır, eyni zamanda intihar edənin ailə şəraitini, milliyyətini, inamını, məşğuliyyətini, təhsil səviyyəsini, yaşadığı ictimai-sosial quruluşunu, iqtisadi vəziyyətini, mövcud həyatın hər anını öyrənir, müəyyənləşdirirdi.

Fransız sosioloqunun sonuncu böyük əsəri sırf etnoqrafik mövzuya həsr edilmiş «Avstraliyada totemik sistem dini həyatın elementar forması» kitabıdır. Kitab dinin yaranmasına və mahiyyətinə həsr olunmuş və mövcud baxışların əleyhinə çıxırdı. O, Dinin mahiyyəti və yaranmasını, dinin əsas əlamətlərini, «Müqəddəs həyat», «Ümumi həyat» kimi dini inamların yaranmasını, təbiətin canlanma əlamətlərini. İnsan qəlbini, özünəməxsus şərh edərək göstərir ki, bəziləri dini ideyaların yaranmasını «insan ruhu» ideyası ilə əlaqələndiridilər. Guya insan yuxunu, xəstəliyi, ölümü müşahidə edərək bu fikirlərə gəlmişdir (animizmin nəzəriyyəsi). Digərləri insanlarda anlaşılmazlıq yaradan təbiət hadisələrinin təzahüründən yarandığını iddia edirlər (naturalizm nəzəriyyəsi). Dryükqeym hər iki nəzəriyyənin inandırıcı olmamasını həm məntiqi, həm də faktlarla göstərirdi. Dini inamların yaranmasında nə insanın daxili təbiəti, nə də onun öz təbiəti rol oynamayıbsa, bəs onlar haradan yaranıb?

Dryükqeym bu suala cavab vermək üçün ən qədim dini inam formaları kimi avstraliyalıların totemik inamlarını göstərir. Çünki, avstraliyalılar ictimai quruluşun ən elementar formalarını qoruyub saxlayırlar. Onların təşkilatları tayfa bazasında qurulmuş ən primitiv və ən sadə təşkilatlardır. İbtidai təsəvvürlərin qalıqları, heyvanlar və bitkilər aləmi aborigenlərin inamlarının, adət ənənələrinin özünəməxsus xüsusiyyətləri, təsəvvür və nəzəriyyə anlayışlarının yaranması da əsas şərtlərdəndir.

Ardınca o, belə nəticəyə gəlir ki, hər cür dini sitayiş predmeti, yəni geniş mənada desək «Allah» yalnız insan üzərində hakim olan ictimai gücün təcəssümüdür. Hər bir fərd öz üzərində necə yaranmasını dərk edə bilmədiyi ictimai

gücün təzyiqini və ya məcburi fəaliyyətini hiss edir. Buradan da insanlardan kənarda, onun asılı olduğu bir və ya bir neçə mənəvi, eyni zamanda həqiqi qüvvənin olması haqda ideya formalaşır.

Beləliklə, Dryükqeymin fikrincə, dini təsəvvürlərin yaranmasının həqiqi və yeganə mənbəyi cəmiyyət, ictimai mühitdir. Allah insanın necə yaranmasını dərk etməyərək tabe olduğu sosial qüvvənin təcəssümüdür. O, bu ümumi nəticələrdən çıxış edərək çalışırdı ki, Avstraliya aborigenlərinin, müqayisəli şəkildə isə digər xalqların müxtəlif dini inamlarını, mərasimlərini, adətlərini izah etsin.

Dryükqeym sosial qüvvənin fəaliyyətinin nəticəsi kimi yalnız dini deyil, eyni zamanda insan zəkasının, məntiqi anlayışların yaranmasını, təbiət amillərinin təsnifatını və s. izah edirdi. Onun fikrincə elementar məntiqi kateqoriyalar – məkan, zaman, əlamətlər, oxşarlığın məntiqi qanunları, ziddiyyət və s. anlayışlar yalnız cəmiyyətlərdə yarana bilər. Onlar insanın fərdi təcrübü səriştəsinin məhsulu deyildi. Ümumiyyətlə, fərdin bunlara ehtiyacı belə olmur. Məsələn, ovçuya ovun yerini, ova getmək və qayıtmaq vaxtını bilmək yetərlidir. Zaman və məkan kimi ümumi anlayışlar ona gərək deyil. Bütün bunlar cəmiyyətdə ictimai işləri nizamlamaq üçün yaranmışdır.

Təbiət amillərinə tətbiq edilən istənilən təsnifatlaşdırma, sistemləşdirmə məhz cəmiyyətdə yaranıb. Bu mühüm məsələyə Dryükqeym öz tələbəsi Marsell Mossla birgə yazdığı «Təsnifatın bəzi ibtidai formaları haqda» adlı məqalədə toxunurdu. Burada bildirilirdi ki, tənha insan heç vaxt əşyaların qrupları, növləri haqda təsəvvür edə bilməz. Gözümüzün qarşısında insan cəmiyyəti olmasaydı çox güman ki, ətrafda olan bütün varlıqları qruplara, cinslərə ayırmağı düşünməzdik.

Amma onun elmi baxışlarındakı böyük qüsurları unutmaq olmaz. Əvvəla bu, Dryükqeymin baxışlarındakı

idealizmlə bağlıdır. O, cəmiyyəti mənəvi kollektiv, qarşılıqlı psixi təsir sistemi kimi görürdü. Cəmiyyətin maddi həyatını, iqtisadi inkişafını, istehsal münasibətlərini, sinfi münasibətlərini, sinfi mübarizəsini görmürdü, bəzi ictimai amilləri idealist məqamdan izah edirdi.

O, eqzoqamiyanı sırf dini-maqik tərəfdən izah etməyə çalışaraq qeyd edirdi ki, eqzoqamiya totemik müqəddəsliklə, yəni, müvafiq totemə aid olan qadının tabulaşdırılması ilə (qadağan edilməsi) əlaqədardır. Onun mülkiyyət kateqoriyalarına verdiyi şərh daha uğursuz alınıb. Belə ki, o xüsusi mülkiyyətin insan iradəsinin yaranması ilə əlaqədar olması haqda Kant nəzəriyyəsini dəstəkləyir, siniflər və mülkiyyətin sinfi formaları haqda unudurdu.

Dryükqeymin ikinci böyük minusu dinin bəşər tarixində xüsusilə də onun ibtidai formalarında rolunun şişirdilməsidir. O, dəfələrlə bildirmişdir ki, ictimai əxlaqın, məntiqi düşüncənin, elmin, hətta texnikanın mənbəyi din olmuşdur. Demək olar ki, bütün böyük sosial təsisatlar dindən yaranmışdır.

Dryükqeymin ən böyük davamçılarından biri onun qohumu və özü kimi kabinet alimi Marsel Moss (1872-1950) əvvəlcə onun yolunu davam etdirsə də, sonradan elmdə öz yolunu müəyyənləşdirməyə çalışmışdır. O, sosial metodu genişləndirərək öz maraq dairəsinə müxtəlif mövzuda məsələləri daxil etmişdir. Onun ilkin əsərləri mənəvi mədəniyyətə aid edilmişdir. O, Anri Yuberlə birgə qurban kəsmə adəti, sonra isə magiya haqqında əsər yazmışdır. Sonuncu əsər xüsusilə maraqlıdır. O, burada Dryükqeymin magiya və onun dinlə münasibəti fikirlərinə iradını bildirir və göstərirdi ki, magiya dinə ziddir, çünki, din olduqca sosial amildir, magiya isə fərdidir, bir növ antisosialdır. Lakin, Dryükqeym insan həyatının istənilən amilinin ictimai kökünün olmasını bildirirdi. Deməli, magiyanın da sosial kökləri olmalıdır. Nəhayət, Yuber və Moss da öz tədqiqatlarında sübut

etməyə çalışırdılar ki, magiya cəmiyyətin zərərinə, əleyhinə olsa da, yalnız ictimai mühitdə yarana bilərdi.

«Psixologiya və sosiologiya arasında real və praktiki əlaqələr» əsərində Moss xüsusi psixologiyanın bəzi problemlərinə toxunmuşdur. «Bədənin texnikası» adlı əsərində Moss o vaxta qədər heç kimin toxunmadığı gündəlik məişətdə insan hərəkətlərində etnik fərqlərdən bəhs edərək, yerimə, qaçma, tullanma, üzmə üsulları, əli tutmağın müxtəlif üsulları, əşyaları daşımaq, itələmək, atmaq, qaldırmaq, yumruq sıxmaq, doğum halları, uşaqları yedirtmək və gəzdirmə üsulları, yemək və içmək texnikası və s. əsas götürürdü. Moss bu fərqlərin qanunauyğunluğu, onların sosial şəraitdən, tərbiyədən və dini baxışlardan asılılığı haqda məsələ qaldırırdı.

Fransız sosioloji məktəbinin nümayəndələri arasında Lüsyen  Levi-Bryül (1857-1939) xüsusi yer tuturdu. Onun fikirləri Dryükqeymin fikirləri ilə uyğun gəlsə də, onu davamçı saymaq olmaz. Əvvəla, Levi-Bryül ondan bir yaş böyük olmuşdur. İkincisi, ondan qabaq elmi fəaliyyətə başlamışdır. Levi-Bryül əvvəl fəlsəfə sahəsində çalışsa da, sonradan çin tarixçisi Sima Çyanın «Tarixi yazılar» və C.Freyzerin «Qızıl budaq» əsərlərinin təsiri ilə qeyri-avropalıların düşüncə xüsusiyyətlərini öyrənməyə başlamışdır. O, 1910-cu ildən etibarən ardıcıl kitablar yazmağa başlamışdır ki, bunların da ən məhşuru «Aşağı cəmiyyətlərdə təfəkkür funksiyası» kitabıdır. Onun bütün əsərləri ibtidai təfəkkürün özünəməxsusluğu, məntiqi təfəkkürdən əhəmiyyətli dərəcədə fərqli olması haqdadır. Levi Bryul yazırdı ki, Dryükqeymin nəzəriyyəsi olmasaydı o, ibtidai təfəkkür məsələsini heç cür həll edə bilməzdi.

Levi-Bryülün fikrincə, kollektiv təsəvvürlər müasir avropalıların təfəkküründə də var. Bu insanın elmin izah etmədiyi ətraf aləmlə münasibət qurma istəyindən irəli gəlir ki, bu da təbii  ehtiyacların nəticəsidir. Elm dünyanı obyektiv şərh edir və bununla da onu insandan uzaqlaşdırır. Ona görə də,

insan təbiətlə din, mənəviyyat, adətlər yolu ilə münasibət qurmağa çalışır ki, burada da kollektiv təsəvvürlər əsas təşkil edir. Buna görə də Levi-Bryül hesab edir ki, məntiqəqədərki təfəkkür məntiqi təfəkkürlə bağlı mövcud olub və olacaq. Bu şəriklik qanunu və mistik quruluş müasir insan təfəkkürünün təbii xüsusiyyətləridir. Sosioloji məktəbin əsas ideyaları isə bunlardır. 1) Hər bir cəmiyyətdə «kollektiv təsəvvürlər» kompleksi mövcuddur və bunlar cəmiyyətin dayanıqlığını təmin edir; 2) Mədəniyyətin vəzifəsi cəmiyyəti birləşdirmək və insanları yaxınlaşdırmaqdır; 3) Hər bir cəmiyyətin öz əxlaqı var o, dinamik və dəyişkəndir; 4) Bir cəmiyyətdən başqasına keçid çətin prosesdir və rəvan yolla deyil, sıçrayışla baş tuta bilər.

Beləliklə, Dyukqeym məktəbinin yaranması onun 1896-cı ildə «Sosioloji salnamələri» nəşr etdirməsi, Anri Vuber, Jari Davi, Marsel Mossenin Dyukqeymin davamçıları kimi yetişməsi, «Etnoqrafiya dərsliyinin» yazılması, Levi Bryulun 1910-cu ildə «Aşağı cəmiyyətdə fikri funksiya» adlı kitabının nəşr edilməsi və kitabda «təsəvvür kollektivçiliyin adıdır» fikrinin əsaslandırılması fransız sosioloji məktəbini və «sosioloji» nəzəriyyənin insan cəmiyyətində görülməsinin Fransada artıq formalaşması demək idi.

# XIX ƏSRIN SONU – XX ƏSRIN ƏVVƏLLƏRİNDƏ YARANMIŞ CƏRƏYANLAR

## I. FUNKSIONALIZM

Etnologiyada funksionalizm sosioloji məktəbin prinsiplərinin sonrakı inkişafının məntiqi nəticəsi idi. Əgər diffuzionizmin vətəni Almaniya, sosiologiyanın vətəni Fransa idisə, funksionalizm istiqaməti İngiltərədə yaranmışdı və nə qədər geniş yayılsa da, ingilis nəzəriyyəsi olaraq qalırdı. Bunun da özünün siyasi səbəbləri vardı.

Funksionalizm məktəbin tədqiqat obyektinə istənilən ictimai institutun malik olduğu və birbaşa onun saxlanılmasına xidmət edən funksiyaların öyrənilməsi daxildir. Bu məktəb XX əsrin 20–ci illərində ingiltərədə etnologiyada əsas yer tuturdu.

İlk funksionalizm nəzəriyyəsini alman etnoloqu R.Turnvald 1911-ci ildə irəli sürmüşdür. Amma funksionalizmin mövqeyi Böyük Britaniyada daha güclü oldu. Burada Malinovskinin rəhbərliyi altında XX əsrin 20-ci illərindən etibarən tezislər irəli sürülməyə başlandı. Malinovskinin ilk tezisi belə idi: mədəniyyəti onun cizgilərinə görə deyil, institutlarına görə təhlil etmək lazımdır. O bildirirdi ki, parlament idarəçiliyi mədəniyyətin mühüm elementi hesab edilir və çinlilərdə istifadə edilən çubuqlar isə yalnız qida prosesində kiçik bir elementdir.

Qeyd edək ki, funksionalizmin banisi Bronislav Kaspar Malinovski (1884-1942) milliyyətcə polyak olub, Krakovda anadan olmuşdur. B.K.Malinovski universitetdə fizika və riyaziyyat təhsili almış, Freyzerin «Qızıl Budaq» əsərinin təsiri ilə etnologiya və mədəniyyət tarixi ilə maraqlanmışdır. O, Leypsikdə Karf Büxerin iqtisadi tarixə dair mühazirələrini dinləmiş, Londonda Zelinqmanın ideyaları ilə tanış olmuşdur. Hələ tələbə ikən onun ilk ciddi işi «Avstraliya yerlilərinin ailəsi» adlı işi nəşr olunur. O. 1914-cü ildə Avstraliyaya yola düşür və Avstraliya ekspedisiyasında (1914-

1921) iştirak edir. Yeni Qvineya və onun ətrafındakı adalarda apardığı tədqiqatlar Malinovskiyə bütün ömrü boyu kifayət edir. Müharibə qurtardıqdan sonra İngiltərəyə qayıdan Malinovski 1921-ci ildən etibarən ardıcıl kitablar nəşr etməyə başlayır. Funksional metodun əhəmiyyətli cizgiləri onun ilkin əsərlərində özünü göstərirdi: «Manlu adasının yerli əhalisi», «Trabrian adası sakinlərinin ibtidai iqtisadiyytı», «Sakit okeanın qərb hissəsinin arqonavtları», «Vəhşi cəmiyyətdə cinayətlər və adətlər» və s. adlı əsərləri «funksionalizm» təliminin metodoloji əsasını təşkil etdi. Funksional metodun əsas tələbi bundan ibarətdir ki, hər bir xalqın mədəniyyətinə və məişətinə ayrı-ayrı hissələri qarşılıqlı əlaqədə olan bir tam kimi baxmaq lazımdır. Bu hissələrin hər biri öz rolunu və funksiyasını yerinə yetirir.

Malinovski «Mədəniyyətin elmi nəzəriyyəsi» (1944) əsərində öz elmi baxışlarını, elmi metodunu izah edir və qeyd edir ki, etnologiyanın əsas predmeti mədəniyyətdir. O, mədəniyyəti özünəməxsus bioloji amil kimi qəbul edirdi: mədəniyyət bioloji bazisə əsaslanır. İnsan adi heyvan kimi ilk növbədə özünün sadə bioloji tələbatlarını ödəyir. İnsan özünü qida, yanacaq, yaşayış yeri, paltar və s. ilə təmin edir. Bunları edərkən insan özünəməxsus ətraf mühiti formalaşdırır ki, bu da məhz mədəniyyətdir. Amma bu mədəniyyətin qayğısına qalmaq və daima yeniləşdirmək lazımdır. Mədəniyyət elə bir maddi və mənəvi amildir ki, insanlar onun vasitəsilə qarşıya çıxan spesifik məsələləri həll edirlər. B.Malinkovski qeyd edirdi ki, funksional metodun başlıca tələbləri hər hansı bir xalqın məişət və mədəniyyətinin bir-biri ilə qarşılıqlı əlaqədə olan və hər birinin öz rolu, funksiyası olan hissələr sistemindən ibarət olmasıdır. İngiltərə isə Afrikada dayaq kimi nəsli-qəbilə əyanlarından istifadə edirlər.

Malinovski öz nəzəriyyəsini izah edərkən, əvvəlki etnoloji nəzəriyyələrə də tənqidi yanaşırdı. O, xüsusilə Taylorun «qalıqlar» metodunu kəskin tənqid edərək, yazırdı:

«qalıq» sözü elmə böyük zərbədir. Tədqiqatçılar öyrənilən amilin real, həyati funksiyasını öyrənmək əvəzinə, hər yerdə qalıq axtarırdılar. Əslində isə əvvəlki funksiyaların yerinə yenisini qazanmış mədəni amillər var. O. bir sıra misallar da gətirir və qeyd edir ki, London küçələrində müasir maşınlarla yanaşı, at arabaları da var. Bu qalıq deyil. Keçmişə romantik səyahətdir. Həmin küçələrdə köhnə maşın qalıq deyil, onun sahibinin iqtisadi göstəricisidir. Müasir istilik sistemləri olan evlərdə divar daş sobaları (kamin) isə rahatlıqdır.

Malinovski funksionalizmi ümumi olaraq bu cür formalaşdırmışdı:

1. Mədəniyyət mahiyyət etibarilə insanın öz ehtiyaclarını ödəyərkən ətraf mühitin onun qarşısında qoyduğu spesifik problemləri həll etmək üçün instrumental mexanizmdir.
2. Mədəniyyət tərkib hissələri hansısa məqsədə çatmaq üçün vasitə olan obyektlər, hərəkətlər, istiqamətlər sistemidir.
3. Mədəniyyət elementləri müstəqil olan bir tam təşkil edir.
4. Mədəniyyətin bütün obyektləri ailə, nəsil, icma, tayfa formasında həyati əhəmiyyətli məsələlərin həlli üçün yaradılmışdır. Bütün bu təşkilatlanmış struktura iqtisadi biliklər, siyasi hüquqi, ictimai fəaliyyət üçün zəmin yaradır.
5. Fəaliyyət sahəsi kimi baxsaq mədəniyyəti müxtəlif aspektlərdən təhlil etmək olar. Məsələn, təhsil, sosial nəzarət, iqtisadiyyat, idrak sistemi, dini, mənəvi, o cümlədən yaradıcı və bədii fəaliyyət.

Funksionalizmin ikinci böyük nümayəndəsi Alfred Radklif - Braun (1881-1955) hesab olunur. Əslən ingilis olan Radklif-Braun Riversin tələbəsi olmuş «Kembric məktəb»nin metodoloji istiqamətini mənimsəmiş, eyni zamanda Dyürkqeym və rus inqilabçı mühaciri və alimi Pyotr Kropotkinin ideoloji təsirinə məruz qalmışdır. O, Cənubi Afrika, Avstraliya, ABŞ, İngiltərə və Misirdə mühazirələr oxumuşdur. Şimal-qərbi Avstraliyada Andaman adalarında, Afrikada, Polineziyada apardığı tədqiqatlarının nəticəsində

ardıcıl kitablar nəşr etdirmişdir. «Andaman adaları», «Etnologiya və sosial antropologiyanın metodu» (1950), «Mədəniyyətin tarixi və funksional şərhi», «Antropoloji tədqiqatlarda hazırkı vəziyyət» adlı əsərləri bu qəbildəndir.

Radklif-Braun bu əsərlərində öz nəzəri baxışlarını və metodunu tam ifadə edir. O, yazır ki, antrpologiya elmi insan və insan həyatının bütün aspektləri haqda elm kimi 3 sahəyə bölünür: 1) insan biologiyası, yəni, somatik antrpologiya; 2) tarixə qədərki arxeologiya; 3) qeyri-Avropa, xüsusilə də yazılı tarixi olmayan xalqların dilinin və mədəniyyətinin öyrənilməsi.

O, bildirirdi ki, etnologiya konkret xalqları, onların daxili inkişafını, onlar arasında mədəni əlaqələrin tarixini öyrənir. Etnologiyanın əsas metodu insan mədəniyyətinin tarixi bərpasıdır. Bu işi müvafiq xalqın konkret mədəniyyəti çərçivəsindən kənara çıxmayaraq yazılı mənbələrin birbaşa iştirakına, eyni zamanda nəzəri bərpaya əsaslanır. Sosial antropologiya isə müxtəlif xalqların mədəniyyətlərinin bərpası ilə deyil sosial və mədəni inkişafın ümumi qanunlarının axtarışı ilə məşğuldur.

1931-ci ilədək Radklif - Braun «mədəniyyət» termininindən, sonra isə sosial antropologiyada «sosial quruluş» ifadəsindən çox istifadə edirdi.

Qeyd etmək olar ki, Radklif Braunun funksionalizm nəzəriyyəsinin əsasını xalqların mədəniyyəti təşkil edirdt. Malinovskiyə görə, ibtidai xalqların mədəniyyətinin öyrənilməsinin qeyri-mümkünlüyü onların yazısının olmaması ilə bağlıdır.

Malinovski və Radiklif – Braunun bir çox ölkələrdə davamçıları var idi. Onların ideyaları daha çox keçmiş Britaniya imperiyası ölkələri, İngiltərə, Cənubi Afrika, Avstraliya. Yeni Zellandiyada daha geniş yayılmış, amerikan və fransız etnologiyasına da müəyyən təsir göstərmişdir. Bu məktəbin nümayəndələri sırasına **Raymond Förs**, **Maks**

**Qlukmen**, **Meyer Fortes, Eduard Evans – Pritçard** və başqalarını aid etmək olar.

Belliklə, funksionalizmin əsas ideyaları bunlardır:

– insan cəmiyyəti obyektiv aləmin bir hissəsi olaraq canlı orqanizm kimi inkişaf edir, buna uyğun olaraq onun elementləri öz funksiyasını yerinə yetirdikcə o da mövcud olur. Başqa sözlə, insan cəmiyyəti qarşılıqlı əlaqədə olan və bir-birini tamamalayan elementlərin strukturundan ibarətdir.

– istənilən sosial sistem «struktur» və «hərəkət»dən ibarətdir. Strukturu fərdin ətraf mühitlə əlaqədə olması modelinin dayanıqlılığını təmin edir. Fərdin funksiyası sistemin sosial bütövlüyünə kömək etməkdir.

– mədəniyyət insanın ehtiyaclarına xidmət edir: əsas ehtiyaclar (qida, yaşayış yeri, paltar və s.) törəmə ehtiyaclar (əməyin bölünməsi, müdafiə, sosial nəzarət), inteqrativ ehtiyaclar (psixoloji təhlükəsizlik, sosial harmoniya, qanunlar, din, incəsənət və s.), mədəniyyətin hər bir aspekti yuxarıda göstərilən ehtiyac tiplərinin hər hansı birinin çərçivəsində öz fuksiyasına malikdir.

– mədəniyyətdə aparıcı rol insanların davranışlarını tənzimləyən adətlərə, rituallara, ənənəvi normalara məxsusdur. Bunlar öz funksiyasını yerinə yetirərək insanların əsas ehtiyaclarının ödənilməsinin, yəni birgə varlığının təşkilatlanmış faktorunun mədəni mexanizminə çevrilir.

– etnologiyanın vəzifəsi mədəniyyətlərin qarşılıqlı əlaqəsinin öyrənilməsi deyil, hər bir mədəni amilin funksiyasının, onların qarşılıqlı əlaqəsinin və qarşılıqlı asılılığın öyrəniləməsindən ibarətdir.

**2. Strukturalizm**

Strukturalizmin yaranması funksionalizmdən qaynaqlandığından, onun ilkin forması struktur funksionalizmi adlanırdı. Etnologiyada bu yeni istiqamətin banisi ingilis alimi Alfred Radikliff – Braun olmuşdur. Onun fikrincə, insanların ictimai həyatına onların müvafiq sosial struktur çərçivəsində

fəaliyyəti kimi baxıla bilər. Radiklif – Brauna görə etnologiyanın vəzifəsi insan cəmiyyətinin və onun mədəniyyətinin struktur dəyişikliklərini öyrənməsi deyil, burada daima təkrarlanan struktur qarşılıqlı əlaqələri göstərməkdir. İlkin olaraq qatı funksionalist olan Radkliff-Braun hərdən Malinovskinin təmiz funksionalizmdən doğan «struktur funksionalizm» ifadəsini işlədirdi. Kloda Levi - Strossanın elmi isə tarixi kökləri ilə struktur linqivistikaya bağlanan və əlbəttə, böyük dilçi Ferdinand de Sossyuriya (1857-1915) uyğun gəlirdi. Onlar əsas diqqətini nekoysistemindəki struktur əlaqələrə yönəldirdilər. Bu tədqiqatlar sistematik olaraq struktural metod kimi qəbul olunurdu. Evans – pritçard özü bu metodu «ənənəvi» etnoqrafik təsvir kimi xarakterizə edirdi. İngiltərədə Radikliff Braunun davamçıları Eduard Evans-Pritçard, Meyer Fortes, Raymond Förs, Maks Qlukmen və b. idilər.

Onların qarşısında məhşur afrikaşünas, azande, nuer və başqa Afrika xalqlarının mədəniyyətinin tədqiqi ilə tanınan Evans-Pritçartin (1902-1973) əsərləri xüsusi maraq doğurur. Onun tədqiqatlarında strukturalist metod sistematik olaraq tətbiq edilir. Evans-Pridçard özü bu metodu ənənəvi metodlara qarşı qoyulmuş metod kimi şərh edir. O. «Nuerlər» kitabının son fəslində bildirir: «Biz kitabı yazarkən ibtidai xalqlar haqda uzun – uzadı monoqrafiyalar ənənəsini dağıtdıq. Bu ağır cildlərdə adətən həddən artıq təsadüfi üsullarla şərhlər verilir ki, daha oxunaqlı və xoş olsun. Bu çatışmazlıq sosial antropologiya sahəsində elmi nəzəriyyənin yoxluğu ilə əlaqədardır». Başqa sözlə desək, Evans–Pritçardın strukturalist metodunun mahiyyəti bundan ibarətdir ki, faktların təsviri müvafiq sosial nəzəriyyəyə uyğun olmalıdır. Onun nuerlər haqda kitabı məhz bu prinsiplərə həsr olunub. O, bu xalqın siyasi sistemini və onunla bağlı olan hər şeyi-nuerlərin ictimai həyatının və maddi istehsalının əsası olan maldarlıq təsərrüfatını, ekoloji mühiti, tayfa-qohumluq strukturu, yaş sinifləri sistemini təsvir edir.

O, «Nueri» kitabına nəticə olaraq yazırdı ki, biz böyük monoqrafiyada ibtidai xalqların ənənəvi həyatlarını necə keçirdiklərindən bəhs etdik. Biz çalışdıq ki, hazırda yaşayan nuerlərin sosial birliklərini təsvir və abstrak təhlil edək. Müəllif kitabında həmçinin nuerlərin qəbilədaxili və qəbilədənkənar münasibətlərini maddi mədəniyyətin bazasında maldarlıq təsərrüfatını, ekoloji durumunu, nəsli-qəbilə quruluşlarını, inkişaf edən siniflərin sistemini öyrənməyə çalışırdı.

Lakin müəllif ailə-nikah və cinslərin qarışılıqlı münasibətini təsvir etmir və bunların siyasi institutlara aid olmadığını düşünürdü. Evans-Priçard nuerlərdə zaman və məkan anlayışının yalnız ekoloji deyil, həm də struktur mahiyyətini aşkar etmişdir. Məsələn, günü təsərrüfat işlərinə görə bölmək, məkanlarda yerləşən tayfaların qohum və yad olduğuna görə yaxın və ya uzaq hesab edilməsi və s.

Strukturalist istiqamətdə çalışan digər tədqiqatçı Raymond Förs Yeni Zellandiya əsilli olub, Okeaniya adalarının tədqiqi ilə məhşurlaşmışdır. Onun ən böyk əsərləri Polineziyanın Tikopiya adasına, Yeni Zellandiyanın maorilərinə, malay balıqçılarına həsr olunub. Bu əsərlərdə ən mühüm məqam ondan ibarətdir ki, Förs qeyri-avropa xalqlarında kapitalizmə qədərki inkişaf səviyyəsində təsərrüfat və iqtisadi münasibətlərin xüsusiyyətlərini xüsusi tədqiq etmişdir. Försün digər xidməti onun qeyri-Avropa xalqlarının ənənəvi təsərrüfatlarının müasir dünya təsərrüfatının təsiri ilə yenidən qurulmasına diqqət yetirməsidir. Bununla da o, funksionalizmin banilərinin baxışlarında çox sabit görünən «mədəniyyət», «funksiya», «struktura» anlayışlarına düzəliş etdi və onları daha dinamik vəziyyətə gətirdi.

Əslən Cənubi Afrikadan olan, 1901-ci ildə anadan olmuş afrikaşünas Meyer Förtes hesab edirdi ki, «sosial struktur» anlayışı həddən artıq abstraktdır və buna görə çalışırdı ki, onu konkret sosial situasiyaya müvafiq zaman və məkan daxilində tətbiq etsin. O, Morqanın ideyalarına böyük maraqla yanaşaraq

ona qohumluq və sosial struktur haqda kitab həsr etmişdi. Forts Morqanın qohumluq sisteminin tədqiqat obyekti kimi açmasını onun böyük xidməti kimi qəbul edir, lakin Morqanın təkamülçü ideyalarından inamsızlıqla danışırdı.

Radikliff – Braunun ardıcılları arasında onun «struktura» ideyasını daha dinamik etməyə çalışan məhşur afrikaşünas Maks Qlukmen bildirirdi ki, «qiyam» ictimai strukturun tarazlığını saxlayan amildir. O, Afrika dövlətlərinin timsalında göstərməyə çalışırdı ki, bu dövlətlərin siyasi strukturu qiyamla üzvü olaraq bağlıdır. Bu inqilab deyil, məhz qiyamdır, çünki qiyamdan sonra dövlətin strukturu əvvəlki kimi qalır. Tiran devrilir, onun yerinə yeni tiran gəlir, tiraniya isə əvvəlki kimi qalır. Bununla belə, dövlət nizam-intizamla dəstəklənir. Onun kitablarının biri də məhz «Afrika qəbilələrində nizam-intizam və qiyam» adlanır. M.Olukmen burada K.Marksın əsərində yazılmış qiyamın inqilabın sələfi olması haqda fikirlərinə əsaslanır.

Fransada strukturalizmin inkişafı başqa yolla getmişdir. Burada strukturalizmi Klod Levi-Stross formalaşdırmışdır. O, 1908-ci ildə anadan olmuşdur. Onun fikirləri Dyürkqeym və strukturalist - linqvist Ferdnant de Sosyurun təsiri altında formalaşmışdır. K.Levi-Stross elmdə Braziliya hindularının mədəniyyəti və məişətinə dair yazılar və qohumluq sisteminin analizi ilə məşhurlaşmışdır. Sonradan onun əsas tədqiqat obyekti geridə qalmış xalqların mifologiyasının, totemistik və digər inamlarının öyrənilməsi oldu. O, bu mövzuya «Qəmli tropiklər» (1975), «Totemizm bu gün» (1962), «Struktur antropologiya» (1958-1973) və s. adlı əsərlər həsr etmişdir.

Levi-Strossa görə bütün insan fəaliyyəti və insanların idrak formaları vahid ciddi məntiqə tabedir. Bu vaxt insanı ağıl və şüur idarə edir. Bu fikir freydist ideyalarla zidd idi. Levi-Strossun totemizmə baxışları ziddiyyət təşkil edirdi. Belə ki, o, bir tərəfdən totemizmin problemlərini düşünülmüş süni reallığa uyğun gəlməyən hesab edir, digər tərəfdən bu barədə maraqlı,

lakin birtərəfli fikirlər söyləyir. Müəllif yazırdı ki, totemizm təbiət amillərinin özünəməxsus təsnifatdır. İstənilən cür təsnifat xaosdan yüksəkdə olduğundan, totemizm təbiətə yiyələnmədə irəliyə atılmış bir addım idi. Levi-Strossa yazırdı ki, totemizm orta əsr elmində, hətta bugünkü zoologiyada və botanikada tətbiq edilən təsnifatdan heç nə ilə fərqlənmir. 1960-cı illərdə Levi-Stross Fransada etnologiya sahəsində əks-səda doğuran «struktur antropologiya»nı tətbiq etdi. O, yeni elmi istiqaməti qarışıq elmlərə də istiqamətləndirdi və bu sahədə aparıcı intellektual səviyyə yaratdı.

1921-ci ildə anadan olmuş Meri Duqlasin ideyaları ingilis sosial antropologiyasında əsas yer tutsa da, ancaq geniş yayıla bilmədi.

ABŞ-ın mədəni antropologiyası nümayəndələri strukturalizm metodu ilə müəyyən ərazilərdə coğrafi adları müəyyən etdilər. Odur ki, strukturalizm çox böyük ərazilərə nüfuz etdi. Onun insan təfəkkürünün univerisallığına çağırışı isə çoxlu mübahisələrə səbəb oldu.

ABŞ-da etnoqrafiya elmində 1890-cı illərdə Avropada hökmranlıq edən təkamül təlimi prinsiplərinə əsaslanan və Frans Boasın adı ilə bağlı olan «Amerikan tarixi etnologiya məktəbi» təşəkkül etdi. Boasın təlimi irqçiliyə və müstəmləkəçiliyə qarşı çevrilmişdi. Bu istiqamətdə 1890-cı ilədək Deniel Brinton, Con Pauell, Frenk Kyoşinq, Ofis Meson, Mak-Qi, Carc Qrant, Mak-Kyerdinin də müəyyən xidmətləri olmuşdur.

XIX əsrin 90-cı illərindən «Tarixi etnologiyada Amerika məktəbi», qısaca «Boas məktəbi» adlandırılırdı.

Alman yəhudisi, fizik və riyyaziyyatçı F.Boas antropoloq, etnoqraf kimi formalaşmışdı. Boas (1858-1942) Vestfaliyanın Linden şəhərində doğulmuş, doktorluq dissertasiyasını müdafiə etmiş (1884), Amerikaya səyahət etmişdir (1883-1884). O, «Mərkəzi eskimoslar», «Evolyusiya və ya diffuziya (1924) əsərlərində çatışmayan cəhətləri tənqid

edir, tarixi-tədqiqat metodunu əsaslandırmağa çalışırdı. Boas həm də dilçi idi. O 17 dildə danışan müxtəlif hindu tayfalarının dilini bilirdi. «Qrammatik proseslərin diffuziyasını» öyrənmişdi. Antropoloji cəhətdən irqi əlamətlərə əsaslanır, yerli Amerika əhalisini irqi əlamətlərə görə öyrənir, Meksikada və Ryerto – Rikoda arxzeoloji qazıntılar aparmışdı. Boasın «Etnologiyanın tapşırıqları» (1888), «Etnologiyanın metodları (1920), «Evolyusiya və ya diffuziya» (1924) adlı məqalələri xüsusi rola malikdir.

Boasın «İbtidai insanın ağlı» (1911), «Avropalogiya və müasir həyat» (1928) adlı əsərləri ictimai-siyasi həyata həsr olunmuşdu. Həqiqət uğrunda mübarizə, xalqların bərabərliyi, rasizm, sosializm və köləliyə qarşı mübarizə ruhunda yazılmış əsərlərdə o irqsiliyin əleyhinə çıxış edir, insanların vahid birliyini, insan psixikası və intellektini əsas götürərək irqçiliyi deyil, insanlığın irqini əsaslandırırdı. Boas antropologiyanın prisiplərini «sosial prosesləri» əsaslandırırdı.

1907-1910-cu illərdə ikicildlik «Amerika hindularının «Mexiko Vadisiin dəftərləri» kitablarında əlifba sırası ilə bütün hindu qəbilələri haqqında məlumat vermiş, «İnkişaf və mədəniyyətin kataloqu» məqaləsində Avropa və Asiya mədəniyyətinin müqayisəli, özünəməxsus inkişafını təhlil etmiş, «Müasir sivilizasiya və sadə mədəniyyət» əsərində isə ictimai-siyasi görüşlərini bəyan edərək, antirasizm, relyativizm ideyalarını əsaslandırır.

### 3. Amerika tarixi etnologiya məktəbi

XIX əsrin 90-cı illərində Amerika etnologiya elmində böyük alim, mütəfəkkir və ictimai xadim Frans Boasın (1858-1942) adı ilə bağlı olan yeni istiqamət yarandı. Boas «Etnologiyanın məqsədləri haqda» (1888) ilk prinsipial məqaləsində – bildirirdi ki, bu elmin qarşısında duran əsas məqsəd sosial həyatın bütün amillərinin cəminin, yəni dil, adət-ənənə, miqrasiya, maddi əlamətlərin öyrənilməsidir.

Bu tədqiqatlar yalnız inkişaf etmiş millətlərin tarixini deyil, bütövlükdə bəşəriyyət tarixini, həm də buz dövründən müasir dövrə qədər olan müddəti əhatə etməlidir. Bunun üçün isə hər bir xalqın özünəməxsusluğunu bilmək lazımdır ki, bu da mədəniyyət tarixinin öyrənilməsinə kömək edir. Etnologiya elminin ən mühüm məqsədi isə sosial inkişafın ümumi qanunlarını tapmaqdan ibarətdir. Boas «Təhsilini tərəqqi metodları» (1828) adlı məqaləsində bir daha bildirmişdir ki, insan ağlının fəaliyyətini idarə edən qanunların kəşfi, insan mədəniyyətinin və sivilizasiyasının tarixinin rekonstruksiyası etnologiya elminin əsas məqsədidir.

Boas təkamülçü və diffuzionist fikirləri rədd edərək özünün tarixi tədqiqat metodunu əsaslandırırdı. «Tarixi-problem», «tarixi metod», «tarixi tədqiqat» anlayışları onun bütün nəzəri düşüncələrində təkrar olunur. Qeyd etdiyimiz kimi, Boas insan haqda elmin əsas məqsədinin bəşər tarixinin rekonstruksiyası olduğunu bildirərək yazırdı ki, əvvəlcə hər bir xalqın tarixini öyrənmək lazımdır. Bu tarix qismən inkişafdan, qismən də onu əhatə edən xarici təsirlərdən asılı olaraq formalaşır. Ona görə də, Boas hər bir cəmiyyətdə olan dinamik dəyişikliklərin öyrənilməsini ən düzgün metod hesab edirdi.

Aşağıda gətirdiyimiz misalda Boasın metodunun digər metodlardan konkret fərqini göstərəcəyik. Bu misal Boasın uzun illər tədqiq etdiyi kvakiutley tayfalarının sosial təşkilatları barədədir. Şimali kvakiutleylərdə ana xətti, cənubi kvakiutleylərdə isə ata xətti qəbilə strukturu mövcuddur. Etnoloqların əksəriyyəti, o cümlədən təkamülçülər hesab edirlər ki, ana xətti qəbilə quruluşu şimali kvakiutleylərdə daha ibtidai mərhələni təşkil edir. Cənubi kvakiutleylərdə isə bu, əriyib yox olmuşdur. Deməli, biz kvakiutleylərin timsalında ana xətli sistemindən ata xətli sisteminə keçidi görürük. Amma Boas və onun davamçıları bu ümumi tarixi qanunauyğunluğu yanlış hesab edir və əks mövqe tuturdular. Onlar hesab edirdilər ki, kvakiutleylərdə ilkin sosial təşkilat ata xəttli olub

və bu, cənub hissədə indiyədək saxlanılıb. Şimali kvakintleylər ana xəttli qəbilə quruluşunu şimalda yaşayan tikinti, xayda və çimşian tayfalarından qəbul etmişlər. Ata xətti sistemindən ana xətli sistemə doğru inkişaf haqda fikirlərin ümumi qəbul olunmuş fikirlərə zidd olması isə Boası heç narahat etmirdi.

Boas, müasir «Sivilizasiya və ibtidai mədəniyyət» əsərində müasir həyatın bir sıra aktual problemlərinə toxunur və onları daha geniş şəkildə təhlil edirdi. O, bildirirdi ki, «insanların daha böyük hissəsinə daha çox səadət» şüarını dərk etmək üçün əvvəlcə «daha çox səadət»in nədən ibarət olması haqda ümumi fikrə gəlməliyik. Bu problemə bizim sivilizasiyalardan kənara baxdıqda daha qabarıq görünür. Mərkəzi Afrika zənciləri, avstraliyalılar, eskimoslar və çinlilərin sosial idealları, insan davranışına onların verdiyi qiymət müasir baxışlardan hədsiz dərəcədə fərqlənir.

Buradan belə bir mühüm metodoloji qanun ortaya çıxır: «Ümumi sosial normaların, elmi tədqiqat zamanı tədqiqatçının özünün mədəni baxışlarından azad olması gərəkdir. Əgər biz hər bir mədəniyyəti öz bazasından öyrənə bilsək, obyektiv, ciddi elmi tədqiqat apara bilərik». Boasın bu fikirləri bütün mənəvi dəyərlərin qiymətləndirilməsinin nisbi olması və müxtəlif xaqların mənəvi dəyərlərini müqayisə olunmazlığı haqda relyativizm nəzəriyyəsinin əsasını təşkil etdi. Bu istiqamətin güclü tərəfi onun ənənəvi avropasentrizm baxışlarından imtina etməsi, zərif tərəfi isə tarixi tərəqqi meyarlarını inkar etməsi idi.

Tarixi etnologiya məktəbinin bu fikirləri etnologiya elminə böyük xidmət oldu. Axı hər bir xalq sahib olduğu davranış normalarını yeganə yaxşı norma hesab edir. Məhz başqa sivilizasiyaların öyrənilməsi etnoloqlara öz sivilizasiyasına da tənqidi yanaşmaq imkanı verir. Beləliklə, yad mədəniyyətin ciddi obyektiv tədqiqi nəticəsində bizim sosial idealın dəyərləri qazanmış olur.

Mənəvi dəyərlərə gəldikdə isə Boas hesab edirdi ki, onlar ibtidai dövrdən indiyədək olduğu kimi qalıb və təkamül etməyib. Dəyişən yalnız onların yayılma arealı və onlardan istifadə edən insan qruplarının ölçüləridir. İbtidai dövrdə, bu mənəvi normalardan yalnız qəbilə üzvləri istifadə edirdisə, indi bütöv bir dövlətin vətəndaşları faydalana bilirlər.

Boasın Amerika etnologiya məktəbinə gətirdiyi əsas yeniliklər bunlardır:

1. Xalqın, onun dilinin, mədəniyyətinin, antropoloji tipinin hərtərəfli, tarixi öyrənilməsinin vacibliyi.
2. Hər hansı coğrafi arealda birgə yaşayan xalqların qarşılıqlı mədəni təsirinin öyrənilməsi. Bu arealları kartoqrafiyalaşdırmaq olar və hər birinin hüdudlarında konkret qarışıqlı təsir formalarını, ayrı-ayrı mədəni elementlərin diffuziyasını axtarmaq lazımdır.
3. Bəşəriyyətin və onun mədəniyyətinin inkişafnın ümumi qanunlarını irəli sürərkən ehtiyatlı olmaq tələb olunur. Çox güman ki, bu qanunlar mövcuddur, amma onları tapmaq çox çətindir, xüsusilə də, hər hansı amilin xarici əlamətlərinə aldanmaq olmaz, çünki bu amil mahiyyət etibarilə tamamilə fərqli ola bilər.
4. Bizim mənəvi dəyərlərə verdiyimiz qiyməti başqa mədəni tipdə olan xalqa aid etmək olmaz. Hər bir xalqın öz sosial idealı və öz mənəvi normaları var.

Frans Boas geniş erudisiyaya, ciddi elmi metoda, novator ideyalara malik olmaqda bərabər həm də istedadlı pedaqoq idi. O, elmi tədqiqatlara gəncləri cəlb edə bilmişdi. Boasın elmi davamçıları Aleksandr Holdenveyzer, Pol Radin, Robert Soui dünyagörüşləri və fəaliyyətləri ilə bir-birlərinə çox yaxın idilər. Onun davamçılarından biri Klark Uissler (1870-1947) idi. O, özünün ən böyük - «Amerika hinduları» əsərində qitənin yerli əhalisinin etnologiyasına dair yığcam məlumat verir, hindu tayfalarının təsərrüfatını, maddi mədəniyyətini, sosial strukturunu, dinini, mifologiyasını, incəsənətini təhlil edir.

Bu məktəbin demək olar ki, ən böyük nümayəndəsi Alfred Luis Kreber (1876-1960) sayılır. O, uzun illər arxaik mədəniyyətə malik olan hindu tayfalarını tədqiq etmişdir. Kreber Boas məktəbinin bu əsas tezisini əldə rəhbər tuturdu: etnologiyanın əsas predmeti insan mədəniyyətidir, daha doğrusu, insan qruplarının mədəniyyətidir.

O, öz nəzəri baxışlarını «Antropologiya» (1912) əsərində də ifadə edir və yazır: «baxmayaraq ki, dünyanın bütün əvvəlki və indiki mədəniyyətləri vahidlik və bölünməzlik təşkil edir, onu praktiki olaraq iki kateqoriyaya bölmək olar: şifahi (yazısız) və yazılı. Etnologiya elmi birinci ilə, tarix elmi isə ikinci ilə məşğuldur».

Bu məktəbin digər nümayəndəsi Aleksandr Holdenveyzer (1880-1940) şimali irokezlər arasında apardığı tədqiqatlarla yanaşı, antitəkamülçü nəzəri əsərləri ilə də məşhurdur. Qoldenvayzer öz nəzəri baxışlarını «Erkən sivilizasiya» kitabında tam ifadə edir. O, bildirirdi ki, bəşəriyyətin vahidliyi mədəniyyətlərin çoxluğunu inkar etmir. Svilizasiyanın elementləri, yəni mədəni yeniliklər fərd tərəfindən yaradılır. Amma sivilizasiyanın saxlanılması kollektivin işidir. Kolektiv mədəniyyəti nəsildən-nəsilə ötürür, bu şəkildə şəxsiyyət və cəmiyyət sivilizasiyanın yaradılmasında iştirak edir.

Tənqidliyi, tarixiliyi, psixolojiliyi. – Holdenvayzer bunları amerika tarixi etnologiya məktəbinin əsas əlamətləri hesab edirdi.

Boas məktəbinin digər nümayəndəsi Robert Loui «İbtidai cəmiyyət» kitabında antitəkamülçü elmi baxışlara malik idi. O, xüsusilə qohumluq sisteminə, ailə-nikah adətlərinə, qan qohumluğu münasibətlərinə diqqət yetirir, antitəkamülçü, xüsusilə antimorqan istiqamətli fikirlərini «Ibtidai cəmiyyət» kitabında cəmləşdirilmişdi.

Loui bildirirdi ki, ümumi tarixi qanunların mövcud olması hələ də sübut edilməyib və ibtidai icma tarixini öyrənən tarixçi bu qanunları qabaqcadan təyin etməməlidir.

Loui sadə bir ailəni ictimai həyatın ən qədim elementi hesab edərək, yazırdı ki, ana və ata qəbilələri, lokal və tayfa təşkilatları, assosiasiya və cəmiyyətlərin müxtəlif növlərinin tarixi ardıcllığı barədə heç nə demək olmaz və tamamilə fərqli amilləri eyni ardıcıllıqla düzmək cəhdi uğursuzdur.

O, 1924-cü ildə yazdığı «İbtidai din» kitabında yeni fikirlər irəli sürürdü.

Bu məktəbin davamçılarından olan Pol Radin nəzəri və metodoloji baxışlarını «Etnologiyanın metod və nəzəriyyəsinin tənqidi təcrübəsi» kitabında ifadə edir. O, dünya etnologiyasının korifeylərini, o cümlədən müəllimi Boası yersiz olaraq tənqid edirdi. Radin hesab edirdi ki, etnoloqların bütün cəhdləri mədəni amillərin tarixinin öyrənilməsini məhdudlaşdırır və onların xronoloji düzülüşü uğursuz alınmışdır. Etnologiyanın məqsədi hər hansı xalqın keçmişi haqda fərziyələr uydurmaq, mədəni tipologiyalar yaratmaq deyil, xalqın mədəniyyətini necə varsa dəqiq və tam yazmaqdan ibarətdir.

**4. Etnologiyada freydizm**

XIX əsrin axırlarında elmin psixatriya sahəsinə aid olan Ziqmund Freydin adı ilə yeni bir cərəyan meydana çıxdı. Freydizm insanın qeyri-şüurunun bioloji instinktlər olduğunu iddia edən, insan yaşayışında ictimai, sinfi şəraitin həlledici rolunu isə inkar edən mürtəce idealist nəzəriyyə idi. Bu istiqamət «psixoanalitik» nəzəriyyə adlanırdı.

Ziqmund Freyd (1856-1939) tibb təhsili almış və əsas ixtisası psixiator olmuşdur. 1876-1882-ci illərdə insanın fiziologiyası, 1885-ci ildən isə nevrologiya və psixiatriyası ilə məşğul olmuşdur. O, fransız nevroloqu Şarkonun, sonra isə bir neçə başqa psixiatrın yanında təhsil almış, nevrozların və

psixozların müalicəsində bir sıra metodları sınaqdan keçirmişdir. Bunlardan daha çox hipnoz və beyinə təsir etmə metodu uğurlu alınmışdır ki, əsəbdən, xüsusən də isterik narahatlıqdan əziyyət çəkən xəstələr adətən öz xəstəliklərinin səbəbini bilmirlər. Amma hipnoz altında onlar həkimin suallarına cavab verir, bununla da xəstəliyin səbəbləri aydın olurdu. Freydin fikrincə, yuxuların mahiyyəti çox hallarda uşaqlıqda sıxışdırılmış erotik emosiyalar və meyllərdir. O, bildirirdi ki, erotik istəyin əsası kiçik yaşlardan qoyulur. Freyd uşaqlıq seksuallığına xüsusi diqqət ayırmış və uşaqda erotik oyanışı bir neçə mərhələyə bölmüşdür. Əvvəlcə bu hisslər öz bədəninə yönəlir, avtoerotizm və ya narsizm (özünə vurulma). İkinci mərhələdə bu impuls parçalanır. Oğlanlarda bu impuls anaya qarşı yönəlir (bu zaman ata arzuolunmaz şəxs hesab edilir), qızlarda isə ataya yönəlir (bu zaman ana arzuolunmaz şəxs hesab edilir). Freyd bu fikrini möhkəmləndirmək məqsədilə çar Edip haqda faciəni misal gətirir. Beəl ki, çar Edip özü də bilmədən atasını öldürür və anasıyla evlənir. Freydin fikrincə bu faciənin dərin mənası insanın tale və allahın qarşısında gücsüzlüyünü ifadə etmək deyildi. Çünki bu, halda Sofoklun faciəsi insanları yüzilliklər boyu maraqlandırmazdı. Eyni hisslərlə hər zaman, hamıya toxunulmuşdur. Freyd bu amili «Edip kompleksi» adlandırırdı. O vaxtdan bu cür təyinat bütün freydistlər tərəfindən qəbul edilir.

Artıq «Yuxuyozma» (1900) kitabında Freyd nevrologiya və psixiatriyanın sərhədlərindən çıxmağa, mədəni-mifoloji və ədəbi amillərin izahını verməyə çalışmışdı. Freyd «Gündəlik həyatın psixopatologiyası» adlı əsərində bu nəzəriyyəsinin köməyilə gündəlik təkrarlanan ictimai amilləri – müxtəlif səhvləri, yanlışlıqları, yazıda səhvləri, adların unudulmasını və sənaye ölkələrini izah etməyə çalışmış, bütün bunları sıxışdırılan şüuraltı sferada olan impulsların təzahürü kimi izah etmişdi.

Tezliklə «Hazırcavablıq və onun şüursuzluqla əlaqəsi» kitabı nəşr olunur. Burada həmin metod zarafatın, hazırcavablığın və lətifələrin izahına tətbiq olunur. 1910-cu ildə Freyd Leonardo da Vinçinin yaradıcılığı haqda «Feonarda da kiçik» adlı kitabını yazdı. O, burada mədəni amillərin psixoanaliz metodu ilə izahına daha bir cəhd edir. Nəhayət, 1913-cü ildə etnologiyaya birbaşa aidiyyatı olan ibtidai mədəniyyət və dinin psixologiyası haqqında «Totem və tabu» kitabı işıq üzü gördü. Bu kitabın əsas ideyası ondan ibarətdir ki, ibtidai xalqların və nevrotiklərin psixologiyası arasında əhəmiyyətli oxşarlıq var. Buradan da belə çıxır ki, nevroloji klinikadan alınmış psixoanaliz məlumatları əsasında etnoloji faktları izah etmək olar. Freyd etnoloqların çətinliklə izah etdikləri bəzi anlayışlara – eqzoqamiya, müxtəlif növ tabular (qadağalar), magiya, animizm, totemizm anlayışlarına psixoanaltik izah verməyə çalışmışdır.

Freyd tabuları utancaqlıq impulslarının sıxışdırılması ilə izah etməyə cəhd edir və qeyd edirdi ki, tabular, yəni qadağalar insanda olan haram, qadağan edilmiş arzulardan doğan əşyalara və hərəkətlərə aiddir. Məsələn, rəhbər, kral, kahin üzərində tabu onunla əlaqələndirilir ki, insanlar öz kahin və krallarını öldürmək istəyirlər, meyid üzərində tabu onunla əlaqəli idi ki, insanlar meyidə əzab vermək istəyirdilər və s.

Freyd totemizmi də psixoanaliz metodu ilə izah etməyə çalışırdı. O, bildirirdi ki, uşağın heyvana münasibəti ilə ibtidai insanın heyvana münasibəti arasında çox oxşarlıq var. Uşaq özünü heyvandan qəti şəkildə fərqləndirə bilmir. Amma birdən uşaq heyvanın müəyyən təbiətindən qorxmağa başlayır. Bu, yaşlı psixonevrotik xəstələr arasında ən geniş yayılmış və bəlkə də ən ilkin heyvandan qorxmanın kliniki mənzərəsi yaradır. Freyd bildirirdi ki, ibtidai xalqlar totemi öz əcdadları, ulu ataları adlandırırdılar. Bununla da sübut olunur

ki, totemistik sistem «Edip kompleksi» şəraitində yaranıb. O, həmçinin totemizmi dindən yüksəkdə görürdü.

Freyd bu ideyalarına dayaq nöqtəsi olaraq şotland etnoloqu Atkinsonun «Siklopik ailə» adlanan nəzəriyyəsinə söykəndi. Atkinson «İbtidai hüquq» (Primae larv) əsərində bildirirdi ki, insanın əcdadlarının ilkin ümumi yaşayış forması «siklopik ailə» olmuşdur. Bu ailə bir yaşlı erkəkdən və uşaqları ilə birgə bir neçə dişidən ibarətdir. Dişilər yaşlı erkəyin şəriksiz tabeçiliyində və istifadəsində idi. Yaşlı erkək cavanları sürüdən qovur, onlar isə haradansa tapdıqları dişi ilə poliandriya şəraitində yaşayırdılar. Freyd Atkinsonun bu fərziyəsi ilə razılaşır və onu belə davam etdirirdi: Günlərin bir günü qardaşlar birləşdilər, atanı öldürdülər və yedilər. Beləliklə, atanın dəstəsinə son qoyuldu. Ola bilsin ki, mədəni tərəqqi, yeni silahlardan istifadə etmək bacarığı onlara üstünlük hissi qazandırmışdı. Onların atalarını öldürüb və üstəlik yemələri vəhşi hanniballar üçün tamamilə təbii hal idi. O. hesab edirdi ki, bu qədim hannibal naharı nəticəsində ritual totemik nahar-qurbankəsmə şəkildə saxlanılmışdır. Öldürülmüş totem qədimdən öldürülmüş və yeyilmiş atanın obrazıdır.

Ataya qarşı düşmənçiliyin və qarşılıqlı qısqanclığın aradan qaldırılması üçün onlar öz tayfalarından olan qadınla nikah münasibətlərində olmağı, yəni endoqamiyanı qadağan etdilər, buradan da eqzoqamiya ortaya çıxdı. Öldürülmüş ata obrazı totemik heyvan obrazı ilə əvəz olundu. Ona görə də bu qadağa qoyuldu: totemi öldürmək olmaz. Amma dövrü qəbilə bayramları zamanı totemik heyvanlar öldürülür və yeyilirdi. Bayram icazə verilmə, asayişin, qadağaların təntənəli surətdə pozulmasıdır. Adətən qadağan olunmuşlara icazə verilməsi bayram əhval-ruhiyyəsi yaradırdı.

Freyd iki hissədən ibarət olan və 1937-1939-cu illərdə qələmə aldığı «Moisey və monoteizm» əsərində yazırdı ki, Moiseyi Misirli idi. Firon IV Amenxotenin dövründə Misirdə

monoteizm – günəş allahı Atonanın şərəfinə yaranmışdı. Exnamonun vəfatından sonra Moisey yəhudilərin yanına getdi və Atonanın şərəfinə monoteist fikirlərini də özü ilə bərabər gətirdi. O, qədim yəhudilərin allahı Yaqvenin dünyəvi Allah Atonanın şərəfinə ikinci olduğunu elan etdi və vahid monoteist din qələbə çaldı. Əsərdə Feyd əsasən monoteizmin mənşəyi barədə yazmışdır. Freydin davamçıları Karl Yunq, V.Reyx, Otto Rank, Geza Rohelym və digərləridir.

Otto Rankın «Doğumun zədəsi» (1924), Qezo Roheymin «Təsərrüfat həyatı» əsəri Z.Freidin ideyasının davamı kimi qəbul edilə bilər.

Freydin davamçılarından biri həkim-psixiator, tədqiqatçı etnoloq Geza Roheymdir. O, yalnız kabinet alimi olmamış, Mərkəzi Avstraliya aborigenləri arasında, Normanbidə (Melaneziya), Amerikanın cənub-qərb ştatlarında hindular arasında, Afrikada tədqiqatlar aparmışdır. Roheymin baxışlarını və metodunu anlamaq üçün onun iki «Avstraliya totemizmi haqda» (1925) və «Mədəniyyətin yaranması haqda» (1943) əsərlərinə diqqət yetirmək kifayətdir.

G.Roheym qəbirüstü abidələrin yaranmasını, ümummilikdə dəfn mərasiminin izahını belə əlaqələndirirdi: «Bir-birinin ardınca dəstənin rəhbərləri onlara atılan daşların altında ölürdü, sonra isə onlara yas tutulurdu. Əvvəlcə iyrənc reallıq olan adət rituala qədər yumşalırdı. Hər dəfə ata öldürüldükdə ondan əvvəlkinə nisbətən qəm çoxalır, təntənə azalırdı».

Roheym «Mədəniyyətin yaranması haqda» kitabında mədəniyyəti – sivilizasiyanı düzgün olaraq bəşəriyyətin heyvanı səviyyəsini aşması ilə əlaqələndirirdi. O, sübut etməyə çalışırdı ki, butun mədəniyyət, yəni bəşər tarixi şəhvət üzərində qurulubdur.

Roheym insanın yaratdığı təsisatları – ümumi yaşayış formaları və mədəni amilləri məhz «uzadılmış uşaqlıq» və ya «daimi infantilizm» ilə bağlamağa çalışırdı. Yeni doğulmuş

uşaq bütün təhlükələrə qarşı müdafiəyə və himayəyə, hər şeydən əvvəl ana himayəsinə ehtiyac duyur. Buradan da, insandan heç vaxt ayrılmayan sırf arzu – sevimli olmaq arzusu ortaya çıxır. Freydə görə bütün nevrozlar məhz bu yetkinliyin retordasiyası, infantilliyin uzanması səbəbindən yaranırdı. Roheym buna görə də, «Freydin nevrozların və sivilizasiyanın struktur və köklü oxşarlığı» haqda tezisindən istifadə edirdi.

Ziqmund Freyd və onun davamçılarının etnologiya elminə gətirdikləri ən böyük fayda məişətin və mədəniyyətin formalaşmasında alt şüurun böyük roluna diqqət yetirmələri idi. İkincisi, onlar alt şüuru təhlil edərkən qanunauyğun olaraq erotik həvəsin və emosiyanın vacib əhəmiyyətini bildirirdi. Lakin freydçilər hər şeyi erotik hissələrlə, çoxalma instinkti ilə bağlayırdılar. Amma, bu yaşamaq üçün vasitələr əldə etmək instinktindən vacib ola bilməzdi. Hər şeyi şəhvətlə bağlamaq, yaşamaq uğrunda vasitələr əldə edilməsinin insanın heyvan səviyyəsindən yuxarı qalxmasında rolu onun danılması könüllü olaraq digər amillərə göz yummaqdan başqa bir şey deyildi.

Feydin psixoanaliz məktəbi özünün ortodoksal istiqaməti ilə yanaşı kənar cərəyan da yaratdı. Bu etnologiyaya nisbətən təsir etmiş isveçrəli psixoloq və psixiatr Karl Qustav Yunqun (1875-1961) məktəbidir. O, əvvəlcə fredizmə yaxın olmuş, sonradan öz müstəqil nəzəriyyəsini hazırlamışdır. Freydlə onun ayrılmasının iki əsas səbəbi var idi. Bunlar şüursuzluq anlayışı və seksual zövqün rolunun qiymətləndirilməsi.

Feyd şüursuzluğu insanın şüur dairəsindən sıxışdırılan anbarı hesab edirdisə, Yunq şəxsi şüursuzluq anlayıışı ilə yanaşı kollektiv şüursuzluq anlayışını da yaratdı. O, kollektiv şüursuzluğu «arxetiplər» adlandırdı. Arxetiplər hələ şüurlu emaldan keçməmiş psixi məmulatdır. Hər bir sosial kollektivin – ailənin, tayfanın, irqin öz kollektiv psixikası, yəni irsi ideyalar toplusu vardı. Seksual şövq və Edip

kompleksinə gəldikdə Yunq bildirirdi ki, Freyd səbəb və nəticəni qarışdırır, yazır ki, nevrozun əsas səbəbi seksual şövq deyil, mövcud şəraitlə bacarmayan şüurun uyğunlaşma qabiliyyətinin çatışmamasıdır.

Yunqun ideyaları freydçilərin ideyalarından daha çox tarixidir. O,bəşər cəmiyyətinin və mədəniyyətin inkişaf gedişi ilə hesablaşır, ibtidai icmanı müasir cəmiyyətdən ayırırdı. O, hər yerdə erotik simvollar axtarmırdı. Onun psixologiyanın sosial təbiəti, anlayışı (ictimai şüur) Freydin psixologiyanın fərdi anlayışından daha doğrudur. Lakin Yunqun ideyaları daha çox qarışıq və ağır olduğundan etnologiyaya o qədər də təsir etmədi.

«Dünya müharibəsindən sonrakı illərdə etnoqrafiya elmində freydizm ideyaları, xüsusən ABŞ-da «yeni freydistlər» nəzəriyyəsi geniş yayılmağa başladı və bu sahədə yeni etnoqrafik ədəbiyyatların yazılmasına başlanıldı. Söhbət isə çox uzaqlara gedirdi. Əlbəttə, Zigmund Freydin və onun tələbələrinin baxışları ictimai məişət və mədəniyyətin formalaşmasında, ilk növbədə insanların «qeyri-şüuru», «həyat və fəaliyyətinin insan psixukasının» erotik hissələrinin, emosiyalarının əsas rol oynamasını göstərmələri idi.

### 5. Etnopsixoloji məktəb

XX əsrin 30-cu illərindən amerika etnologiya elminin inkişafında yeni mərhələnin əlamətləri müşahidə olunurdu. 1929-1932-ci illər iqtisadi böhranı ABŞ-da Ruzvelt hökumətinin iqtisadi sabitləşdirmə və demokratiyada ümumi rejimi, maliyyə monopoliyalarının müqaviməti, hərbi cəhətdən ifrat güclənmə, etnoqrafik fikirlərin vəziyyətinə də təsir etdi.

XX əsrin 30-cu illərinədək Amerikada etnologiyanın inkişafı Boas məktəbinin təsiri altında getmişdir. Frans Boas yazırdı: «Hər bir mədəniyyət yalnız tarixi amil kimi başa

dühülməlidir. Hər bir mədəni formaya bir tam kimi baxır və mütəmadi olaraq mövcud olan inkişaf tarixini öyrənməyə çalışırıq. Öyrənilən amillər isə daima hərəkətdə olduğundan, ibtidai mədəniyyətin dəyişməzliyi fikirləri faktlara uyğun gəlmir, daima əşyalar, eləcə də adətlərin dəyişkənliyi aydın görünür.

Amerika tarixi etnologiya məktəbi nümayəndələri müntəzəm tədqiqatları zamanı müxtəlif psixoloji və psixatrik metodikadan istifadə etmişlər. Bu da psixoloji antropologiya sahəsində geniş material toplamağa imkan vermişdir. Bu zaman ümumi psixoantropoloji nəzəriyyəyə ehtiyac duyulurdu. Sonralar bu nəzəriyyə «etnopsixoloji məktəb» adını aldı. Etnopsixoloji məktəbin nümayəndələri belə bir tezislə çıxış edirdilər ki, mədəniyyət abstraksiyadan başqa bir şey deyil. Eyni  zamanda əsl və ilkin reallıq fərd, şəxsiyyətdir. Ona görə də hər bir xalqın mədəniyyətinin tədqiqinə şəxsiyyətin tədqiqindən başlamaq lazımdır. Artıq XX əsrin 30-cu illərinin ortalarından Amerika etnoqrafiyasında «psixoloji» və  ya» etnopsixoloji məktəb» cərəyanı təşəkkül tapdı. Psixoloji cərəyan nümayəndələri XIX əsrdə etnoqrafiya elmində Bastiandan başlayaraq insan haqqında  bütün elmlərin açarlarını psixologiyada axtarırdılar. Taylor, Spenser, Lebbok, həmçinin Freydin mədəniyyət amillərinin əksəriyyətini insan psixikasında görürdülər.

Cərəyan nümayəndələri etnoqrafiyanın vəzifəsinin cəmiyyəti, onun tarixi qanunauyğunluqlarını, müəyyən adətlərinin mənşəyini öyrənməkdən ibarət olmayıb, ayrı-ayrı fərdləri, onların psixologiyasını, vərdiş və əhval-ruhiyyəsini öyrənməyin labüdlüyündən ibarət olduğunu əsas götürürdülər. Cəmiyyətin inkişafının həlledici amilində insan psixologiyasının təkamülünün ictimai həyatda baş verən dəyişikliklərə təsirinin həllediciliyini əsas götürürdülər.

«Etnopsixoloji məktəb» cərəyanının nümayəndələri mədəniyyət anlayışı ilə psixoloji anlayışları, xalqların mədəniyyətlərini onların psixoloji profilləri adlandırırdılar.

Cəmiyyət psixoloji modelləri mədəniyyətə qarşı qoyur, bunu xalqların milli və ya irqi xüsusiyyətləri ilə əlaqələndirirdilər.

Etnopsixoloji məktəbin ən məşhur nümayəndələri Abram Kardiner, Rut Benedikt, M.Mid, Ralf Linton, Eduard Sepir, Kora Dyu Bua, İrinq Hallouel idi.

Etnopsixoloji xarakterli ilk nəzəriyyəni etnoloq deyil, psixiatr Abram Kardiner (1891-1981) formalaşdırmağa çalışmışdır. O, uşağın mədəniyyətdə və onun sosial institutlarında hakim mövqe tutan şəxsiyyət kimi formalaşmasında praktiki qarşılıqlı əlaqə modelini təklif etmişdir. O, özünün iki əsərində – «Fərd və onun cəmiyyəti» (1939) və «Cəmiyyətin psixoloji sərhədləri» (1943) əsərlərində etnopsixoloji məktəbin əsas ideyalarını ümumiləşdirilmiş şəkildə izah etmişdir.

Kardinerin təsəvvürlərinə görə, insan şəxsiyyət kimi dünyaya gəldiyi ilk gündən etibarən formalaşmağa başlayır. Bu, xarici aləmin təsiri altında baş verir və hər şeydən əvvəl hər bir cəmiyyətdə körpəyə konkret qulluq üsullarından asılıdır. Belə ki, qidalanma üsulları, gəzdirmək, yatırtmaq, sonralar isə yeriməyi, danışmağı, təmizkarlığı öyrətmək və s. Bu, ilkin uşaqlıq dövrünün təsəvvürləri insan şəxsiyyətində onun bütün həyatı boyu izini buraxır. İnsan psixikasının formalaşmasına onun həyatının ilk 4-5 ili sərf olunur. Bundan sonra o, möhkəmlənir, praktiki olaraq bütün həyatı boyu dəyişməz qalır və insanın taleyinin, onun uğurlarını və uğursuzluqlarını müəyyən edir. Hər bir nəslin insanlarının psixikası özündən əvvəlki nəslin təsiri altında formalaşır və bu proses fasiləsiz olaraq davam edir, nəslindən nəslə ötürülür. Hər nə qədər ki, bir xalqın daxilində körpəyə qulluq üsulları təxminən eynidir, müxtəlif xalqlar arasında müxtəlif

fərqlər mövcuddur, deməli hər bir xalq özünə məxsus psixikaya, şəxsiyyətə malikdir. Hər hansı xalqın «əsas şəxsiyyəti» necədirsə, onun mədəniyyəti də elədir. Etnopsixoloji məktəbin nümayəndələrinin körpəlik dövrünün tədqiqinə, uşaq psixologiyasının öyrənilməsinə marağı və xidməti də elə budur.

Beləliklə, Kardinerə görə «əsas şəxsiyyət» cəmiyyətin bütün üzvləri vahid olan təcrübü baza əsasında formalaşır və özündə müvafiq şəxsi xarakteristikanı ifadə edir. Bu da fərdin müvafiq mədəniyyətdə daha fərasətli olmasını təmin edir və daha rahat şərait yaratmaq imkanı verir. Başqa sözlə, hansısa orta psixoloji tipini və bu cəmiyyətin mədəniyyətinin bazasını təşkil edir. Buna görə də şəxsiyyətin psixoloji tədqiqini bütünlükdə cəmiyyətə aid etmək tamamilə qanuna uyğundur. Beləliklə, amerika etnoloqlarının tədqiqat istiqamətində əhəmiyyətli yerdəyişmə baş verir: ağırlıq mərkəzi xalqın mədəniyyətinin tədqiqindən onun psixoloji xüsusiyyətlərinin öyrənilməsinə keçir. Bu xüsusiyyətlərin köklərini və səbəblərini isə insanın fərdi psixikasındakı fərqlərdə, öz növbəsində isə insanın ibtidai təcrübəsi zamanı yaranmış fərqlərdə axtarmağa başlayırlar.

Kardiner «etnopsixologiya» cərəyanın ideya rəhbəri idi. Bu cərəyan Freydin psixoanalitik təliminə əsaslanırdı. Köhnə irqi nəzəriyyəçiləri tənqid edərək insanların milli xüsusiyyətlərindəki fərqləri, psixoloji profildəki müxtəlifliyin həlledici əhəmiyyətini əsaslandırırdı. Böhran və müharibələri aradan qaldırmaq üçün Amerikan milli xarakterinə bənzər ümumdünya miqyaslı vahid psixoloji profil yaratmağı əsaslandırırdı.

Etnopsixoloji məktəbin nümayəndələrinin sırasında Rut Benedikt (1887-1948) xüsusi mövqe tutur. Onun «Cənub-qərb mədəniyyətinin psixoloji tipləri» (1928), «Şimali Amerikada mədəniyyətin konfikqurasiyası» (1932), «Mədəni modellər» (1934), əsərlərində əsas tezis hər bir xalqda onun

özünə məxsus xarakterinin baza strukturunun olması, nəsildən-nəslə keçməsi, bu xalqın tarixini müəyyən etməsi fikridir.

Hər bir mədəniyyətin özünəməxsus mədəni tipi, hər bir şəxsiyyət tipinin hakim davranış modeli və ya psixoloji cizgiləri var. Benedikt Şimali Amerika və Malaziya tayfalarını tədqiq edərək aşağıdakı mədəni konfiqurativ tipləri müəyyənləşdirmişdir:

- apollon tipi – xarakterik cizgiləri fərdin qrupun (yaş, cins) adətlərinə tabe olması, özünü xarakterin emosional-ekstremal təzahürlərindən saxlaması və s. Bu mədəniyyətdə ölçü hüdud ideyası hər şeydə əksini tapır: qəzəbin, gücün, qısqanclığın açıq şəkildə ifadəsinə rast gəlinmir; təşkilatlanma və sərbəstlik uşaqlıqdan tərbiyə olunur; davranış normaları fərdin deyil, ictimai strukturların tərəfindən yaradılır. Ona görə də bu cür mədəniyyət rəhbərin avtoritet göstərişlərinə deyil, ənənələrə əsaslanır.
- dionisi tipi ziddiyyətli konfiqurasiyalı tipdir və üzvlərinin individuallığı ilə fərqlənir. Burada zor tətbiqinə tez-tez rast gəlinir. Özünü qorxmaz və aqresiv göstərən və məqsədə çatmaq üçün heç nədən çəkinməyənlərin cəmiyyətdə çəkisi yüksəkdir.
- paranoidal tip münaqişələr və insanlarda şübhəliliyin yüksəkliyi ilə fərqlənir. Bu mədəniyyətdə ər və arvad, qonşular və kəndlər arasında düşmənçilik hissi formalaşır. Burada belə bir əminlik var ki, birinin uğuru və qazancı digərinin uğursuzluğu və itkisi anlamına gəlir. Nəzər yetirmək üçün magiyadan geniş istifadə olunur.

«Xrizantema və qılınc» əsərində isə Rut Benedikt yapon xalqının təfəkkür tərzini əsaslandırırdı.

Tezliklə, praktiki tədqiqatlar etnopsixoloji məktəbin ideyalarının dayanıqlı olmadığını göstərdi. Buna görə tədqiqatların əsas mövzusu milli xarakterlərin öyrənilməsi oldu. Bu məktəbin məşhur nümayəndələrindən biri F.Boasın

şagirdi Marqaret Mid (1901-1978) bildirirdi ki, mədəniyyətin və fərdin qarşılıqılı münasibətləri uşağın böyüməsi prosesində formalaşır. O, bütün karyerası boyu uşaqlıq dövrünün öyrənilməsi ilə məşğul olmuşdur. Mid uşaqlıq dövrünün xüsusiyyətlərinə uyğun olaraq üç mədəni tipi postfiqurativ, kontiqurativ, pretiqurativi – müəyyən edirdi.

- Postfiqurativ mədəniyyət primitiv və ənənəvi cəmiyyətlərdə yayılır. Burada instiniktiv dəyişiklik yavaş-yavaş və gözlənilmədən baş verir. İndiki yaşlılar öz uşaqları üçün gələcəyin sxemidirlər. Bu mədəniyyət cəmiyyətdə üç nəslin iştirakı olduğu halda mövcud olur. Burada hər hansı bir mədəniyyət formasının nəsildən-nəslə ötürülməsi baş verir. Postfiqurativ mədəniyyətin hakim olduğu şəraitdə istənilən dəyişiklik qoyulmuş qaydalara ziddiyyət və ya fərqli fikirli, başqa dindən və başqa xalqdan olan insanların təsəvvürləri kimi qəbul edilir. Bu mədəniyyətin əsas elementi adət-ənənələrdir. Bu isə yaşlıların avtoritetini (hörmətin), onların öz uşaqlarının və nəvələrinin taleyini həll etmə hüquqlarını təsdiqləyir və möhkəmələndirir. Yaşlıların təcrübəsinin yenidən tətbiqi və keçmişin dəyərlərinə müraciət adi reallıq kimi qəbul edilir. Bu təcrübənin yenidən qiymətləndirilməsi, yenidən dərki və yeni dəyərlərin yaradılması isə qeyri-adi hal hesab edilir.

- Konfiqurativ mədəniyyətə insanlar üçün əxlaq modeli onların müasirlərin davranışları hesab olunur. Artıq təqlid etmə idealı keçmiş deyil, müasir dövr olur. Konfiqurativ mədəniyyətdə biliyin, təcrübənin bilavasitə aktiv fəaliyyət göstərən nəslin nümayəndələrindən mənimsənilməsi nəzərdə tutulur. Ən sadə formada desək, Konfiqurativ mədəniyyət cəmiyyətdə üçüncü nəslin (qocaların) iştirak etmədiyi mədəniyyətdir. Onlar nəvələri ilə birgə yaşamırlar, ona görə də burada varis nəsil və qaydalar yoxdur. Uşaqlar valideynlərin təsirindən kənarda, müstəqil olaraq özlərinə həyat tərzi seçirlər. Konfiqurativ mədəniyyətdə həyat tərzinin

dəyişilməsi nəzərdə tutulur. Yaşayış yerini, eyni zamanda mədəni əhatənin dəyişilməsini inkar etmir. Bu mədəniyyətdə əsas komponent rasionallıqdır (əqlilik, idraklılıq). Bu isə insanları qoyulmuş məqsədə və normalara çatmaq üçün istiqamətləndirir, bütün üzvlərin qarşılıqlı münasibətdə bərabərliyini təmin edir. Gündəlik ünsiyyət norması kimi qapalılıq, təcrübəlilik üstünlük təşkil edir. Səmimilik və universallıq isə qeyri-adi hal kimi qəbul edilir.

Prefiqurativ mədəniyyət XX əsrin ortalarında yaranmış və bilavasitə cəmiyyətin gələcək inkişafı ilə fərqlənir. Burada bilik və bacarığın ötürülməsi qaydası elədir ki, uşaqlar onları öz valideynlərinə ötürə bilər. Burada qeyri-rasional (əqli olmayan, hissələrə əsaslanan) və daxili səbəblərdən törəyən qarşılıqılı təsir formaları xarakterikdir. Uşaq yaradıcılığının nəticəsi (onların fantaziyaları, müşahidələri, fərziyyələri) böyüklərin həyatının müxtəlif sahələrində düzgün qərar axtarışı üçün şərait yaradır. Burada uşaq ünsiyyət üçün tam hüquqlu iştirakçı və şərik kimi qəbul olunur, gündəlik həyat «diletantlıq» (həvəskarlıq), «improvizasiya» terminləri ilə izah edilir. Peşəkarlıq və dəqiq əqli hesab qeyri adi hal hesab olunur.

Köhnə iqri nəzəriyyələri tənqid edən etnopsixoloji məktəb nümayəndələri qeyd edirdilər ki, cəmiyyətin həyatında insanların xarici, fiziki əlamətləri deyil, milli xarakterindəki fərqlər, psixoloji profillərdəki müxtəlifliklər həlledici əhəmiyyətə malikdir. Onların fikrincə bəzi xalqlar daha çox təkmilləşmiş, yetkinləşmiş psixoloji profillərə malikdir və başqaları belə keyfiyyətlərdən məhrumdurlar.

Etnopsixoloji istiqamətin hakim olduğu dövrdə bir çox Amerika etnoqrafları o dövrdə böyük əhəmiyyət kəsb edən akkulturasiya problemi ilə məşğul olurdular. Akkulturasiya dedikdə, bir xalqın mədəniyyətinin, adətinin qonşu xalqın adətinin təsiri nəticəsində dəyişməsi nəzərdə tutulur. Akkultirasiya qarşılıqlı prosesdir. Hər iki qonşu xalqın bir

birindən qarşılıqlı nə isə götürə bilməsidir. Amma adətən daha güclü mədəniyyətə malik olan xalq daha güclü təsir göstərir. Bu təsir siyasi və iqtisadi təsirlə müşayət olunduqda daha güclü olur. ABŞ-da da vəziyyət belə idi. Güclü kapitalist hökuməti zəif və azsaylı hindu tayfalarını sıxışdırırdı. Onlar isə öz növbəsində hakim mövqedə duran xalqa həm də mədəni münasibətlərdə tabe olmağa məcbur olurdular. Məhz bu ictimai-siyasi əlamətlər XX əsrin 30-cu illərində etnopsixoloji məktəbin hakim mövqedə olmasına gətirib çıxardı.

Azsaylı və pərakəndə hindu tayfaları müstəmləkəçilərə qarşı uğurlu müqavimət göstərə bilməzdilər. Onların özünəməxsus sosial-mədəni quruluşu dağıldı, iqtisadiyyatları kapitalist sisteminə tabe olmağa məcbur oldu. Amerikan etnoloqlarının hinduların bu faciəsinə dair kifayət qədər zəngin materiallar toplamasına və nəşr etdirmələrinə baxmayaraq, onlar bunun mahiyyətini yalnız mədəni yenidənqurmada psixoloji proses kimi dərk edirlər. Etnopsixoloji məktəbin dayaqlarından biri Ralf Linton akkultirasiya haqqında yazırdı: «Mədəni dəyişiklik prosesinin mahiyyəti fərdi psixoloji dərk etmə və unutma proseslərindən ibarətdir.

Psixoloji məktəb cərəyanının nümayəndələri pərdəli şəkildə ABŞ imperialistlərinin  dünya hökmranlığını, irqçiliyi tənqid edirdilər.

Etnopsixoloqdar əhalinin müxtəlif sinif və təbəqələri arasındakı sosial ziddiyyətlərin mənbəyini psixoloji profillərin müxtəlifliyində görür ədalətli sosial cəmiyyətin yaradımasında profillərin arasındakı müxtəlifliyin aradan qaldırılması fikrini əsas  götürürdülər.

## XX ƏSRDƏ YARANMIŞ CƏRƏYANLAR

### 1. Mədəni relyativizm

Avropanın və Amerikanın kapitalist ölkələrində müxtəlif nəzəriyyələrin mövcudluğu Avropa və Amerika alimlərinin etnologiyasının qarşısında duran ənənəvi müxtəlifliyi yönümündən izah edir, Avropada bu sahədə iki əsas maraq: xalqların vətənpərvərlik baxımından öyrərilməsi və digər xalqların, yəni avropalı olmayanların müqayisəli öyrənilməsini əsas götürürdülər. Öyrənməyin bu iki tərəfini fransızlar – xalqların ənənələri və etnologiya, ingilislər sosial antropologiyanın folklaru baxımından öyrənirdilər.

Məsələnin birinci tərəfi bir-birindən asılı olmayaraq yanaşmış, öz xalqını (Volkskunde) XIX əsrin birinci onilliyində Avropada milli azadlıq hərəkatının yaranması ilə əlaqədar xalqların tarixlik, ənənəvilik baxımından öyrənilməsi, həmçinin qeyri-avropalı xalqların (Völker-Runde) XIX əsrin ortalarından başlayaraq Avropa ölkələrinin müstəmləkəçilik siyasəti ilə əlaqədar öyrənmələri ABŞ-da «mədəni relyativizm» və ya «nəzəriyyənin qiymətləndirilməsi», yəni yaranmış və yaranmaqda olan müxtəlif xalqların bərabər mədəni dəyərlərinin qiymətləndirilməsi qəbul edilirdi.

Dünya etnologiyasında 1940-1950-ci illərdə yeni elmi məktəblər yaranmışdı. Onlar arasında mədəni relyativizm xüsusi yer tuturdu.

Qərbi Avropa və Amerika etnologiyasında geniş yayılmış mədəni relyativizm (nisbilik) nəzəriyyəsi Avropa etnosentrizm nəzəriyyəsinə cavab olaraq yaranmışdı. Qeyd edək ki, Avropa etnosentrizm tərəfdarları qeyri-Avropa xalqlarını vəhşi və geridə qalmış xalqlar hesab edirdilər. Mədəni relyativizmin əsas ideyası müxtəlif xalqlar tərəfindən

yaradılmış mədəniyyətlərin onların inkişaf səviyyəsindən asılı olmayaraq bərabər hüquqlu hesab edilməsi və istənilən formada etnosentrizmin, o cümlədən Avropa və Amerika etnosentrizminin inkarından ibarətdir.

Mədəni relyativizmin tərəfdarları bildirirdilər ki, müxtəlif xalqların mədəni tipləri müqayisə edilməzdir, onların bir miqyasda ölçülməsi mümkün deyil. Çünki hər bir mədəniyyət müqayisə edilməz unikal dəyərlər sisteminə malikdir. Hər bir mədəniyyət öz növbəsində mürəkkəb, qiymətli və özünəməxsusdur. Hər bir mədəniyyət yerli şəraitdə uyğunlaşmaq üsulu olduğundan, digərləri ilə eyni hüquqa malikdir. Hər bir mədəniyyətə öz xüsusi çərçivəsindən qapalı yaşayış forması kimi baxılmalıdır.

Relyativizmin başlanğıc ideyaları Boasın müxtəlif mədəniyyətlərin özünə görə dəyərli olması fikirləri ilə formalaşmışdır. Onu A.Kreber, R.Benedikt. M.Xerkoviç dəstəkləyib və inkişaf etdirdilər.

Mədəni relyativizmin ən görkəmli nümayəndəsi Melvill Xerekoviç (1895-1963) F.Boas və A.Qoldenveyzerin (1880-1940) tələbəsi olmuşdur. O, öz baxışlarını «Akkulturasiya» (1938), «İnsan və onun yaradılması» (1948), «Mədəni antropologiya» (1940) adlı əsərlərində geniş şəkildə təqdim etmişdir. O, burada öz ideyalarını əvvəlki mədəni nəzəriyyələrdən fərqləndirir. Xerkoviç əvvəlki nəzəriyyələrin qəbul etdiyi 3 determinant fikirin əleyhinə çıxır: bütün mədəni müxtəlifliklərin fərdin bədən quruluşuna uyğun olmasını bildirən irqi şərh; mədəniyyətin özünəməxsusluğunu ətraf mühitin təbii xüsusiyyətləri ilə əlaqəli olmasını bldirən coğrafi determist şərh; mədəniyyətin aparıcı faktoru maddi nemətlər istehsalı üsulları olmasını bildirən iqtisadi determist şərh.

Xerkoviç ümumi tarixi-mədəni inkişafı müxtəlif istiqamətlərdə inkişaf edən mədəniyyətlər toplusu kimi görürdü. O, mədəniyyəti geniş planda insanın ətraf mühitdə

yaratdıqları kimi dərk edir, hər bir mədəniyyətə daimi adət-ənənələr modeli kimi baxırdı.

Xernoviç «Mədəni antropologiya» kitabında bildirirdi ki, hər bir xalqın mədəniyyətinə hörmətlə yanaşmaq lazımdır. Hansısa xalqın həyatına onun müstəqil inkişafa qadir olmaması adı altında qarışmaq olmaz. Bu cür nəzakətsiz qarışma narazılıq, inamsızlıq, kin və gələcək toqquşmalara zəmin yaradır, istənilən mütərəqqi elmin tapşırığı dünya siyasəti ilə müştərək çalışıb, bəşəriyyətin bu cür müstəqil inkişafını təmin etməkdir.

Bu cür mütərəqqi fikirlərə baxmayaraq, onun ideyalarının birtərəfli inkişafı absurd ideyalara gətirib çıxarmışlar. Xalqların bərabər hüquqlu mədəniyyəti fikrini qəbul etsək də, bəzi «mədəni dəyərlər»ə haqq qazandıra bilmərik; Məsələn, Yeni Qvineyada baş kəsmə adəti, qədim Romada qladiator döyüşləri, orta əsrlərdə inkvizisiyalar, faşist Almaniyasında həbs düşərgələrəinə və digər bu kimi hadisələrə.

M.Xerkoviç qeyd edirdi ki, əxlaqın bəzi stereotipləri, nikahın formaları , adətlər digər mədəniyyətlərdə normal qəbul edilən (poliqamiya, poliandriya, inisiasiya və başqaları) əlbəttə, avroamerikan mədəni standartlarından yayılmayıb.

Mədəni relyativizmin mahiyyətini açaraq M.Xerkoviç mədəni relyativizmə üç aspektdən yanaşmışdır: metodoloji, fəlsəfi, praktik. Metodoloji yanaşmada mədəniyyətin müvafiq xalqın qəbul etdiyi dəyərlər sistemi kimi başa düşülməsi bildirilirdi. Fəlsəfi aspekt mədəni inkişafın çoxsaylı yollarının və mədəni-tarixi prosesə baxışda plüralizmin olmasını qəbul edir. Praktiki aspekt mədəni özünəməxsusluğu saxlamaq şərti ilə sənaye sivilizasiyasına arxaik mədəniyyəti cəlb etməyi təklif edirdi.

## 2. Neoevolyusionizm

Amerika etnologiya elmində XX əsrin 40-cı illəri təkamülçü baxışların yenidən yaranması ilə xarakterikdir. Uzun bir dövr ərzində – əvvəlcə Boas məktəbinin, sonra isə etnopsixoloji məktəbin hökmranlığı dövründə təkamül anlayışı haqda danışmaq belə mümkün deyildi. Bununla belə, yeni təkamülçülüyünün tərəfdarları «təkamül» terminini müxtəlif şəkildə şərh edirdilər: o tərəqqi deməkdir, yoxsa bərpa olunmaz dəyişiklik; aşağıdan yuxarıya doğru, yaxud sadədən mürəkkəbə doğru yoldur; sadəcə yaş dəyişiklikləri; birxətli və ya çox xəttli təkamül; ümumiyyətlə, Darvinin növlərin təkamülü haqda nəzəriyyəsini insan mədəniyyətinə tətbiq etmək olarmı və s. bu terminin anlaşılma formasından asılı olaraq müxtəlif nəzəri nəticələr ortaya çıxdı. Corc Mördok bildirirdi: «Əgər təkamül termini antropoloji leksikonda öz yerini almalı olsa, o zaman öz bioloji prototipi kimi hansısa dumanlı – konseptual abstraksiya kimi deyil, tamamilə konkret qanunauyğun uyğunlaşma dəyişikliklər prosesi kimi başa düşülməlidir».

Neoevolyusionistlər mədəniyyətin birtərəfli inkişaf nəzəriyyəsi ilə yanaşı bir neçə başqa təkamül nəzəriyyələri də hazırladılar: ümumi və xüsusi inkişaf nəzəriyyəsi, kiçik (mikro) və böyük (makro) proseslər nəzəriyyəsi, mədəni dominantlar qanunu, inkişaf potensialı qanunu və s. Onlar öz tədqiqatlarında bəşər cəmiyyətinin tarixini çox xətli inkişaf edən qapalı sistemlər toplusu kimi təsvir edirlər. Bu çox xətlilik insanın müxtəlif ekoloji mühitlərə uyğunlaşmasının nətəicəsi kimi göstərilirdi.

Yeni təkamülçülük ideyaları ABŞ-da məşhur kulturoloq və etnoloq Lesli Elvin Uaytın (1900-1975) əsərlərində əksini tapmışdı. O, öz nəzəriyyəsini üç böyük əsərində - «Mədəniyyət haqda elm» (1949), «Mədəniyyətin təkamülü» (1959), «Mədəni sistemlər anlayışı: tayfa və millət anlayışlarına açar» (1975) ifadə etmişdi.

Uayt ictimai inkişafın başlanğıc forması kimi ailəni qəbul edirdi. Lakin antropoiq ailəsi ilə sadə insan ailəsi arasında əhəmiyyətli fərq var və s.

Uaytın şagirdlərindən və həmfikirlərindən Marşall Salinsin adını xüsusilə qeyd etməliyik. O, təkamülçü baxışın nəzəri əsaslarını hazırlayaraq təkamülçülüyün sxematikliyini dəf etmişdir. «Ümumi təkamül kiçikdən böyüyə doğru enerjinin çevrilməsi, aşağıdan yuxarıya doğru inteqrasiya, azdan çoxa doğru ümumi uyğunlaşmadan ibarətdir. Spesifik təkamül müxtəlif mədəniyyətlərin uyğunlaşma əlamətlərinə görə çox xətli tarixi qollara ayrılır». Marşall Salins təkamüldə «ümumi», «spesifik» anlayışı əsas götürürdü.

Təkamül ideyalarını mədəniyyətini və sosial həyatın müxtəlifliyi faktı ilə uyğunlaşdırmağa çalışan Culian Stüard (1902-1972) «Çox xətli təkamül» nəzəriyyəsinin müəllifidir. Şimali və cənubi Amerikaya dair etnoloji və arxeoloji məqalələrin müəllifi olan Strüard öz baxışlarını «Mədəni dəyişikliklər nəzəriyyəsi» (1955) kitabında ümumiləşdirmişdir.

Etnoloq Averkiev bildirirdi ki, Stüardın nəzəriyyəsində kifayət qədər müsbət məqamlar olmasına baxmayaraq bəzi çatışmayan məqamlar da var. Məsələn, insan tarixin ümumi yüksələn gedişini danması, sinifli cəmiyyətə qədərki və sinifli cəmiyyətin əhəmiyyətli fərqini anlamaması, insan əməyinin ətraf mühitə aktiv təsirini qiymətləndirməsi.

1920-1960-cı illərdə neovolyusilonizm (yeni təkamülçülük) amerika etnologiyasında aparıcı nəzəri istiqamət idi. Bu mürəkkəb və müxtəlifyönümlü mədəniyyətin inkişafı klassik təkamülçülüyün modeli kimi səslənirdi. Digər nəzəriyyələrdən fərqli olaraq neoevolyusionizm müasir mədəniyyətin faktlarına söykənir, onların əsasında mədəniyyətin inkişafının çox erkən prosesləri əsasında yarandığını müəyyən edirdi.

Uaytın və Stüardın yeni təkamülçü baxışlarının əhəmiyyətli davamçısı 1929-cu ildə anadan olmuş Marvin

Xarrisdir. O, «Mədəni materializm» (1979) kitabında bildirirdi ki, mədəniyyətlər arasındakı fərqlər və oxşarlıqlar müvafiq zamanda ətraf mühitin müvafiq şəraitinə uyğun formalaşmış texnologiyalardır. Bu texnologiyalarla insanın tələbatları ödənilir. Bunlar isə ətraf mühitin xüsusiyyətlərinə uyğundur və mövcud resursların minimal əmək və enerji sərfi ilə istismarına yönəlib.

Xarris bu cür mühakiməyə əsaslanaraq müxtəlif mədəniyyətlərin simasında sübut etməyə çalışır ki, bizim absurd və irrasional hesab etdiyimiz bir çox adətlərin əsasında iqtisadi münasibətlər durur. Məsələn, qədim hind dinlərində böyük buynuzlu malın qurban kəsilməsindən danışılır, halbuki, müasir Hindistanda inəyin öldürüldməsinə qəti tabu (qadağa) vardır. Xarrisə görə, iqtisadi, ekoloji, demoqrafik, texniki faktorların təsiri ilə uzun tarixi prosesin nəticəsində müasir Hindistanda inəyə sitayiş yaranıb. Tədqiqatçı buradan belə nəticəyə gəlir ki, mədəniyyət və ətraf mühit bir-birinə qarqşılıqlı təsir edir.

### 3. Sovet etnoqrafiya məktəbi.

Bu termin SSRİ-də olan bütün etnoloji tədqiqatların mahiyyətini ifadə etmək üçün istifadə edilirdi. S.A.Tokarevin fikrincə Sovet etnoqrafiya məktəbi 30-cu illərin əvvəllərində formalaşmışdır: «Marksizm-leninizm»i yeganə həqiqi elmi metod kimi qəbul edən bütün sovet etnoqrafları bu metodun bazasında birləşərək etnoqrafiyada vahid sovet məktəbini yaratdılar. Bu məktəbin nümayəndələri xarici burjua elmindəki istənilən cərəyana qarşı vahid səbhədə birləşdilər».

Sovet etnoqrafiya məktəbini dövrləşdirərkən bütövlükdə sovet elminin ümumi inkişaf tendensiyasını və daxili meyarlarını nəzərə almamaq olmaz. Bu baxımdan sovet etnoqrafiyasının inkişafını 4 mərhələyə bölmək olar: 1) 1917-ci ildən 20-ci illərin sonunadək; 20-30-cu illər – 40-cı illərin

birinci yarısı; 3) 40-cı illərin ikinci yarısı – 60-cı illər; 4) 60-cı illərin ikinci yarısı – 80-cı illər.

Birinci dövrün mahiyyəti ondan ibarətdir ki, inqilab etnoloqlarda yaradıcı aktivliyi artırmışdı, sovetlərin dövründə həm mərkəzdə, həm də əyalətlərdə etnoloji tədqiqatlar güclənmişdi.

20-ci illərdə etnoqrafik tədqiqatlar dayanıqlı nəzəri axtarışlarla müşahidə edilirdi. İnqilaba qədər formalaşmış etnoloqlar müxtəlif Avropa etnoloji məktəblərinin yanaşmasını və metodunu qəbul etməyə çalışırlar (Ştenberq, Boqarz, Kuftin, Kosven). Dünya görüşündə hətta elmin bu sahəsinin adlandırılmasında (etnologiya, etnoqrafiya, xalqşünaslıq) fikir ayrılığı olmasına baxmayaraq, birmənalı olaraq etnologiyaya xalqlar haqda elm kimi baxırdılar. Yaşlı nəsil, tədqiqatçıların əksəriyyəti marksist metodologiyanın, materialist dünya görüşünün tətbiqinə çalışırdılar. Çoxsaylı mübahisələrin nətəicəsində 1929-1932-ci illərdə prinsipial nəzəri məsələlərdə ümumi mövqeyi müəyyənləşdirmək məqsədilə etnoqrafik müşavirələr keçirilirdi. Bu müzakirələrin nəticəsində Sovet etnoqrafiya məktəbində yeni mərhələ açıldı.

30-40-cı illərin sovet etnoqrafiyasının inkişafını qiymətləndirmək bu dövrün sosial-siyasi prosesləri kimi çətin və ziddiyyətlidir. Həyat etnoqrafik tədqiqatların marksist-leninçi metodunu və sosializm quruculuğunun bazasında yenidən qurulmasını tələb edirdi. Bu dövrdə sosializm quruculuğu haqda Stalin nəzəriyyəsinin inkar edilməzliyi sovet cəmiyyətində təbliğ olunurdu.

Sovet etnoqrafiya elmində ikinci mərhələ əvvəllər az öyrənilən Uzaq Şimalda etnoqrafik işlərin genişlənməsi ilə yadda qaldı. 30-cu illərdən başlayaraq Q.N.Prokofyev, V.N.Çerneçov, A.F.Anisimov, A.A.Popov, V.O.Dolqix və başqalarının evenk, xanti, mansi, qanasan, selkup, koryak, nivxa, ket və b. xalqlar haqda tədqiqatları ortaya çıxır. Sibir, Mərkəzi Asiya və Qafqaz xalqlarının öyrənilməsinə dair

L.T.Potapov, N.N.Stepanov, S.A.Tokarev, A.P.Okladnikov, N.A.Kislyakov, S.P. Tolstov, L.J.Lavrov və başqalarının monoqrafiyaları işıq üzü gördü. Bu müəlliflərin əsərlərində və ümumilikdə bütün ikinci mərhələyə xas olan cizgilər bunlarıdır: ittifaqın müxtəlif xalqlarında ictimai təşkilatların analizi, qəbilə-icma ukladında qalıqların təzahürü, onların feodal və kapitalist elementləri ilə əlaqəsi məsələsinin öyrənilməsi, qəbilə-tayfa strukturunun təhlili və s.

E.Y.Kriçevski, E.Q.Kaqarov, S.N.Bikovski, A.M.Zolotarev, M.O.Kosven öz əsərlərində ibtidai icma cəmiyyətlərinin ümumi məsələlərinə nəzər salmışlar: eqzoqamiyanın yaranması, ailə və nikahın tarixi formaları, qohumluq sistemləri və s.

Sovet etnoqrafiya məktəbində üçüncü mərhələ müharibədən sonrakı ilk illərdən başlayır. Sovet etnoqrafiyasının fəaliyyətinin xüsusilə də səyyar tədqiqatların güclənməsi ilə xarakterikdir. Bu dövrdə etnologiyanın predmeti anlayışında dəyişikliklər baş verir. Etnogenez probleminin öyrənilməsinə maraq artır. 30-cu illərdən fərqli olaraq bu mərhələdə etnologiya dünyanın müxtəlif xalqlarının tarixi inkişafında mədəni-məişət xüsusiyyətlərini tədqiq edən, xalqların yaranması və onların mədəni-tarixi münasibətlərini öyrənən, onların məskunlaşma və yerdəyişmə tarixini müəyyən edən sahəsidir. Üçüncü mərhələdə, D.N.Anuçinin elm triada (arxeologiya, etnologiya. antropologiya) haqda fikirləri, S.P.Tolstovun «Xarəzm tarixinə dair» tədqiqatları xüsusilə yadda qalandır.

60-cı illərdən başlayan dördüncü mərhələ etnos nəzəriyyəsinin əsas tədqiqat obyektinə çevrilməsi oldu. «Etnos» anlayışının bərpasının təşəbbüskarlarından biri R.J.Kuşner idi. O, etnik ümumiliyin əsas əlamətlərinin təhlilinə diqqət yetirir, etnik özünüdərkin etnosun ən əhəmiyyətli sahəsi olmasını bildirirdi.

Bu dövr sovet etnoqrafiya məktəbinin ən məşhur nümayəndəsi Y.V.Bromleydir. O, öz əsərlərində sovet etnoqrafiya məktəbinin sonrakı inkişafına stimul verən bünövrəni qoydu. Onun izah etdiyi amillər bunlardır: «Etnos» anlayışının müəyyənləşməsi, etnik endoqamiyanın etnosun vahidliyinin saxlanılma mexanizmi olması, etnik ümumilliyin tarixi tipologiyası, etnosun iearxiya, strukturu və s. O, bildirirdi ki, etnoqrafiyanın əsas meyarı etnik kompanentlərə onların yerinə yetirdiyi etnik funksiya prizmasından baxmaqdır.

Bu mərhələnin xüsusiyyətlərindən biri də yaxın fərqli elmlərin yaranması idi: etnodemoqrafiya, etnocoğrafiya, etnososiologiya, etnik onamastika.

### 4. Çin sosiolokal tədqiqatlar məktəbi

1930-cu illərdə Çin etnologiya elmində əsas tədqiqat obyekti sosiolokal qruplar oldu. Onun banisi Uvençzao (1901-1985) bu anlayışın üç fundamental əlamətini müəyyənləşdirmişdi: 1) fərdin təmsil etdiyi cəmiyyətlə birləşməsi; 2) onun yaşayış ərazisi; 3) ona səciyyəvi olan mədəni xüsusiyyətlər. Sosial qrupların mədəniyyətinə onların xarici aləmin şəraitə uyğunlaşmasının nəticəsi kimi baxan Uvençzao maddi və mənəvi mədəniyyətləri qarşı-qarşıya qoyurdu. Bu məktəbə funtsionalizmin əsas ideyaları bilavasitə təsir göstərmişdi. Onun tərəfdarları mədəniyyətə struktur qarşılıqlı əlaqədə olan komponentlərin üzvü birliyi kimi baxırdılar. Çin sosiolokal tədqiqatlar məktəbinin əsas xüsusiyyətləri sosiolokal qrupların strukturası və funksiyasının tarixi aspektinin əhəmiyyətini qəbul etmələri idi. Bununla belə, onlar etnik ümumiliyi və etnoslararası münasibətlərin vacibliyini də qəbul edirdilər. Bu istiqamətdə 30-cu illərdə Yantszi Universitetində etnologiya dərsi deyən S.M.Şirokoqorovun fikirləri də əhəmiyyətlidir.

U.Uvençzao və Şirokoqorovun tələbələrinin Çinin azsaylı xalqlarında mədəni və sosial təşkilatlara həsr etdikləri

əsərləri qiymətlidir. Lakin, Fey Syaotunanın «Çində kənd təsərrüfatı» əsəri daha çox rezonans doğurmuşdur. Londonda nəşr olunan bu əsərə ön sözü yazan Malionovski onu səyyar tədqiqatlar və antropoloji nəzəriyyələr tarixində vacib mərhələ adlandırırdı. Malinovski bu məktəbin xidmətini primitiv cəmiyyətin deyil. Müasir Çin etnosunun mədəniyyətinin tədqiqində görürdü.

## 5. Etnologiyada yeni nəzəriyyələr

XX əsrin ikinci yarısında ABŞ etnologiya elmində əhəmiyyətli nəzəri yeniliklər olmuşdur. Bu dünyadakı siyasi vəziyyətin dəyişməsi ilə əlaqədardır. İkinci Dünya müharibəsindən sonra müstəmləkə imperiyalarının dağılması etnologiya elminə praktik marağın azalması ilə nəticələndi. Amma etnologiya elminə marağın azalması o demək deyildi ki, yeni nəzəri işlər ortaya çıxmır. Böyük Britaniyada Maks Qlyukman Mançester (1917-1975) neofunksionalizm məktəbini, Rodney Nidhem (1923-cü ildə doğulmuşdur) isə sosial strukturalizmin yeni nəzəriyyəsini yaratmışdı.

Müharibədən sonrakı illərdə fransız etnologiyasının Levi-Strossun ideyasının təsiri altında olmasına baxmayaraq, Moris Qodelye, Klod Melisso və başqa etnoloqlar tarixi materializmdən istifadə edərək öz fikirlərini formalaşdırdılar.

Fransız strukturalisti Gevi-Stross qohumluq terminləri, folklor, mifologiya, yeməyin hazırlanmasını metodoloji hadisə adlandırır, öz fikirlərini «Nəhşi fikir» əsərində əsaslandırırdı. Bu sahədə iki istiqamət «Formalistlər» - Qrdfelloy Şneyder sankler və b. həmçinin «Substantivistlər» - karl polani Corcfaston və digərlərinin rolu böyükdür.

Diffuzionizmin Vyana məktəbi nümayəndəsi Qreber «İlkin əhalinin dünyagörüşü» əsərində təkamülü Uenşen «Mədəni mifologiya»nı Leo Frobenius «Mədəni-morfoloji» istiqaməti əsas götürürdülər.

Qərbi Avropa, Avstriya, Skandinaviya ölkələri, Finlandiya, Fransa və digər ölkələrdə etnopsixoloji fikirlər yayılırdı.

Qeyd etmək lazımdır ki, XX əsrin 2-ci yarısında marksizm nəzəriyyəsi ABŞ etnologiyasına da təsir etmişdi. 1952-ci ildə Nyu-Yorkda etnoqrafların qurultayı çağırılmışdı. Qurultayda Devid Bidkey Meyer, Şapiro, Çarliz Qeya, Polo Baxennen, Marvin Xarrisa, Morton Frayd, Yendella Osvolta kimi etnologiyanın fəaliyyəti ön plana çəkilmişdi.

XX əsrin son illərində amerikan etnologiyasında Klifford Qirç və Rixard (1926-cı ildədir) Ternerin (1920-1983) adlarını xüsusilə qeyd etməliyik. Onlar germenevtik tədqiqat üsulunun əsasını qoymuşlar ki, onun da məqsədi sosial əlaqələrdə simvolların rolunu, onların müasir mədəniyyətlərdə dünyagörüşünü, dəyərlərini və əxlaqdakı əhəmiyyətini öyrənməkdir. Terner əsasən simvolların praqmatik aspektinə maraq göstərmişdir. O, belə nəticəyə gəlmişdir ki, simvollar sosial tərəqqidə aktiv rol oynayır. Ternerdən fərqli olaraq Qriç simvolların sosial həyatdakı rolu, onların insan qavrayışına, hislərinə və təfəkkürünə təsirinə diqqət yetirmişdir. O, bildirirdi ki, etnologiya elmi empirik materialların təsviri ilə kifayətlənməməli, müvafiq mədəniyyət daşıyıcılarının hərəkət və düşüncələrinin dərin mənasını tapmalıdır.

Müxtəlif mədəniyyətlərin müasir qarşılıqlı təsir və yaxınlaşma prosesi bu mədəniyyətləri vahid qlobal mədəniyyət sisteminə gətirir. Bununla əlaqədar olaraq etnologiyada o nəzəri istiqamətlərin inkişaf perspektivi vardır ki, bilavasitə, onlar digər mədəniyyətlərə sadəcə tədqiqat obyekti kimi deyil, mədəni-tarixi inkişafda bərabərhüquqlu iştirakçı kimi baxırlar; yad həyat tərzlərinə dəyərlər sisteminə, düşüncə formasına əhəmiyyət verir, sosial və mədəni qarşılıqlı əlaqələrə isə ikinci dərəcəli rol kimi baxırlar.

## İstifadə olunmuş ədəbiyyat

### Azərbaycan dilində

1. Azərbaycan etnoqrafiyası. I cild. Bakı, Elm. 1989.
2. Azərbaycan etnoqrafiyası. II cild. Bakı, Elm. 2008.
3. Azərbaycan Sovet ensiklopediyası. I-X cild. ASE. Bakı, 1976-1987.
4. Həvilov H. Dünya xalqlarının etnoqrafiyası. Bakı, 1999.
5. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, 1991.
6. Sadıxov A. Həvilov H. Etnoqrafiya əsasları. Bakı, 1974.
7. Lev Qumilov Etnogenez və yerin biosferi. Bakı, 2005.
8. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, 1982.

### Rus dilində

9. Бромлей Ю.В. Этнос и этнография. М., 1973.
10. Боромоев А.О. Основы этнической психологии. СПб. 1991.
11. Врук С.И. Население мира. М., 1986.
12. Генинг В.Ф. Этнический процесс в первобытности. Свердловск, 1970.
13. Джавадов Г. Народная земледельческая техника Азербайджана, Баку, 1989.
14. Итс Р.Ф. Введение в этнографию А.. 1974.
15. Кнышенко Ю.В. История первобытного общество и основы этнографии. Ростов-Дон, 1965.
16. Каракашлы К. Материальная культура азербайджанцев. Баку, 1964.
17. Косвен М.О. Материархат. История проблемы. М.,-Л., 1948.
18. Козлова Н. Социально – историческая антропология. М., 1999.
19. Львова Л.С. Этнография Африки. М., 1984.
20. Луре С.В. Историческая этнология. М., 1997.
21. Основы этнографии (под ред.) С.В.Токарева. М., 1968.
22. Садохин А.П. Этнологии. М., 2005.
23. Садохин А.П. Этнология (учебный словарь), М., 2002.

24. Рауз Ф. Аборигены Австралии. М., 1956.
25. Народы Африки. Под ред. Д.А.Ольдерагге. И.И.Потехина. М., 1954.
26. Народы Америки. Под. ред. А.В.Ефимова, С.А.Токарева М., 1959.
27. Народы Кавказа Т. I-II. Под. Редакцией Б.А.Гарданова, А.Н.Гулиева, С.Т.Ермяна, Л.И.Лаврова, Г.А.Нерсесова, Г.С.Читая. М., 1960-1962.
28. Народы мира (историко-этнографический справочник). Главный редактор Ю.В.Бромлей. Из-во «Советская энциклопедия», 1988.
29. Народы и религии мира. Энсиклопедии. М., 1998.
30. Новейшей справочник необходимый знакий. М., 1999.
31. Токарев С.А. История зарубежной этнографии. М., 1978.
32. Пилиненко Н.В. Этнография Беларусии. Минск, 1981.
33. Чебаксаров Н.Н., Чебаксарова И.А. Народы Расы. Культуры. М., 1985.
34. Чеснов Я.Б. Лекции по исторической этнологии. М., 1998.
35. Этнические процессы в современном мире. М., 1987.
36. Этнография (под.ред.) Ю.В.Бромлея и Г.Е.Маркова, М., 1982.
37. Этнонимы. М., 1970.
38. Этнография детства. М., 1998.
39. Этнология в США и Канаде. М., 1989.
40. Этнопсихология. М., 1996.
41. Этно-социалогия. М., 1998.
42. Широкогоров С.М. Этнос. Исследования основных принципов изменения этнических и принципов изменения этнических и этнографических явлений. Шанхай, 1933.

# MÜNDƏRICAT

Etnoqrafiyanın predmeti, mənbələri, vəzifələri və tədqiqat metodları. ....................................................................3
Dünya xalqlarının təsnifat növləri …......................................18
Avstraliya-Okeaniya xalqları ..................................................39
Amerika xalqları ......................................................................43
Afrika xalqları .........................................................................46
Asiya xalqları ..........................................................................48
Mərkəai Asiya, Qazaxıstan və Qafqaz xalqları.......................56
Avropa xalqları ........................................................................63
Azərbaycan etnoqrafiyası ........................................................69
Etnoqrafik məktəblərin yaranması və inkişafı ........................80
Etnoqrafiya elmində yaranmış ilk cərəyanlar .........................85
XIX əsrin sonu – XX əsrin əvvəllərində yaranmış cərəyanlar...........................................................115
XX əsrdə yaranmış cərəyanlar.............................................143
İstifadə olunan ədəbiyyat ....................................................154